**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2017, 4 (19)**

**ISBN: 90000000060074**

**BAKI-2017**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (19), 2017

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutnda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 94(479.24)**

## SOVET DÖVRÜNDƏ AZƏRBAYCAN İRAN MÜNASİBƏTLƏRİ İRAN TARİXŞÜNASLIĞINDA (1920-1941-Cİ İLLƏR)

***Eynulla Mədətli***
*AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutu*

**Açar sözlər:** *Azərbaycan, sovet dövrü, mədəni əlaqələr, münasibətlər, İran tarixşünaslığı*

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet rejiminin qurulması ilə təkcə Azərbaycanın siyasi tarixində deyil, həm də Azərbaycan-İran münasibətlərində yeni mərhələ başlandı. 1921-ci il fevralın 26-da Sovet Rusiyası ilə İran hökuməti arasında müqavilə bağlandı. Sovet tarixşünaslığında bu müqavilənin İranın başqa dövlətlərlə bağladığı ilk bərabərhüquqlu müqavilə olduğu iddia edilsə də, əslində bu həqiqətdən uzaq idi. Bundan sonra da Azərbaycan SSR Sovet-İran diplomatik və siyasi münasibətlərində mühüm rol oynamağa başladı ki, bu birinci növbədə onun coğrafi-siyasi şəraiti ilə əlaqədar idi. 1920-ci ilin oktyabrında Astara vasitəsi ilə Azərbaycanla İran arasında teleqraf rabitəsi, dekabrda isə Bakı ilə Tehran arasında birbaşa teleqraf rabitəsi bərpa edildi. Moskva ilə Tehran arasında teleqraf rabitəsi də Bakı vasitəsi ilə həyata keçirilirdi. İran tarixçilərinin rəyinə görə 1921-ci il 26 fevral müqaviləsi SSRİ-yə İrana güclü təsir göstərmək imkanı verirdi. Bu müqavilə SSRİ-yə 1941-ci ildə İrana ordu yeritmək üçün hüquqi əsas yaratsa da, İran tarixçiləri bu hadisəni işğal kimi dəyərləndirirlər.

İran müəllifləri SSRİ-nin siyasətini tənqid edərək, onu Şimali İranda separatizm yaymaqda günahlandırırlar. İran tarixşünaslığında belə bir ümumi fikir mövcuddur ki, Sovet ittifaqı İranda öz təsirini artırmaq üçün təkcə hərbi amillərdən deyil, ideoloji amillərdən də istifadə etmiş, sol yönümlü partiyaların yaradılmasında bilavasirtə iştirak etmiş, onların fəaliyyətini yönəltmişdir.

## ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА С ИРАНОМ В ИРАНСКОЙ ИСТОРИОГРАФИИ В СОВЕТСКОЕ ВРЕМЯ (1920-1941 ГОДЫ)

***Ейнулла Мадатли***

**Ключевые слова:** *Азербайджан, советская эпоха, культурные отношения, отношения, иранская историография*

С распадом Демократической Республики Азербайджан и установлением советского режима новый этап начался не только в политической истории Азербайджана, но и в азербайджано-иранских отношениях. 26 февраля 1921 года между Советской Россией и правительством Ирана был заключен договор. В советской истории этот контракт считался первым юридически обязывающим соглашением между Ираном и другими государствами, но по мнению иранских историков он был далек от истины. После этого Советская Социалистическая Республика Азербайджана стала играть важную роль в дипломатических и политических отношениях между Советским Союзом и Ираном, что было обусловлено главным образом его географически-политическим состоянием. В октябре 1920 года телеграфные связи между Азербайджаном и Ираном через Астару и прямая телеграфная связь между Баку и Тегераном в декабре были восстановлены. Согласно единодушному мнению иранских историков, соглашение 26 февраля 1921 года позволило СССР оказать сильное влияние на Иран. Хотя этот договор создает правовую основу для развертывания войск в Иране в 1941 году, историки Ирана оценивают это событие как оккупацию. Иранские авторы критикуют политику СССР и обвиняют его в распространении сепаратизма в Северном Иране.

В иранской историографии существует общая идея о том, что Советский Союз использовал не только военные факторы, но и идеологические факторы для усиления своего влияния в Иране, непосредственно участвовал в создании левых партий и направлял их деятельность.

## RELATIONS OF AZERBAIJAN WITH IRAN IN THE IRANIAN HISTORIOGRAPHY DURING THE SOVIET ERA (1920-1941)

***Eynulla Madatli***

**Key words:** *Azerbaijan, Soviet era, cultural relations, relations, Iranian historiography*

With the collapse of the Democratic Republic of Azerbaijan and the establishment of the Soviet regime, a new stage began not only in the political history of Azerbaijan but also in the Azerbaijani-Iranian relations. On February 26, 1921, a treaty was struck between the Soviet Russia and the Iranian government. In Soviet history, this contract was claimed to be the first legally binding agreement between Iran and other states, but according to Iranian historians, it was far from the truth. After that, the Soviet Socialist Republic of

Azerbaijan began to play an important role in the diplomatic and political relations between the Soviet and Iran, which was primarily due to its geographical-political condition. On October 1920, telegraph communication between Azerbaijan and Iran via Astara and direct telegraph communication between Baku and Tehran in December were restored. According to the opinion of Iranian historians, the February 26, 1921 agreement allowed the USSR to have a strong impact on Iran. Although this contract creates a legal basis for the USSR to deploy troops in Iran in 1941, Iranian historians rate this event as an occupation. Iranian authors criticize the policy of the USSR and accuse him of spreading separatism in Northern Iran.

There is a general idea in Iranian historiography that the Soviet Union has used not only military factors but also ideological factors to increase its influence in Iran, has been directly involved in the creation of left-wing parties, and directed their activities.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet rejiminin qurulması ilə təkcə Azərbaycanın siyasi tarixində deyil, həm də Azərbaycan-İran münasibətlərində yeni mərhələ başladı. Dövlət müstəqilliyinə son qoyulduqdan sonra Azərbaycan bolşeviklərin Şərq siyasətinin, xüsusən İranla bağlı siyasətinin həyata keçirilməsində əsas dayaq məntəqəsi rolunu oynamağa başladı. Bolşevik Rusiyası hökuməti 1918-ci il yanvarın 14-də "Persiya xalqının azadlığını və müstəqilliyini hər hansı şəkildə məhdudlaşdıran ya sıxışdıran bütün müqavilələrin qüvvədən düşdüyünü İran tərəfinə rəsmən bəyan etdiyinə baxmayaraq [1, 194], Azərbaycanı işğal etdikdən dərhal sonra İranda öz yeni müstəmləkəçilik planlarını həyata keçirmək üçün fəaliyyətə keçdilər. Bolşevik ekspansiyasının ilk hədəfi Xəzərin cənubunda yerləşən Ənzəli limanı və Gilan vilayəti oldu. Burada yerləşmiş denikinçi qüvvələri və ingilis hissələrini Sovet Azərbaycanı üçün təhlükə mənbəyi elan edən Qırmızı ordu hissələri qurudan və dənizdən hücuma keçərək Ənzəlini və İran Astarasını ələ keçirmiş, Gilan Sovet Respublikasının yaradıldığını elan etmişdilər. Lakin bolşeviklərin hərbi müdaxilə yolu ilə İranda sosializm ideyalarını yaymaq, bu məqsədlə M.Xiyabani hərəkatından və Gilan hərəkatından istifadə etmək cəhdləri uğursuzluqla nəticələndi [2, 127]. İran avantürasının uğursuzluğu bolşevikləri İran şahənşah hökuməti ilə diplomatik-siyasi münasibətlər yaratmağa vadar etdi.

1921-ci il fevralın 26-da Sovet Rusiyası ilə İran hökuməti arasında müqavilə bağlandı. Sovet tarixşünaslığında bu müqavilənin İranın başqa dövlətlərlə bağladığı ilk bərabərhüquqlu müqavilə olduğu iddia edilsə də, əslində bu həqiqətdən uzaq idi. Düzdür, bağlanmış müqaviləyə görə Sovet hökuməti Çar Rusiyasının İranla bağladığı bütün ədalətsiz müqavilələrin

gücdən düşdüyünü, Rusiya imperiyasının İrandakı bütün mülkiyyət formalarından imtina etdiyini, İranla mövcud sərhədləri tanıdığını, İranın daxili işlərinə müdaxilə etməyəcəyini öz öhdəsinə götürürdü. Sovet hökuməti İranın Xəzər dənizində donanma saxlamaq hüququnu tanıyırdı. Bununla yanaşı, müqavilənin VI maddəsinə əsasən İran ərazisindən Rusiyaya və onunla müttəfiq olan dövlətlərə təhlükə yaranacağı təqdirdə və İran öz gücü ilə bu təhlükəni aradan qaldıra bilməyəcəyi halda, Rusiya özünümüdafiə məqsədilə zəruri tədbirlər görmək, o cümlədən İran ərazisinə qoşun yeritmək hüququnu özündə saxlayırdı.

Müqavilə Xəzər dənizində hər hansı sərhəd bölgüsünü nəzərdə tutmasa da, VII maddəyə görə İran donanmasının gəmi heyətlərinin tərkibində, İran donanmasında xidməti vəsifəsini Rusiyaya qarşı dost olmayan məqsədlər üçün istifadə edən üçüncü ölkələrin vətəndaşlarının olmasına qadağan qoyulurdu. İran donanması üçün bu məhdudiyyəti tətbiq etməklə Sovet İttifaqı Xəzər dənizindən bu ölkəyə hərbi təcavüz imkanlarının qarşısını almaq məqsədi güdürdü. Rusiya və İran istisna olmaqla Xəzər dənizinin başqa dövlətlər üçün qapalı dəniz statusunu saxlamaq istəyirdi. İranda və Rusiyada indi də 1921-ci il 26 fevral müqaviləsinin Xəzər dənizi ilə bağlı maddəsini öz əhəmiyyətini saxlayan mühüm sənəd adlandırırlar.

Müqavilə tərəflər arasında poçt-teleqraf, nəqliyyat və maliyyə-iqtisadi məsələləri də tənzimləyirdi. 26 maddəlik müqavilənin 7-ci maddəsi bu və ya digər dərəcədə Azərbaycanla bağlı idi. Müqavilənin bağlanması ərəfəsində Tehranda hökumət çevrilişi baş vermiş, çevriliş nəticəsində Seyid Ziyaəddin baş nazir (bir müddətdən sonra onu Qəvvam üs-Səltənə əvəz etdi – E.M.), kazak diviziyasının başçısı Əhməd Rza xan isə geniş səlahiyyətli ordu komandanı olmuşdu. Yeni hökumət Sovet Rusiyası ilə bağlanmış müqaviləni qəbul etdiyini bildirirdi.

Qeyd edək ki, Nəriman Nərimanov başda olmaqla Azərbaycan sovet rəhbərliyinin Moskvanın İranla bağlı həyata keçirdiyi siyasətdən narazılığına baxmayaraq [3, 13], Sovet hökuməti İrandan öz qoşunlarını çıxarmaq qərarına gəldi. Bundan sonra da Azərbaycan SSR Sovet-İran diplomatik və siyasi münasibətlərində mühüm rol oynamağa başladı ki, bu birinci növbədə onun coğrafi-siyasi şəraiti ilə əlaqədar idi. 1920-ci ilin oktyabrında Astara vasitəsi ilə Azərbaycanla İran arasında teleqraf rabitəsi, dekabrda isə Bakı ilə Tehran arasında birbaşa teleqraf rabitəsi bərpa edildi. Moskva ilə Tehran arasında teleqraf rabitəsi də Bakı vasitəsi ilə həyata keçirilirdi

Cənubi Qafqazda Sovet hakimiyyəti bərqərar olduqdan sonra, ZSFSR-ın təşkilinə qədər, təqribən iki il ərzində, Azərbaycan SSR İranla müəyyən qədər müstəqil münasibətlər qururdu. Zaqafqaziya Federasiyasının təşkilindən sonra bu münasibətlər İran-SSRİ münasibətləri kontekstində inkişaf etməyə başladı. Sovet hökuməti, o cümlədən Azərbaycan SSR ilə iqtisadi əlaqələrin olmaması

İranın onsuz da böhran vəziyyətində olan iqtisadiyyatının daha da pisləşməsinə səbəb olmuşdu. Ona görə də, İran hökuməti bu əlaqələrin tezliklə qurulmasında olduqca maraqlı idi. Bunu nəzərə alan Mustafi-əl-Məmalek hökuməti 1923-cü ilin əvvəllərində Sovet hökuməti ilə ticarət danışıqlarını bərpa etmiş və Qəvvam hökumətinin 1920-ci ildə sovet mallarına tətbiq etdiyi məhdudiyyətləri ləğv etmişdi.

İranın xarici ölkələrlə ticarətində SSRİ getdikcə İngiltərəni sıxışdırıb çıxarırdı. İranın SSRİ ilə ticarət əlaqələri ilk növbədə Bakı vasitəsi ilə həyata keçirilirdi. 1924-1925-ci illərdə Sovet-İran ticarət dövriyyəsinin 80%-i Azərbaycan vasitəsi ilə təmin edilmişdi. Buna görə də İranla ticarət edən sovet ticarət və təsərrüfat müəssisələrinin əksəriyyəti Bakıda yerləşirdi. Lakin SSRİ-də mərkəzləşdirmə siyasəti gücləndikcə respublika təşkilatlarının səlahiyyətləri də məhdudlaşdırılmağa başladı. 1921-ci ilin sonlarında Azərbaycan Xalq Xarici Ticarət Komissarlığı (XXTK) ləğv edildi, İranla ticarət edən yerli və diyar təşkilatlarının bütün funksiyaları SSRİ XXTK-yə verildi.

Sovet-İran ticarət əlaqələrinin inkişafında 1922-ci ildən təşkil olunmağa başlamış Bakı yarmarkaları da mühüm əhəmiyyət kəsb edirdi. İran tacirləri yarmarkanın işində yaxından iştirak edirdilər. İqtisadi əlaqələrin inkişafı qarışıq Sovet-İran cəmiiyyətlərinin yaradılmasına təkan verdi. Bu cəmiyyətlərin ("İranpambıq", "İranipək", "İranşəkər", "İranazneft", "Şərq", "Avtoİran", "Zaqİran" və s.) əksəriyyətinin şöbələri Bakıda yerləşirdi.

Azərbaycan mütəxəssisləri İranda yeni sənaye sahələrinin yaradılmasında, o cümlədən pambıq təmizləmə zavodlarının, radiotelefon stansiyalarının tikintisində, Təbriz-Culfa dəmir yolunun bərpasında, onun mütəhərrik heyətlə, neftlə təchiz olunmasında, İranda ziyanvericilərlə, çəyirtkə ilə, heyvandarlıqda xəstəliklərlə mübarizədə yaxından iştirak etmişdilər. Respublika qonşu ölkəyə bu məqsədlə xeyli materiallar və avadanlıqlar, maliyyə vəsaiti ayırmışdı.

XX əsrin 20-ci illərinin birinci yarısında Azərbaycan İran-Sovet mədəni və təhsil əlaqələrində də əsas rol oynayırdı. Bakı şəhəri SSRİ-də İran tələbələrinin təhsil aldığı əsas mərkəzə çevrilmişdi. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində iranşünaslıq sahəsində geniş tədqiqatlar aparılırdı. Fakültə 1928-ci ildə bağlansa da, 1945-ci ildə yenidən bərpa olunmuşdu. Bu qarşılıqlı münasibətlər müxtəlif sahələrin mütəxəssislərinin marağına səbəb olduğu kimi, İran tarıxçiliyində də əks-sədasını tapırdı.

İran tarixşünaslığında müraciət edilən mövzular içərisində Xəzər dənizinin statusu məsələsi də vardır [4, 4-5]. İlk dəfə olaraq Xəzər dənizinin ümumi Sovet-İran dənizi kimi hüquqi statusu İranla SSRİ arasında 27 oktyabr 1931-ci il tarixli məskunlaşma, ticarət və dənizçilik haqqında Konvensiyada öz əksini tapmışdı. Konvensiyanın VIII maddəsinə görə Xəzər dənizində yalnız SSRİ və İrana məxsus gəmilər üzə bilərdi. Su səthində sərhədlərin müəyyənləşdirilməsi məsələsi burada öz əksini tapmamışdı. Sonrakı illərdə SSRİ Xəzər dənizində

dövlət sərhədini (Astara-Həsənqulu xətti) faktik olaraq birtərəfli şəkildə tətbiq etmişdi. 1935-ci ildə tərəflər arasında bağlanmış Dənizçilik haqqında müqavilənin 15-ci maddəsinə əsasən hər iki dövlət üçün 10 milllik milli zona müəyyən edilmişdi. Müqaviləyə əsasən dənizin orta ekvatoriyası balıqçılıq üçün azad elan edilirdi.

Xəzər dənizinin hüquqi statusunun rəsmən müəyyənləşdirilməsi sahəsində növbəti sənəd SSRİ ilə İran arasında 1940-cı il martın 25-də bağlanmış ticarət və dənizçilik haqqında müqavilə oldu. Müqavilə hər iki dövlət üçün 10 mil milli zona müəyyənləşdirir və Xəzər dənizində ticarət gəmiləri üçün bərabərlik prinsipi təsbit edilirdi. Başqa dövlətlərin gəmiləri üçün Xəzər dənizi qapalı elan edilirdi. Bu müqavilə SSRİ ilə İran arasında Xəzərin statusunun müəyyənləşdirilməsində son mərhələ oldu.

1925-ci ildə Əhməd şah Qacarın devrilməsi, baş nazir, eyni zamanda hərbi nazir və ordu komandanı olan Rza xanın hakimiyyətə gəlməsi ilə İranda yeni tarixi inkişaf dövrü başladı. İngiltərənin hakimiyyətə gətirdiyi Rza şah Pəhləvi xarici siyasətində İngiltərənin təsirini azaltmağa çalışaraq SSRİ ilə münasibətləri davam etdirmək niyyətlərini ifadə etdi. İki ölkə arasında münasibətlərin inkişafında növbəti addım 1927-ci il oktyabrın 1-də bağlanmış təminat və bitərəflilik haqqında müqavilə oldu. Yeni müqavilə 1921-ci il müqaviləsinin dəyişməzliyini təsbit edirdi.

Ticarət-iqtisadi əlaqələrin inkişafına baxmayaraq, sərhədlərin açıq olması ucbatından SSRİ-nin İranla sərhədinin Azərbaycan hissəsində tez-tez münaqişələr baş verirdi. Faktik olaraq iki dövlətdə yaşamağa məcbur edilmiş Azərbaycan xalqı, xüsusən, sərhəd yaxınlarındakı rayonlarda yaşayan əhali çətinliklə də olsa, qarşı tərəfdəki qohumları ilə görüşmək, alış-veriş etmək üçün artıq İran-SSRİ dövlət sərhədinə çevrilmiş maneəni dəf etməli olurdular. Bu da formal da olsa, artıq sərhəd pozuntularına, münaqişələrə səbəb olurdu. İran tərəfindən quldur dəstələrinin Muğan çölündən Azərbaycan ərazisinə mütəmadi basqınları davam edirdi. Ən ciddi məsələlərdən biri tarixən şahsevən tayfalarının öz sürülərini yayda Cənubi Azərbaycanda yerləşən yaylaqlara, qışda isə Şimali Azərbaycanın Muğan düzlərinə aparıb gətirmələri idi. Sərhədlərin möhkəmləndirilməsi köçəri maldarlıqla məşğul olan bu insanların təsərrüfat həyatında ciddi çətinliklər yaradırdı. Azərbaycan ərazisindən də İran ərazisinə qanunsuz keçmə halları müşahidə olunurdu. Ona görə də sərhəd zonasında yaşayan sakinlər arasında əlaqələrin tənzimlənməsi əsas problemlərdən biri idi. Sərhədyanı ərazidə yaşayan sakinlərin əlaqələrini asanlaşdırmaq məqsədilə 1928-ci il mayın 28-də tərəflər arasında Konvensiya imzalandı. Konvensiyaya görə sərhəd ərazisi hər iki tərəfdən 25 km zona müəyyənləşdirildi. Bu zonada yaşayanlar üçün sərhədləri daha asan keçmə qaydaları qəbul edildi.

Köçərilərin sərhədi keçmələri üçün xüsusi qaydalar tətbiq edilirdi. Lakin SSRİ-də inzibati-amirlik sisteminin sərtləşməsi ilə sərhədlərin hər iki tərəfində yaşayan insanlar arasında təmaslar da getdikcə məhdudlaşdırıldı və qadağan edildi. Təsadüfi deyil ki, 1938-ci ildə SSRİ hökuməti 1928-ci il konvensiyasının qüvvədən düşdüyünü elan etdi. Lakin 1941-ci ildə SSRİ – İran sərhədində yeni vəziyyət bərqərar oldu və Azərbaycanın Culfa şəhəri iki ölkənin əlaqələrində çox mühüm strateji məntəqəyə çevrildi [5, 347].

Bu dövrdə Azərbaycanın İranla mədəni əlaqələri də çox mürəkkəb və ziddiyyətli inkişaf yolu keşmişdir. Bunu şərtləndirən əsas amillər isə, İranda və SSRİ-də mövcud olan siyasi rejimlərin xarakteri, Pəhləvi rejiminin xarici siyasi oriyentirləri idi.

XX əsrin 20-ci illərinin ortalarıdan 30-cu illərin ortalarınadək Azərbaycanın İranla mədəni əlaqələri SSRİ-İran münasibətləri kontekstində məhdud şəkildə də olsa, davam edirdi. Mədəni əlaqələrin mühüm formalrından biri Cənubi Azərbaycanda Şimali Azərbaycan dramaturqlarının əsərlərinin tamaşaya qoyulması, Şimali Azərbaycan teatr kollektivlərinin və ayrı-ayrı artistlərin cənubda qastrolları idi. Hələ 1921-ci ildə Azərbaycan artistlərinin İrana ilk qastrol səfərində Ü.Hacıbəylinin "Arşın mal alan" komediysı, "Əsli və Kərəm" operası və N.Nərimanovun "Nadir şah" pyesi Təbrizdə göstərilmiş, 1925-ci ildə ikinci qastrol səfəri zamanı bu əsərlərlə yanaşı Hacıbəylinin "Əlli yaşında cavan" müsiqili komediyasını həm Təbrizdə, həm də İranın bir çox şəhərlərində tamaşaya qoymuşdular. Şimallı incəsənət xadimlərinin Cənubi Azərbaycana səfərləri burada teatr sənətinin inkişafında mühüm rol oynamışdır [6, 13-16]. Şimali Azərbaycan ədiblərindən M.F.Axundzadənin, Ə.B. Haqverdiyevin, H.Cavidin, C.Cabbarlının, S.Vurğunun əsərləri cənubda tamaşalara qoyulmuşdu.

Həmin illərdə Ü.Hacıbəylinin müsiqi əsərləri İranda çox sevilir və rəqbətlə qarşılnırdı. Müxtəlif illərdə təkcə Cənubi Azərbaycanda deyil, İranın bir çox şəhərlərində dahi Azərbaycan bəstəkarının müsiqili komediyaları və operaları uğurla tamaşaya qoyulmuş, bu əsərlərin librettoları hətta fars dilinə tərcümə edilmişdi [7].

Keçən əsrin 20-30-cu illərində Azərbaycan sovet şairləri mövzuları İran həyatından götürülmüş bir sıra əsərlər də yazmışdılar (M.S.Ordubadinin "Dumanlı Təbriz (1933), S.Vurğunun "Təbriz gözəlinə" (1935) "20 bahar" (1940), S.Rüstəmin  "Yaxşı yoldaş" (1933), M.Rahimin "İran"(1927).

1934-cü ildə SSRİ-də görkəmli İran şairi Firdovsinin 1000 illik yübileyi geniş qeyd edildi. Bakıda keçirilən tədbirlərdə iştirak etmək üçün İrandan tanınmış tarixçi və fililoqlar Səid Nəfisi, Mahmud Əfşar və Məhəmmədəli Tərbiyətdən ibarət nümayəndə heyəti gəlmişdi. Yubiley münasibətilə R.Axundovun redaktəsi ilə Firdovsinin Azərbaycan dilinə tərcümə edilmiş "Seçilmiş poemalar" məcmuəsi nəşr edilmiş, Azərbaycan qəzetlərində

Firdovsinin həyatı və yaradıcılığı haqqında silsilə məqalələr dərc olunmuş, Firdovsinin əsərləri mövsusunda rəsmlər çəkilmiş, Ü.Hacıbəyli isə bu münasibətlə kantanta bəstələmişdi. Münasibətlərin bu şəkildə inkişafının nəticəsi idi ki, o vaxtlar İrandan Sovet İttifqına səfərə gələn nümayəndə heyətləri, o cümlədən baş nazirlərin, nazirlərin başçılıq etdikləri heyətlər bir qayda olaraq Moskvaya gedərkən yol üstü Bakıda dayanırdılar [8, 22].

Pəhləvi rejiminın milli siyasətinin əsasını fars millətçiliyinin və paniranizmin yayılması təşkil edirdi. Bu məqsədlə o, əsasını qoyduğu Pəhləvi hakimiyyətinin islamdan əvvəl İranda mövcud olmuş fars sülalələri Əhəmənilərin və Sasanilərin varisi olması haqqında qeyri-elmi nəzəriyyəni hər vəchlə tətbiq etməyə çalışırdı. Mətbuatda qədim İranın möhtəşəmliyi haqqında təbliğat aparılır, bütün İran vətəndaşlarının farslaşdırılmasına çağırışlar edilirdi. İranda qeyri-fars millətlərə qarşı antihumanist siyasət 30-cu illərin ortalarından başlayaraq daha da gücləndi. Bu özünü Rza şahın xarici siyasətində də göstərməyə başlayırdı. İngiltərə ilə Fars körfəzi və neft kompaniyası məsələsində razılığa gələ bilməyən Rza şah hökuməti faşist Almaniyası ilə qarşılıqlı anlaşmaya can atırdı. Rza şahı və onun ideoloqlarını faşizmin arilərin digər xalqlardan üstünlüyü haqqında irqçi fikirləri çox cəlb edirdi. Bir çox millətçi və monarxist əhval ruhiyyəli siyasətçilər, tarixçilər ari təlimi ilə İranın islama qədərki tarixi, xüsusən farsmənşəli monarxiyaların tarixi arasında uyğunluq axtarıb tapmaq üçün dəridən - qabıqdan çıxırdılar. Bu mürtəce nəzəriyyənin yayılmasında 1934-cü ildə yaradılmış Tehran Universiteti mərkəzi rol oynayırdı. Universitetdə qədin və orta əsr İran tarixinin və filologiyasının tədrisi və öyrənilməsi mühüm yer tuturdu. Univeristetin böyük müəllim və alimlər qrupu fars və İran milli ideyası üzərində çalışırdılar. Qədim farsları "təmiz" ariyalılar kimi nəzərdən keçirən, ölkə əhalisinin tərkibində sonralar baş vermiş mühüm etnik-milli dəyişikləri inkar edən və ya mənfi səciyyələndirən bu qruplar bütün ölkədə vahid dil və mədəni məkanın "bərpa edilməsinin" zəruriliyi ideyasını irəli sürürdülər [9, 192].

Rza şah fars dilini yabançı söz və ifadələrdən, əslində isə məhz türk sözlərindən təmizləmək məqsədilə "Fərhəngestan-e zəban" (Dil akademiyası) qurumunu yaratmışdı. Hərbi terminologiyada əsrlər boyu qərarlaşmış Azərbaycan türkcəsində olan yüzlərlə söz və ifadə süni şəkildə qurama fars sözləri ilə əvəzlənirdi. 1926-cı ildə Bakıda keçirilən Birinci türkoloji qurultay, ənənəvi ərəb əlifbasından latın qrafikinə keçilməsinin tövsiyə edilməsi və Azərbaycan SSR-nin bu təşəbbüslərdə aparıcı rol oynaması İran tarixşünaslığında və dilçiliyində bir sıra tənqidi fikirlər və kəskin reaksiyalar doğurmuşdu [10, 43]. Fars şovinizmini və paniranizm ideyasını dövlət ideologiyasına çevirən Pəhləvi rejimi qeyri-fars dillərində mətbu orqanları, radio verilişlərini, tədrisi qadağan etməklə, bütün İran əhalisini milli-mədəni cəhətdən yekcinsləşdirməyə çalışırdı. Bu ideyaların ən qızğın tərəfdarları və

təbliğatçıları "Ayəndə" jurnalının redaktoru doktor Mahmud Əfşar, tarixçi və publisistlər Əhməd Kəsrəvi, Abbas İqbal, Məlik-üş-şüəra Bahar, H. Xanlari idilər. Təsadüfi deyildir ki, məhz bu illərdə İran tarixşünaslığında Azərbaycan xalqının tarixini saxtalaşdırıldığı bir çox kitablar nəşr edilib yayılmağa başlamışdı. Azərbaycan türklərinin dilinə və mədəniyyətinə qarşı inkarçı baxışlar dövrün mətbuat səhifələrində açıq-aşkar təbliğ olunurdu. Həmin dövrdə Sovet Azərbaycanının ictimai-siyasi və mədəni həyatı ilə bağlı məlumatlar demək olar ki, yox dərəcəsində idi.

İranın faşist Almaniyası ilə yaxınlşmasına cavab olaraq Sovet hökuməti İrana qarşı müəyyən əks-addımlar atmağa başladı. Belə addımlardan biri də SSRİ ərazisindəki dörd İran konsulluğunun, o cümlədən İranın Bakıdakı konsulluğunun bağlanması, həmçinin İrandakı sovet konsulluqlarının fəaliyyətlərinin dayandırması haqqında Ümumittifaq Kommunist (Bolşevik) Partiyası Mərkəzi Komitəsinin (ÜİK(b)P MK) 3 yanvar 1938-ci il tarixli qərarı oldu.

Müharibə ərəfəsində SSRİ ilə İran arasında münasibətləri gərginləşdirən məsələlərdən biri də SSRİ-də "İran təbəələri" olan insanlara qarşı repressiya və deportasiyaların həyata keçirilməsi olmuşdur. Bakının neft sənayesinə və başqa sahələrdə minlərlə iranlı fəhlənin işləməsi ilə yanaşı, burada İrandan olan tacirlər, diplomatlar, müxtəlif xeyriyyə cəmiyyətləri və onların təsis etdiyi mədrəsə və dərnəklər fəaliyyət göstərirdilər. Bu İran təbəələrinin təbii ki, böyük əksəriyyətini Cənubi azərbaycanlılar təşkil edirdi [11, 8].

Cənubi azərbaycanlılara qarşı repressiyalara SSRİ XKS-nin "Əksinqilabi ünsürlərin Azərbaycandan İrana və SSRİ-nin uzaq rayonlarına köçürülməsi" haqqında 17 dekabr 1937-ci il tarixli qərarı ilə başlanılmış, Bakıdan və Azərbaycanın sərhəd zonasından 2500 İran təbəəsinin və 700 ailənin çıxarılması nəzərdə tutulmuşdu. Bütövlkdə 13297 iranlı repressiyaya məruz qalmışdı, onlardan 5994 nəfəri casus kimi məhkum edilmiş, 2048 nəfəri 27 dekabr 1938-ci ildə güllələnmişdi. C.Həsənliyə görə 1937-1938-ci illərdə Şimali Azərbaycanda 50 min adam sovet vətəndaşlığını qəbul etmədiyi üçün köhnə İran təbəələri ölkədən deportasiya edilmişdi [12, 41-42]. Qeyd edilməlidir ki, İranda SSRİ-dən deportasiya olunmuşların heç də hamısına isti münasibət bəslənilmirdi, onların arasında sovet casuslarının ola biləcəyi nəzərə alınaraq, əksəriyyətini ciddi yoxlama-süzgəclərdən keçirirdilər. Deportasiya olunmuşlardan bir çoxu sovet kəşfiyyatı ilə əməkdaşlıqda ittiham edilərək həbs olunmuş və ya İranın cənub əyalətlərinə sürgün edilmişdilər. Təbiidir ki, SSRİ-də İran vətəndaşlarına qarşı repressiyalar İran hökumətinin etirazı ilə qarşılanmış və hökumət bununla əlaqədar xüsusi bəyanatla çıxış etmişdi. SSRİ-də İran təbəələrinin repressiyasına qarşı İranda müdafiə cəmiyyəti yaradılmışdı. İran hökuməti həmçinin cavab tədbiri kimi ölkədəki SSRİ vətəndaşlarına qarşı müəyyən repressiv addımlar atmışdı.

1941-ci ildə Sovet qoşunlarının İrana daxil olmasından sonra İran mətbuatının səhifələrində Sovet Azərbaycanının mədəniyyəti, ədəbiyyatı, tarixi haqqında məlumatlar da artmağa başladı. Məlum olduğu kimi, Sovet qoşunları İrana 1941-ci ilin avqustun 25-də Şimali Azərbaycandan daxil olmuş, beş ildən sonra, 1946-cı ilin mayın 26-da oranı tərk etmişlər. Əgər sovet tarixşünaslığında ənənəvi olaraq Sovet qoşunlarının İrana müdaxiləsi İranda faşist Almaniyasının hərbi iştirakı və Rza şahın profaşist siyasəti ilə əlaqələndirilirdisə, İran tarixşünaslığı müstəsna olaraq bu müdaxiləni SSRİ-nin və İngiltərənin hərbi maraqları ilə izah edirlər. Onlar Sovet və ingilis qoşunlarının İranı işğal etməsini bu ölkənin müttəfiqlərin (ABŞ və İngiltərənin) SSRİ-yə yardım göstərilməsində ən əlverişli məkan olması ilə izah edirlər. Müasir Rusiya tarixşünaslığı da bu fikri təsdiqləyərək Almaniyanın İranda hərbi iştirakının iddia edildiyi qədər də nəzərəçarpacaq olmadığını etiraf edir.

Sovet qoşunlarının Cənubi Azərbaycanda olması burada milli-demokratik hərəkatın canlanmasına, Azərbaycanın hər iki hissəsi arasında mədəni əlaqələrin inkişafına təkan vermişdi. Cənubi Azərbaycanda milli şüurun inkişafında Sovet ordusunun siyasi işçiləri kimi buraya göndərilmiş Azərbaycan mədəniyyət və ədəbiyyat xadimlərinin fəaliyyəti mühüm əhəmiyyət kəsb etmişdir. Məhz onların səyi ilə Cənubda ana dilində mətbu oqanlar yaradılmış, əhali arasında geniş mədəni-maarif işi aparılmışdı. Onlar öz fəaliyyətlərini sovet ideologiyasının tələblərinə uyğun qurmalı olsalar da, obyektiv olaraq cənubda Azərbaycan dilinin, mədəniyyətinin, ədəbiyyatının, təhsilin inkişafında böyük xidmətlər göstərmiş, ikiyə bölünmüş Azərbaycan xalqının mədəni birliyinin bərpa olunması, Şimali Azərbaycan haqqında bilgilərin cənubda yayılmasında səmərəli fəaliyyət göstərmişlər. Şimallı mədəniyyət və incəsənət kollektivlərinin İranda qastrol səfərləri, kinofilmlərin nümayişi, konsert proqramları, ayrı-ayrı şair və yazıçıların cənubi azərbaycanlılar qarşısında çıxışları İranda Şimali Azərbaycan mədəniyyətinin təbliğində xüsusi əhəmiyyət kəsb edirdi. Sovet Azərbaycanı haqqında həqiqətlərin yayılmasında Cənubi Azərbaycanda ana dilində nəşr olunmuş “Vətən yolunda”, “Şəfəq”, “Azərbaycan”, “Qızıl əsgər”, Tehranda və digər şəhərlərdə fars dilində çıxan “Pəyame nou” jurnalının, sovet qoşunlarının nəşr etdirdiyi “Dust-e İran”, “Sərbaz-e sorx”qəzetlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Redaktoru əvvəlcə Bozorq Ələvi, sonra isə tanınmış tarixçi Səid Nəfisi olmuş “Pəyame nou” jurnalında Şimali Azərbaycan ədəbiyyatı, mədəniyyəti, elmi haqqında İran oxucuları üçün maraqlı olan məqalələr dərc edilirdi [8, 51-52]. Jurnalda Şimali Azərbaycandan olan müəlliflərin Sovet Azərbaycanı haqqında məqalələri də yer alırdı.

Ümumiyyətlə, XX əsrin ikinci yarısında İranda nəşr edilmiş və bu ölkənin SSRİ ilə əlaqələrinə həsr edilmiş tarixi-siyasi tədqiqatlarda, elmi-kütləvi kitablarda Sovet qoşunlarının İrana daxil olması problemi SSRİ-İran müna-

sibətlərində ən ağrılı nöqtə kimi qiymətləndirilir. İran müəllifləri də etiraf edirlər ki, Almaniyada faşistlər hakimiyyətə gəldikdən sonra İranın xarici siyasətində Almaniya ilə yaxınlaşma kursu üstünlük qazanmağa başladı. İran müəllifləri 1941-ci ildə Rza şahın hakimiyyətdən getməsini onun Hitlerə rəğbəti və müttəfiq qoşunlarının İrana müdaxiləsi ilə əlaqələndirirlər. İran müəllifləri SSRİ-nin siyasətini tənqid edərək onu Şimali İranda separatizmi yaymaqda günahlandırırlar [13]. Bu tarixçilər üçün təbii ki, sovet sənəd və materialları əlçatan deyildi və onlar əsasən Avropa dillərindəki materiallara və İran arxivlərinin sənədlərinə istinad edirdilər.

İran tarixşünaslığında belə bir ümumi fikir mövcuddur ki, Sovet İttifaqı İranda öz təsirini artırmaq üçün təkcə hərbi amillərdən deyil, ideoloji amillərdən də istifadə etmiş, sol yönümlü partiyaların yaradılmasında bilavasitə iştirak etmiş, onların fəaliyyətini yönəltmişdir. Eyni zamanda belə bir fikir də formalaşmışdır ki, II Dünya müharibəsi dövründə Sovet ittifaqı İranla münasibətlərində etnik amilldən yararlanmağa çalışır, bu ölkədə etnik separatizmi, muxtariyyat uğrunda hərəkatları dəstəkləyirdi. Bu zaman, əlbəttə, birinci növbədə Cənubi Azərbaycan milli hərəkatı nəzərdə tutulurdu. İran tarixşünaslığında bu dəstək İranın dövlət quruluşunun, konstitusiya əsaslarının pozulması kimi qiymətləndirilir və göstərilir ki, məhz buna görə SSRİ hökuməti Cənubi Azərbaycandan öz qoşunlarıın çıxarmağa tələsmirdi. Sovet qoşunlarının İranda olması yox, onların Azərbaycanda muxtariyyatın yaradılmasında birbaşa iştirakı İran tarixşünaslığında bu ərazinin sonralar SSRİ-yə birləşdirilməsi cəhdi kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT

1. Adəmiyyət Təhmurəs. Səyahet be qozəşte (Xaterat-e Adəmiyyət-Səfir-e İran dər Sourəvi, 1945-1947) Tehran, Ketabsəra, 1368.

2. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti, Bakı, Adiloğlu, 2012.

3. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair, Bakı: Azərnəşr, 1992, 80 s.

4. Kazımbəyi M.Ə. Dərya-ye Xəzər və qodrətha-ye bozorg – imperializm-e Britaniya (1336-1338 h.q.), Tehran, Mərkəz-e əsnad və tarix-e diplomasi, 1384.

5. Hafezzade Məhəmməd. Ərəs dər qozarqah-e tarix.Təbriz, nəşr-e Niya,1374.

6. Məmmədli Q. Azərbaycan teatrının səlnaməsi (1920-1930-cu illər). II hissə, Bakı, Elm, 1984, 237 s.; 233, Şəmsi M. Böyük Oktyabr sosialist inqilabının İranın mədəni həyatına təsiri/ Böyük Oktyabr və Şərq xalqlarının

milli azadlıq mübarizəsi, Bakı, Elm, 1977 ; 247, Vəkilov C.M. Azərbaycan Respublikası və İran. 40-cı illər, Bakı: Elm, 1991, 136 s.

7. “Vətən yolunda” qəzeti 1945, 19 sentyabr (əski əlifba ilə); 11, 1946, №9 (əski əlifba ilə).

8. Vəkilov C.M. Azərbaycan Respublikası və İran. 40-cı illər, Bakı: Elm, 1991, 136 s.

9. Алиев С. Иранская революция, 1978-1979: причины и уроки. – М.: Наука, 1989. – 577 с.

10. Ariyanpur Yəhya. Əz Nima və ta ruzqar-e ma .Tarix-e ədəb-e farsi-ye muasir). Tehran,nəşr-e Zəvvar, 1374.

11. Dehnəvi Nezaməli. İraniyan-e mohacer dər Qəfqaz- fəaliyyətha-ye fərhəngi dər salhayi 1900-1931m., Tehran, Bəhar, 1383.

12. Həsənli C. Güney Azərbaycan Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, “Diplomat”, 1998, 324 s.

13. Cahanbani Ə. Xatirati əz dovran-e derəxşan-e Reza şah Kəbir, Tehran,1346; Əlahi H. Əhəmiyyəti estratejikiye İran dər cəng-e cəhaniye dovvom. Tehran, 1384; Mohammədi M. Moruri bər seyasət-e xareciye İran dovran-e Pəhləvi. Tehran,1377.

**UOT 94(479.24)+902**

# TƏRTƏR ABİDƏLƏRİNİN AZƏRBAYCAN ARXEOLOGİYASINDA YERİ

***Abbas Seyidov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*abbas.seyidov@gmail.com*

**Açar sözlər:** *Tərtər, arxeoloji kəşfiyyat, Xocalı-Gədəbəy, küp qəbirlər, saxsı qablar*

2016-2017-ci illərdə Tərtər rayonu ərazisində arxeoloji qazıntı və tədqiqat işləri apardıq. Nəticədə, qədim tariximizə dair yeni materiallar aşkar edildi. Bölgənin Köçərli, Səhləbad, İsmayılbəyli, Evoğlu, Buruc, Kolanı kəndləri və rayon mərkəzi yaxınlığında yerləşən abidələr öz qədimliyi ilə seçilir. 2016-cı ilin tədqiqatları zamanı Tərtərçay hövzəsinin Tunc və Erkən Dəmir dövrü abidələrinin qeydiyyatı aparılaraq, onların xəritəsi tərtib olundu. Bir torpaq qəbirdə arxeoloji qazıntı işləri, iki qədim yaşayış yerində isə arxeoloji kəşfiyyat işləri aparıldı. Bu ərazidə yerləşən tunc və ilk dəmir dövrünə aid 22 arxeoloji abidə tərəfimizdən xəritələşdirildi.

2017-ci ildə yenidən Tərtər-Bərdə-Ağdam yolu üzərində, Evoğlu kəndi yaxınlığında yerləşən Böyüktəpə, Qurd təpəsi (Kültəpə) və Çaqqallıtəpə abidələrində arxeoloji qazıntı və kəşfiyyat işləri apardıq.

Araşdırmalar göstərdi ki, rayonun ərazisində tunc, antik və ilk orta əsrlər dövründən bu günədək davamlı yaşayış olmuşdur.

## МЕСТО ТЕРТЕРСКИХ ПАМЯТНИКОВ В АРХЕОЛОГИИ АЗЕРБАЙДЖАНА

***Аббас Сеидов***

**Ключевые слова:** *Тертер, археологические исследования, Ходжалы-Гедебей, кувшинные погребения, керамические сосуды*

В 2016-2017 годах мы провели археологические раскопки и исследования в тертерском регионе. В результате, были найдены новые материалы, относящиеся нашей древней истории. Памятники, находящиеся вблизи центра региона и деревень Кочерли, Сехлеабад, Исмаилбейли, Эвоглу, Бурудж, Коланы, отличаются своей древностью. Во

время исследований 2016 года, проведена регистрация и составлены карты памятников эпохи бронзы и раннего железа. В одном грунтовом погребении проведены археологические раскопки, а в двух древних поселениях – археологические разведочные работы. В этом регионе, нам удалось составить карту 22 археологических памятников эпохи бронзы и раннего железа.

В 2017 году мы провели археологические раскопки и разведочные работы на памятниках Беюктепе, Курт тепеси (Кюльтепе) и Чаккаллытепе, расположенных вблизи села Эвоглу на трассе Тертер-Берде-Агдам.

Исследования показали, что территория региона была заселена непрерывно в бронзовом веке, античном и раннем средневековье вплоть до сего дня.

## THE MONUMENTS OF TERTER IN AZERBAIJANI ARCHAEOLOGY

***Abbas Seyidov***

**Key words:** *Terter, archaeological exploration, Khojaly-Gedabey, jar burials, pottery vessels.*

In 2016-2017, we carried out archaeological excavations and research in Terter region. New materials on our ancient history were discovered as a result. The monuments near the Kocherli, Sahle-abad, Ismayilbeyli, Evoghlu, Buruj, Kolany villages and the centre of the region are more ancient.

During the 2016 survey, The Bronze and Early Iron Age monuments were registered and their map was compiled. Archaeological excavations were carried out in a soil graveyard, whilst archaeological investigations were held in two ancient settlements. The 22 archaeological monuments of Bronze and Early Iron Age were mapped by us.

In 2017, we carried out archaeological excavations and explorations at the Boyuktepe, Kurt tepe (Kultepe) and Chackallitepe monuments located near the Evoghlu village on the Terter-Barda-Aghdam road.

Studies have shown that the territory of the region was continuously settled in the Bronze, Antic and Early Middle ages up to nowadays.

Tərtər rayonunun sahəsi 957 km², əhalisi isə 102,500 nəfərdir (2016-cı il). Azərbaycanda sovetlərin qələbəsindən sonra Cavanşir qəzasının tabeliyində 1920-1922-ci illərdə əvvəl Tərtər sahəsi, 1922-ci ildə isə, adı dəyişdirilərək, Cavanşir sahəsi yaradılıb. Bölgə 1923-1929-cu illərdə Ağdam qəzasının, 1930-

cu ilə kimi isə Qarabağ dairəsinin inzibati tabeliyində olub. 8 avqust 1930-cu ildə Tərtər rayonu yaradılsa da, 1931-ci ildə ləğv edilərək, Bərdə rayonunun inzibati tabeliyinə verilib. 27 yanvar 1934-cü ildə yenidən Tərtər rayonu yaradılıb. 1949-cu ildə yenə adı dəyişdirilərək Mirbəşir rayonu adlandırılıb. 1963-cü ildə Mirbəşir Bərdə rayonunun inzibati tabeliyinə keçirilib. 1965-ci ildə yenidən Mirbəşir rayonu yaradılıb. 7 fevral 1991-ci ildə Mirbəşir rayonunun adı dəyişdirilərək yenidən Tərtər rayonu adlandırılıb.

Qeyd edək ki, "tərtər- "tartar" sözü imperiya dairələrini narahat etdiyindən, bu ad tez-tez dəyişdirilərək müxtəlif adlarla əvəz olunub. Çünki, türklər Rusiya imperiyası dövründə "tatar" adlandırılırdı. Son orta əsr Rusiya xəritələrində Moskvadan Sibirə və Uzaq Şərqə qədər olan ərazilər bütövlükdə "Tartariya" adı altında göstərilir. Əli bəy Hüseynzadə 112 il bundan əvvəl "Həyat" qəzetində yazırdı ki, Qafqaz canişini Voronçov Daşqov 1905-ci il iyulun 20-də qəzetin bağlanmasını təklif etmiş və sənədin dərkənarında yazmışdır: "təcili olaraq "Həyat"ın sərlövhəsindəki "türk" sözü pozulsun, əvəzinə "tatar" sözü yazılsın" [1, 34-40]. Nə olur olsun, ta ki, türk sözü işlənməsin. Bunlar tariximizə vurulan ən ağır zərbələr kimi yaddaşlarda qalacaq.

2016-2017-ci illərdə Tərtər rayonunu tarixi-arxeoloji baxımdan yenidən tədqiq etmək üçün arxeoloji qazıntı və tədqiqat işləri apardıq. Tədqiqatlar nəticəsində qədim tariximizin qaranlıq qalan bir sıra məsələlərinə aydınlıq gətirildi. Bölgənin Köçərli, Səhləbad, İsmayılbəyli, Evoğlu, Buruc, Kolanı kəndləri və rayon mərkəzi yaxınlığında yerləşən abidələr öz qədimliyi ilə seçilir.

Qeyd edək ki, rayonun antik, ilk orta əsrlər və orta əsrlər arxeologiyası haqqında Q.Cəbiyev [2], A.Məmmədov [3], T.Əliyev [4], H.Cəfərov [5], Q.Əhmədov [6], A.Orucov [7] məlumatlar vermişlər.

2016-cı ilin tədqiqatları zamanı Tərtərçay hövzəsinin Tunc və Erkən Dəmir dövrü abidələrinin qeydiyyatı aparılaraq, onların xəritəsi tərtib olundu. Bir torpaq qəbirdə arxeoloji qazıntı işləri, iki qədim yaşayış yerində isə arxeoloji kəşfiyyat işləri aparıldı. Həmçinin, Tərtər və Goranboy rayonları ərazisində yerləşən bir neçə abidəyə arxeoloji səfərlər təşkil olundu. Tərtərçay hövzəsində qədim zamanlardan intensiv yaşayış olub. Bu ərazidə yerləşən tunc və ilk dəmir dövrünə aid 22 arxeoloji abidə tərəfimizdən xəritələşdirildi. Bunların içərisində əksəriyyəti kurqan olmaqla, torpaq qəbirlər və yaşayış yerləri də var.

Rayon mərkəzindən 1,5-2 km cənub şərq istiqamətində yerləşən Toxmaxtəpə abidəsində bir torpaq qəbir açılaraq öyrənildi. Sadə torpaq qəbir 1,5 m dərinliyə qədər qazıldı. Qəbirdən skelet və yanına qoyulmuş əşyalar aşkar olundu. Qəbirin uzunluğu 2, eni isə 1,5 metr idi. Skelet şimal-qərb, cənub-şərq istiqamətində, sağ böyrü üstə, qismən bükülü vəziyyətdə dəfn olunmuşdu. Onun

baş tərəfində, çiyin və üz hissəsindən öndə saxsı qabların olduğu müəyyən edildi. Qablar qara rəngli, yaxşı bişirilmiş orta və kiçik həcmlidir. Onların içərisində qulpsuz, təkqulp və iki qulplu olanları var. Qablardan ikisi dar boğazlı olub, üzəri düz xətlə cızılmışdır. Təkqulp qablar isə kiçik həcmli olmaqla gövdəsinin mərkəzi hissəsindən boğaz hissəsinə doğru düz paralel xətlərlə bəzədilib.

Aşkar olunmuş saxsı hissələrinin təyinatı onların bardaq və küpə tipli qablara aid olduğunu söyləməyə əsas verir. Qeyd edək ki, tədqiq olunan bu sadə torpaq qəbir yalnız saxsı nümunələri ilə təmsil olunmuşdu. Materiallar bu torpaq qəbri son tunc–erkən dəmir dövrünə (e.ə.II minilliyin sonu – I minilliyin əvvəlləri) aid etməyə imkan verir. Saxsı nümunələri Xocalı-Gədəbəy mədəniyyətinin izlərini özündə daşıyır. Ümumiyyətlə, eyni dəfn adəti Tərtərçay hövzəsində sadə torpaq qəbirlərdə və kurqanlarda çox izlənilir. Ərazidə Xocalı-Gədəbəy mədəniyyətinin geniş yayılması bu mədəniyyətin yaradıcısı olan yerli tayfaların Göy-göl, Goranboy, Tərtər, Bərdə, Ağdam, Füzuli və digər yerlərdə ardıcıl mövcud olmuş yaşayış yerləri və qəbirlərində özünü göstərir.

Toxmaxtəpə yaşayış yerində də arxeoloji kəşfiyyat işləri aparıldı. Bu abidə son tunc dövrünə aid yaşayış məntəqəsi olub. Onun yaxınlığında eyni dövrə aid digər qəbirlər mövcuddur. Kəşfiyyat qazıntısından əldə etdiyimiz keramika nümunələri əsasən, boz və qara rəngdə, keyfiyyətli gildən dulus dəzgahında hazırlanmış küpə, dolça, xeyrə, cam və kasa tipli qabların hissələrindən ibarətdir. Saxsı nümunələri sınıq, batıq, qabarıq və şaquli xətlərlə bəzədilib. Bəzi qabların boğaz hissəsində şüyrəli zolaqlar və lentvari qulplar vardır. Həmin saxsı nümunələri hazırlanma texnologiyasına görə e.ə. XI-IX əsrlərə aid edilə bilər.

Köçərli kəndi yaxınlığında hal-hazırda əkin sahəsi kimi istifadə olunan ərazidə antik dövrün küp qəbirlərinin izləri müəyyən edildi. Yerli sakinlərin sözlərinə görə, ərazidə şumlama işləri aparılan zaman iri küplərdə dəfn olunmuş insan sümükləri və saxsı nümunələri aşkar olunub. Bu abidə antik dövrə aid küp qəbirlərdən ibarət kiçik nekropoldur. Yerli sakinlərin məlumatına görə, yaxınlıqda yerləşən müasir qəbiristanlıqda dəfn mərasimləri zamanı küp qəbirlərə rast gəlinir.

Evoğlu kəndi yaxınlığında yerləşən Güllüktəpə abidəsindən bir sıra yerüstü material əldə olundu ki, onların da hamısı orta əsrlərə aid saxsı məmulatlarından ibarətdir.

2017-ci ilin qazıntı və kəşfiyyat işləri zamanı yenidən Tərtər-Bərdə-Ağdam yolu üzərində yerləşən Evoğlu kəndi yaxınlığında, əkin sahələrinin içərisində yerləşən Böyüktəpə, Qurd təpəsi (Kültəpə) və Çaqqallıtəpə abidələrdə arxeoloji qazıntı və kəşfiyyat işləri apardıq.

Böyüktəpə abidəsinin üst hissəsində 3x3 metr (9 $m^2$) sahədə arxeoloji kəşfiyyat qazıntısı zamanı 0,5 m dərinlikdə azyaşlı uşağa aid qəbir aşkar

olundu. Orta əsrlər dövrüün müsəlman qəbri kimi qeydiyyata aldığımız bu torpaq qəbirdə heç bir maddi-mədəniyyət qalığına rast gəlinmədi. Ölən adam islam adətinə uyğun, qiblə istiqamətində dəfn olunmuşdu. Ətrafdan topladığımız saxsı məmulatından məlum oldu ki, Böyüktəpə abidəsinin üst təbəqəsi orta əsrlər dövrünə aiddir. Abidənin şimal-şərq hissəsində bir metr dərinliyədək qazdığımız ikinci bir kəşfiyyat quyusunda da insan sümüklərindən başqa heç bir maddi-mədəniyyət qalığına rast gəlinmədi. Lakin abidənin müxtəlif yerlərindən antik və ilk orta əsrlərə aid saxsı məmulatlarının tapılması göstərdi ki, Böyüktəpənin üst təbəqələri antik, ilk orta əsr və orta əsrlərə aiddir. Əldə olunmuş saxsı hissələri, əsasən, V-VII əsrlər, IX-XI əsrlər və XI-XIII əsrlərə aid məişət keramika nümunələrinə məxsus qabların qırıqlarıdır. Fikrimizcə, abidə çoxtəbəqəlidir. Onun alt təbəqəsində son tunc–erkən dəmir dövrünə aid mədəni təbəqə vardır. Çünki, bəzi sahələrdə bu dövrə aid saxsı parçalarına rast gəlinir. Təpənin kurqan tipli görünüşə malik olması da bu fikri təsdiqləyir. Görünür ki, göstərilən dövrlərdə bu ərazidə davamlı yaşayış olmuşdur.

Çaqqallıtəpə abidəsi ətrafında ətrafında kəşfiyyat işləri zamanı heç bir maddi mədəniyyət nümunəsi əldə etmədiyimiz üçün, Qurd təpəsində qazıntını davam etdirdik.

Qurd təpəsi (Kültəpə) abidəsinin yuxarı yamacında 2x2 metr (4 $m^2$) sahədə apardığımız kəşfiyyat qazıntısı zamanı bir metr dərinlikdə yerləşən torpaq qəbirdən orta əsrlərin müsəlman dünyasına aid üzü qiblə istiqamətində dəfn edilmiş insan skeleti aşkar olundu. Ölən adam sağ çiyni üzərində dəfn olunmuşdu. Skeletin böyüklüyündən onun boyunun iki metrə yaxın olması müəyyən edildi. Bel hissədə, skeletin üzərində 4 ədəd kiçik həcmli dəmir mıx var idi. Çox güman ki, dəfn zamanı ölən adamın üstünə üzərində mıxlar olan kiçik taxta qoyulmuş və zaman keçdikcə taxta çürümüş, üzərində olan dəmir mıxlar həmin hissədə paslanmış halda qalmışdır. Bir-birinə yaxın yerləşən abidələrdən aşkar olunmuş qəbir tədqiq olunduqdan sonra üzəri torpaqla örtüldü. Abidənin yerləşdiyi ərazidə, az sayda olsa da, ilk orta əsrlərə və orta əsrlərə aid saxsı məmulatı toplandı, bir ədəd tunc alətin hissəsi və çiy kərpicdən ibarət tikilinin qalıqları qeydə alındı. Qeyd olunan təpələrin hər üçü, çox güman ki, son tunc–erkən dəmir dövründə aid kurqanlar üzərində salınmış antik, ilk orta əsr və orta əsrlərə aid yaşayış yeri və nekropollardır. Maddi mədəniyyət nümunələrinə görə isə Böyüktəpə abidəsinin daha əhəmiyyətli olduğunu söyləyə bilərik. Əldə etdiyimiz maddi mədəniyyət nümunələri Tərtər rayon Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verildi.

Rayonun Səhləbad, Evoğlu, Mamırlı, Qaynaq, Köçərli kəndlərindəki qəbirlər və başdaşları kimi abidələr bu yerlərdə son orta əsrlərdə müasir kəndlərin əvvəlki yerlərinin olduğunu göstərir. Kolanı və Buruc kəndlərinin ərazisində yerləşən və yerli əhali tərəfindən "Yeddi təpə" adlanan, bir-birindən

1-3 km məsafələrdə olan abidəyə də baxış keçirdi. Bu təpələrdən ən böyüyü Buruc kəndində olan “Ocaqtəpə”dir. Bu təpələr Tunc dövrünün abidələri hesab edilsə də onlarda arxeoloji qazıntı işləri aparılmayıb. Fikrimizcə, burada da ilk orta əsrlər dövründə kəndtipli yaşayış məntəqəsi mövcud olub. Nəzərə alsaq ki, eramızın V əsrindən etibarən Bərdə şəhəri Qafqaz Albaniyasının paytaxtı olmuşdur, onun 18 kilometrliyində yerləşən Tərtərin ərazisində ilk orta əsrlərdə kəndtipli yaşayış yerlərinin olması, o zamanlar burada həyatın qaynaması şübhəsizdir. Həm də bu ərazidən Bərdəyə gələn və gedən mühüm ticarət-karvan yolları keçmişdir. Bu amillər fikrimizi əsaslandırmağa imkan verir.

Son olaraq, araşdırmalar göstərdi ki, rayonun ərazisində Tunc dövründən, antik və ilk orta əsrlər də daxil olmaqla, bu günə qədər davamlı yaşayış olmuşdur. Buna səbəb rayonun yerləşdiyi təbii-coğrafi şəraitdir. Tərtər şəhərinin yerində isə ilk orta əsrlər dövründə kəndtipli yaşayış məntəqəsi olmuş, Dəbil, Tiflis, Gəncədən Bərdəyə gələn ticarət yolları burada kəsişərək, Bərdəyə istiqamət götürmüşdür. Rayonun ərazisi erkən orta əsrlər və orta əsrlər dövründə strateji baxımdan da önəmli yer olmuşdur. Belə ki, Bərdə-Gəncə-Xunan-Tiflis yolu üzərində yerləşən ərazi həm də ticarət yollarının, karvansarayların, yaşayış yerlərinin müdafiəsi üçün lazım olan qalaların tikilməsi baxımından maraqlıdır.

## ƏDƏBİYYAT


1. Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir. Bakı, 1997, 292 s.
2. Cəbiyev Q.C. Azərbaycan keramikası, Bakı, Elm, 2003, 233 s.
3. Məmmədov A.M., Hüseynov S.N., Rəcəbov M.İ. Orta əsr Ərəş şəhəri // Tarix və onun problemləri, Bakı, 2007, №3, s. 324-331
4. Əliyev T.V. Azərbaycanın Antik və İlk orta əsrlər arxeologiyasının öyrənilməsi (1940-60-cı illər) // Tarix və onun problemləri, Bakı, 2010, № 1, s. 233-237
5. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axrı – I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında). Bakı-Elm-2000, 187 s.
6. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, Azər. SSR EA-nın nəşriyyatı, 1959, 142 s.
7. Orucov A.Ş. Qara rəngli gil qabların hazırlanması texnologiyasına dair // ADU Elmi əsərləri, TFS, Bakı, 1977, N 3, s. 68-72


Səmədabad
Səfikürd
Qızılhacılı
NAFTALAN
Xan Qərvənd
Zeyvə
Həsənqaya
Yeni Əyricə
Tap Qaraqoyunlu
Qaradağlı
Kür
Yuxarı Ağcakənd
Talış
TƏRTƏR
BƏRDƏ
Şıxarx
Alpout
Nazırlı
Şirvanlı
Qaraağacı
Köçərli
3360
Murovdağ
Tərtər
Çardaqlı
Xəsili
Əmirli
AĞDƏRƏ
Lənbəran
Sərsəng su anb.
Xaçınçay
Umudlu
Bəcirəvan
Quzanlı
Papravənd
Şənlik
Sarıcalı
Poladlı
Təzəkənd


№1777 Boyuktepe Kurqani son Tunc dovru
Terter rayon Evoglu kendi


0
50 sm



**UOT (902)**

# ПОСЕЛЕНИЯ ШОРТЕПЕ И АЗЮРДУ В СИСТЕМЕ КУРО-АРАКСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ КУЛЬТУРУ АЗЕРБАЙДЖАНА

***Гидаят Джафаров***
*Азербайджанский Государственный*
*Экономический Университет*
***hidayet-jafar@mail.ru***

**Ключевые слова:** *Азербайджан, Карабах, Куро–Аракская культура, поселения, образцы археологических материалов*

В предоставленной статье анализируется некоторые вопросы связанные с поселениями ранней бронзы Азербайджана Шортепе и Азюрду. Шортепе, или как ее именуют последние время как Балатепе расположено в 1,5 км к востоку от сел. Шатырлы Бардинского района. Пока это единственный бытовой памятник в среднем течения р. Тертер. Поселение Азюрду находится в верховьях реки Тертера, на берегу его левого притока – Караархадж, в местности Азюрду Кельбеджерского района. Азюрду пока единственный бытовой памятник эпохи ранней бронзы Азербайджана, расположенный на высокогорье.

# ŞORTƏPƏ VƏ AZYURDU YAŞAYIŞ YERLƏRİ KÜR–ARAZ ARXEOLOJİ MƏDƏNİYYƏTİ SİSTEMİNDƏ

***Hidayət Cəfərov***

**Açar sözlər:** *Azərbaycan, Qarabağ, Kür–Araz mədəniyyəti, yaşayış məskənləri, arxeoloji nümunələr*

Məqalədə Qarabağın Tərtərçay hövzəsində mövcud olan ilk tunc dövrü Kür–Araz mədəniyyətinə aid iki yaşayış məskəni ilə bağlı bəzi məsələlərə toxunulub. Bunlar Bərdə rayonunun Şatırlı kəndi yaxınlığında H.Cəfərov tərəfindən qeydə alınmış Şortəpə və Kəlbəcərin yüksək dağlıq zonasında, Tərtər çayının mənbəyinə yaxın yerdə, alp çəmənlikləri əhatəsində Q.İsmayılzədənin aşkar etdiyi Azyurdu məişət abidələrdir. Abidələrin xarakterik əlamətləri,

ölçüsü, artefaktlar haqqında ətraflı məlumat verilir, Kür–Araz mədəniyyəti sistemində yeri göstərilir.

## SHORTEPE AND AZYURDU SETTLEMENTS IN THE KUR - ARAZ ARCHAEOLOGICAL CULTURE SYSTEM

***Hidayat Jafarov***

**Key words:** *Azerbaijan, Garabağh, Kür – Araz patterns culture, residential areas, archeological patterns*

The article touched on some issues related to the two ancient settlements belonged to an early Bronze Age culture of the Kur - Araz ancient settlement of the in the Tartarchay basin of Karabakh settlement. These are the Azyurdu monuments discovered by G.Ismayilzada in the surroundings of alpine meadows near the source of the Tartar River, in the highlands of Shortepe and Kalbajar, recorded by H.Jafarov near the Shatirli village of Barda region. Detailed information about the monuments, dimensions, artifacts are issued here and place of them are shown in the Kura - Araz culture system.

Поселения эпохи ранней бронзы Карабаха, сохранившиеся до наших дней в виде «жилых холмов», внешне не отличаются от энеолитических «холмов», более того, некоторые из них, особенно те, которые находились вблизи постоянных водны х источников (на берегу рек и речушек, родников), были основаны на обжитых холмах, оставленных энеолитическими племенами. Однако, немало и раннебронзовых поселений, которые, в отличие от энеолитических, расположены, в основном, только в тех пунктах, где вода не имеет недостатка. Видимо, поэтому поселения раннебронзового периода в изучаемой зоне по количеству уступают энеолитическим. Одна из причин сокращения поселений в раннебронзовый период объясняется пересыханием многих естественных водоемов в Карабахской низменности, что было связано с изменением климата [1, 45].

Однако, нельзя не согласиться и с тем, по сравнению с энеолитическим периодом в эпоху ранней бронзы в жизни местных племен происходят бурные социально-экономические перемены, затронувшие многие устои первобытно общинного строя. Эти изменения были порождены общим ходом закономерного исторического развития. В

экономическом аспекте перемены были связаны с увеличением поголовья скота, особенно мелкого рогатого, требующего новых пастбищных угодий, следовательно, освоение новых территорий, увеличение роли мужчин. В социальном плане перемены ярко вырисовываются с выделением племенной знати, возникновением и дальнейшим углублением имущественной и социальной дифференциации [2, 25]. Все это наглядно иллюстрируется на примере исследованных памятников Карабаха, как равнинного, так и предгорного и горного. Правда, о социальной дифференциации можно больше судить по погребальным памятникам.

В предоставленной статье анализируется некоторые вопросы связанные с поселениями ранней бронзы Азербайджана Шортепе и Азюрду.

Шортепе, или как ее именуют последние время как Балатепе (чтобы не спутать с поселением античнего времени Шортепе) расположено в 1,5 км к востоку от сел. Шатырлы Бардинского района. Пока это единственный бытовой памятник в среднем течения р. Тертер. Комплекс Шортепе включает в себя ряд самостоятельных поселений эпохи бронзы и античного периода. Центральным является обширное городище античной эпохи, окруженная с трех сторон глубоким рвом. Рядом находится мощный водный источник. Поселения эпохи ранней и средней бронзы находятся к югу и юго-западу от античного. Комплекс осмотрен в 1981 г. автором, тогда же был установлен помимо античного, наличие еще двух холмов, относящихся к исследуемому периоду [3, 421]. Тогда же был собран подъемный материал раннебронзового, так и среднебронзового холма, проведены обмеры и т.д. В последующие годы в ходе сельскохозяйственных работ до основания была разрушена среднебронзовая и восточная половина раннебронзового холма. Уцелевшая площадь раннебронзового холма равна 0,3 га, высота 3-3,5 м.

В 1986 г. на разрушенном участке раннебронзового холма нами был заложен контрольный шурф, который выявил культурный слой глубиной 0,5 м ниже уровня современной дневной поверхности [4, 16]. На материковом горизонте были очищены остатки сырцовых прямоугольных строений, найдена керамика красного и черного обжига, реже с темнокаштановым оттенком и залощенной поверхностью. Многие образцы снабжены полушаровидными или широкими лентообразно-трупчатовидными, с косыми срезами ручками. В одном сосуде– вдавленный орнамент, расположен ниже ручек. Примечательным представляется факт изготовления некоторых сосудов на гончарном круге. Как известна, в научных кругах долгое время бытовало мнения, согласно которому гончарный круг был изобретен лищь на последней стадии эпохи

бронзы, т.е. во второй половине II тыс. до н.э. Однако, исследованиями последних лет, один за другим выявлены фактические данные опровергающие это положение. К таким фактам можно отнести материалы из верхнего хронологического яруса раннебронзового слоя поселения Каракепектепе, а также из объектов наших исследований – Шортепе, Учоглан и т.д. Более того, выясняется, что гончарный круг в исследуемом да и вообще в Южнокавказском регионе впервые был применен в эпоху ранней бронзы, а еще раньше – на финальной стадии периода энеолита. Это подтверждено исследованиями холма Лейлатепе, расположенного на глубине Карабахской равнине.

Среды материалов из Шортепе можно отметить и другие образцы керамических сосудов–глубоких мисок, чаш, кувшинов с высоким приподнятым горлом. Они изготовлены от руки, из хорошо отмученного теста, состав в основном без примеси, отличного обжига, с розоватым, красным, каштановым, иногда серыми оттенками. В зависимости от назначения сосуды толстостенные или же тонкие, звонкие. Последние, в большинство случаев до блеска чернолощеные, иногда с двух сторон, снабжены симметрично расположенными полушаровидными ручками классического характера.

Встречаются плоские, с лентовидными ручками посредине крышки, обломки или целые каменные зернотерки, терочники, обсидиановые пластинки, вкладыши и отщепы. Подьемный материал с поверхности и среза поселения более разнообразен, среди них доминируют различные по типологии и функции обломки керамических сосудов, красного, розового, каштанового, серого и черного обжигов, как правило с залощенными поверхностями, иногда с двух сторон, во многих до блеска. Встречаются фрагменты от кувшинов, мисок, глубоких блюд с внутренными бортиками, чаш и т.д. По количеству кувшины опережают других типов. Они черного, серо - бурого, красного, каштанового, но большинство своей черного обжига.

Последние залощены до «металлического блеска», а в некоторых горловина с внутри залощена таким же способом. В таких сосудах подкладка розового цвета, но встречаются экземпляры серыми подкладками. Корпус у них удлиненно – шаровидный или плоско – шаровидный, ближе к биконическому формы. Переход от горловины к тулово плавный, иногда под углом, но во всех случаях отделены с заметным уступом. Многие без ручек, но имеется и полушаровидными и плоско–лентообразными профилями ручками, расположенные на плечике или соединяющие венчик с плечиком. Некоторые образцы изготовлены на гончарном круге – это т. н. парадные посуды. Многие же изготовлены ручным способом, хотя отличаются высокой симметричностью.

Как было указано, среды керамических образцов из Шортепе немало мисок и чаш. Состав глины в них, в основном чистое, стенки звонкие, обжиг равномерный. Поверхность во многих полирована. Венчик иногда прямой, часто отогнут к наружу или во внутрь. Некоторые изготовлены на гончарном круге, основная масса леплена от руки.

Среды образцов встречаются т.н. бочонковидные сосуды, поверхность у них гладкая, сглаженная, но не лощенная. Стенки толстые, равномерные, черепок плотный, в основном без примеси. Во всех случаях дно сосудов плоское. В числе собранного инвентаря немало обломков очажных поставок красного обжига с роговидными выступами, столь характерные для памятников куро – аракской археологической культуры.

В плане изучения древнейшей металлургии и металлообработки интерес представляет фрагмент двустворчатой глиняный формы для отливки проушного топора эпохи ранней бронзы [5, 8-9, рис. 3, 1]. Аналогичные формы для отливки топора известны из памятников Падар (Закатала) [6, 140], Кюльтепе (Нахчыван) [7, 68, рис. 2, 3], Мишарчай (Джалилабад) [8, 19], Гаракепектепе (Физули) [9, 38], Серкертепе (Хачмаз) [10, 22], Араб Енгидже (Нахчыван) [11; 12, 37]. Такие формы на Северном Кавказе обнаружены только в Дагестане [13, 32-34].

Многочисленны каменные предметы, связанные с обработкой зерна (зернотерки, терочники, пестики, обсидиановые орудия труда).

Поселение Азюрду [14, 7] находится в верховьях реки Тертера, на берегу его левого притока – Караархадж, в местности Азюрду Кельбеджерского района. Азюрду пока единственный бытовой памятник эпохи ранней бронзы Азербайджана, расположенный на высокогорье (на высоте 3000 м над уровнем моря). Поселение с трех сторон защищено глубокими ущельями. По близости – обилие холодных родниковых вод, вокруг раскинуты обширные альпийские луга. Все это, несомненно, было учтено древними поселенцами при выборе место жительства.

Здесь выявлены остатки круглой постройки диаметром 22 м. Толщина стены по описанию Г.С.Исмаилзаде, достигает 2 м. Внутри постройки прослежена сложная планировка. Вокруг крупной постройки обнаружены более мелкие – диаметром от  до 5 м. Керамика и каменный инвентарь из шурфа носят явные признаки, характерные для раннебронзового периода. По мнению Г.С.Исмаилзаде, большое сооружение представляет собой общественное здание, с вспомогательными постройками вокруг. Нам кажется, этот комплекс носил временный, сезонный характер, использоваемое в летние времена, при сезонной кочевке скотоводов из Карабахской равнины. Тем более, установлено, что с усилением отгонного скотоводства в развитом этапе куро–аракской раннебронзовой культуры были освоены ближе расположенные к равнине

альпийские зоны всего Малого Кавказа. Однако, при тогдашнем уровне домостроения вряд ли возможно было перенести суровые зимы в таких высокогорных климатических поясах, как Кельбеджарское высокогорье.

Этнографические наблюдения показывают, что и ныне (т.е. до оккупации Горного Карабаха, Лачын и Кельбеджера армянскими агрессорами) кочевники при наступлении прохладных месяцев, с конца августа–начала сентября снимаются с летних пастбищ переежают на зимовку в Миль–Карабахской низменности и возвращаются сюда только в мае–июне месяца следующего года. Надо отметить, что ранее освоение высокогорных зон подтверждаются и с другими важными данными. Мы имеем в виду открытые Г.С.Исмаилзаде в верховьях бассейна р. Тертер, в местностях Азюрду, Тахта, Истису, Залха и др. скопления наскальных рисунков [15, 416], многие из которых, по мнению автора, относятся к эпохи ранней бронзы. Кстати, автором этой работы также были зафиксированы аналогичные рисунки в той же зоне, в местностях Гелин–гая (Скала невести), (Чахмаг–гая (Скала кремня), Айы чынгылы (Медвежьи завалы), и т.д. Последние расположены на высоте более 3500 м над уровнем море.

## ЛИТЕРАТУРА

1.Нариманов И.Г. Культура равнин Восточного Закавказья в ранней бронзы. «Культурный прогресс в эпоху бронзы и раннего железа. Тезисы докладов. Ереван, Изд. АН Арм.ССР, 1982, с. 45.

2.Cəfərov H.F. Azərbaycan e.ə.IV minilliyin axırı – e.ə.I minilliyin əvvəllərində. Bakı, “Elm”, 2000, 187 s. 101 tabl.

3.Джафаров Г.Ф. Исследования в бассейне Инчечай. АО в СССР за 1981 г. М., 1983, с.421-422.

4.Джафаров Г.Ф. Исследования памятников эпохи бронзы и раннего железа Карабаха. Тезисы докладов конференции «Великий Октябрь и развитие археологической и этнографической науки в Азербайджане». Баку. 1988, с. 15-17.

5.Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии меди на территории Азербайджана. Советская Археология, М., 1990, № 1, с. 5-13.

6.Карахмедова А.А. Раскопки поселения Падар Закатальского района. Azərbaycanın Arxeologiya və Etnoqrafiya elminin son elmi nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992, c. 140.

7.Абибуллаев О.А. К вопросу о древней металлургии Азербайджана. МИА СССР, 1965, 125, с. 68, рис.2, 3.

8.Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. О древнейшей металлургии Кавказа. Советская Археология, 1968, № 4, с.16-26.

9.Исмаилов Г.С. Новые материалы по древней металлургии и металлообработке с юго – восточных склонов Малого Кавказа. Изв. АН Азерб. ССР, (серия ист., филос. и права). 1974, № 3, с. 23-48,табл. II.

10. Мусаев Д.Л. Археологические исследования слоя средней и ранней бронзы на Борисполтепе. АЭИА (1985). Тезисы докладов конференции. Баку. 1986, с.21-22.

11. Сеидов А.Г., Бахшалиев В.Б. Араб Енгиджа, Баку, «Нурлан», 2009, 160 с.

12. Ашуров С.Г. Новые памятники эпохи ранней бронзы в Нахич. АССР. Великий Октябрь и развитие археологической и этнографической науки в Азербайджане. Тезисы докладов конференции. Баку, 1988, с.37-38.

13. Гаджиев М.Г. О древнейшей металлообработке в Дагестане. Studia Prahistorica, 1986, № 8, с. 32-44.

14. Исмаилов Г.С. Раннебронзовая культура Азербайджана (по материалам раннебронзовых памятников юго – восточных склонов Малого Кавказа). Автореферат дис. докт. ист. наук. Тбилиси, 1983, 47 с.

15. Исмаилов Г.С. Исследование наскальных изображений в верховьях р. Тертер. АО в СССР за 1976 г., М., 1977, с.416.

## TABLO 1



## TABLO 2



TABLO 3



**UOT 94(479.24)**

# AZƏRBAYCANDA ENERJİ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN YARANMASI TARİXİNDƏN

***Cəbi Bəhramov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*djabibaxramov@mail.ru*
***Solmaz Gözəlova***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*solmaz.gozalova@mail.ru*

**Açar sözlər:** *enerji təhlükəsizliyi, "əsrin müqaviləsi", "neft-qaz"*

Azərbaycanda enerji təhlükəsizliyi sisteminin əsası 1970-ci illərin əvvəllərində Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, «Əsrin müqaviləsi»nin və digər böyük layihələrin hazırlanması və imzalanmaya verilməsi işinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olub. Bu gün enerji təhlükəsizliyi Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasının əsas prinsiplərindən biridir.

# ИЗ ИСТОРИИ СОЗДАНИЯ СИСТЕМЫ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНЕ

***Джаби Бахрамов***
***Солмаз Гозалова***

**Ключевые слова**: *энергетическая безопасность, «контракт века», «нефт-газ»*

Политика президента Ильхам Алиев для достижения энергетической безопасности совершенно ясна. Он против применения силы в мировой политике: «Мы твердо убеждены в том, что только общие интересы потребителей и производителей может принести пользу. Учитывая эти факты, а так же принимая во внимание политические и экономические показатели, мы можем сказать, что Азербайджан занимает лидирующее положение в мировой энергетической безопасности и защита этой позиции будет сохраняться в течение многих лет.

# FROM THE HISTORY OF ENERGY SECURITY SYSTEM IN AZERBAIJAN

***Jabi Bahramov***
***Solmaz Gozalova***

**Key words**: *energy security, “Contract of the century”, “oil-gas”*

Our President Ilham Aliyev’s energy security policy is quite clear. He is and against the use of force in world politics: “We firmly believe that the only common interests of consumers and producers can benefit. Taking into account all these facts, real political, and economic indicators, we can fundamentally say that Azerbaijan has a leading position in the world energy security and this position will be maintained for many years.”

Azərbaycanda enerji təhlükəsizliyi sisteminin əsası 1970-ci illərin əvvəllərində Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1970-1980-ci illər ərzində Ulu öndər Heydər Əliyev Azərbaycan SSR iqtisadiyyatının və xalqının gələcəyi üçün enerji təhlükəsizliyinin əsaslı özülünü yaratmaq məqsədilə neft-qaz və elektroenergetika sənaye sahələrini yeni texnika və texnologiyalarla təmin etməklə gücləndirilməsinə nail oldu [1]. Respublikanın strateji enerji təhlükəsizliyini yaratmaq və onu möhkəmləndirmək məqsədilə Heydər Əliyev Azərbaycan Respublikasının Xəzər dənizi sektorunda kəşf olunmuş neft-qaz yataqlarının istismara verilməsi üçün tələb olunan ən müasir avadanlıqların Avropa ölkələrindən alınıb respublikaya gətirilməsinə başladı.

O dövrlərdə keçmiş SSRİ rəhbərlərindən razılıq almaq və müvafiq vəsaitin ayrılmasına nail olmaq çox müşkül məsələ idi. Azərbaycan SSR rəhbəri Heydər Əliyev öz nüfuz və bacarığı ilə məsələnin mahiyyətini keçmiş SSRİ rəhbərliyinə incəliklərinə qədər çatdırmaqla maliyyə məsələsinin həllinə nail oldu. Nəticədə SSRİ-də ilk dəfə olaraq Xəzər dənizində yük qaldırma qabiliyyəti 2500 ton olan «Azərbaycan» kran gəmisi respublikaya gətirildi. O dövrün qiymətləri ilə dəyəri 350 mln. dollardan çox və Avropada yeganə olan Bakı Dərin Özüllər Zavodu 1985-ci ildə tikilib istifadəyə verildi. Bütün bu işləri həyata keçirən Heydər bilirdi ki, vaxt gələcək bu işlər müstəqil Azərbaycan dövlətinə və xalqına xidmət edəcəkdir [1].

1993-cü ildə Azərbaycan xalqının xilaskarı kimi hakimiyyətə qayıdan Heydər Əliyevin ilk işlərindən biri vaxtilə respublikada bünövrəsini qoyduğu enerji təhlükəsizliyi sistemini düşdüyü ağır vəziyyətdən xilas etmək oldu. 1994-cü ildə onun qətiyyəti, daxili və xarici siyasəti nəticəsində «Əsrin müqaviləsi» imzalandı. Heydər Əliyevin professional siyasi bacarığı nəticəsində dünyanın

ən böyük dövlətlərinin iri neft şirkətlərinin iştirakı ilə bağlanan «Əsrin müqaviləsi» Azərbaycan Respublikasının nüfuzunu beynəlxalq aləmdə xeyli möhkəmləndirdi [3]. Güclü dövlətlər tərəfindən müdafiə olunan beynəlxalq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Kəməri və Bakı-Tbilisi-Ərzurum Qaz Kəməri kimi qlobal layihələrə imza atıldı. Qeyd etmək lazımdır ki, bu böyük neft-qaz kəmərlərinin keçdiyi Gürcüstan dövlətinə onların reallaşdırılmaması üçün böyük təzyiq edilirdi. Lakin Heydər Əliyevin böyük nüfuzu sayəsində bu layihələrin bütün maliyyə, texniki, coğrafi və ekoloji problemləri həll edildi [2].

Beləliklə, SSRİ dağılandan sonra MDB məkanında öz müstəqil neft-qaz strategiyasını həyata keçirməyə başlayan ilk ölkə Azərbaycan Respublikası oldu. Strateji enerji təhlükəsizliyi sisteminin müstəqil Azərbaycan dövlətinin ilk illərində qorunub saxlanılması, genişləndirilməsi və dünya strateji enerji təhlükəsizliyi xartiyasına qoşulması qlobal əhəmiyyət daşıdığına görə, Heydər Əliyev bu fürsətdən məharətlə istifadə edərək, Azərbaycan Respublikasını bu sahədə lider dövlətlər sırasına daxil etdi və Cənubi Qafqaz regionunda lider dövlətə çevirdi [6]. Belə çevik və davamlı siyasət Azərbaycan Respublikasının dünyanın yeni tarixi hadisələri çərçivəsində geosiyasi mövqeyini möhkəmləndirdi.

Qeyd etmək lazımdır ki, 2005-ci ilə Azərbaycan Respublikasında çıxarıla bilən qaz ehtiyatı 2,0 trln. kubmetrdən, neft ehtiyatı isə 7 mlrd. bareldən çox təşkil edirdi [3]. Gələcəkdə yeni açılmış və istismara veriləcək neft-qaz yataqlarındakı karbohidrogen ehtiyatları nəzərə alınarsa, 2005-ci ilin göstəriciləri 1,5 dəfə arta bilər. Hal-hazırda ölkəmizdə neft-qaz hasilatı dinamikası onu deməyə əsas verir ki, Azərbaycan Respublikası yaxın 100 ildə strateji enerji təhlükəsizliyi sistemində, ən azı Cənubi Qafqazda öz liderliyini saxlayacaq. Hazırda Azərbaycan Respublikası strateji enerji təhlükəsizliyi baxımından Avropanın Cənubi Qafqazdakı əsas tərəfdaşıdır [6].

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, «Əsrin müqaviləsi»nin və digər böyük layihələrin hazırlanması və imzalanmaya verilməsi işinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: «Ulu öndər Heydər Əliyevin memarı olduğu layihələr üzrə neft və qaz kəmərlərinin istismara verilməsi ilə Azərbaycan xalqının bu günü, sabahı və gələcəyi üçün həndəsi silsilə ilə artacaq iqtisadi təməli qoyulur» [11]. Heydər Əliyev dünya ölkələri sırasında özünəməxsus yer tutmaq üçün ölkənin strateji enerji təhlükəsizliyi sistemini genişləndirməyi, Azərbaycan xalqının enerji daşıyıcılarına olan tələbatını tam ödəməyi, yeni elektrik stansiyalarının tikilməsini genişləndirməyi dövlət qarşısında duran ən mühüm məsələlər kimi dəyərləndirirdi [7].

Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edir ki, Azərbaycan Respublikasının strateji enerji təhlükəsizliyi sistemini və xarici bazarlarda enerji daşıyıcılarının satışını "Azəri-Çıraq-Günəşli" və gələcəkdə

kəşf olunacaq digər yataqların hesabına yaxın 100 ildə də davam etdiriləcək, Azərbaycan Respublikasının enerji təhlükəsizliyi sistemi həm ölkədaxili, həm də qonşu və digər dövlətlərin enerji daşıyıcıları ilə təmin olunması işinə öz töhfəsini verəcəkdir. İlham Əliyev eyni zamanda öz çıxışlarında onu da bildirir ki, bizim təkcə “Azəri-Çıraq-Günəşli” yataqlarında çıxarıla bilən neft ehtiyatları 1 mlrd. tondan çoxdur. Bu neftin yalnız 511 mln. tonu imzalanmış müqaviləyə əsasən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (BP-Azərbaycan) tərəfindən 2025-ci ilə qədər birgə hasil ediləcək. Qalan 350 mln. tona qədər nefti və 100 mlrd. kub metrdən artıq qazı ARDNŞ özü hasil edəcək. Ölkəmizin Avropa strukturlarına fəal inteqrasiyası Azərbaycan dövlətinin inkişafı baxımından olduqca mühümdür. Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri vasitəsilə Azərbaycan öz neftini nəinki Qara və Aralıq dənizlərinə, həm də Baltik dənizi bazarına çıxara biləcək [4].

Dövlət başçısı İlham Əliyevin enerji təhlükəsizliyinə nail olmaq siyasəti olduqca açıq və aydındır. O, dünya siyasətində zor və güc tətbiqinin əleyhinədir: “Biz qəti şəkildə inanırıq ki, yalnız və yalnız istehlakçı və hasilatçıların ümumi maraqları fayda gətirə bilər. Bütün sadalanan faktları, real siyasi və yüksək iqtisadi göstəriciləri nəzərə alaraq əsaslı şəkildə söyləmək olar ki, Azərbaycan dünyanın enerji təhlükəsizliyi sistemində aparıcı mövqeyə malikdir və bu mövqe hələ uzun illər qorunub saxlanacaqdır” [5].

Strateji enerji təhlükəsizliyi sistemi ildən-ilə gücləndikcə Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi və nəzarəti sayəsində ölkəmizdə çox böyük həcmli infrastruktur layihələri həyata keçirilir. ARDNŞ respublikanın regionlarında qazlaşdırma işinin tam başa çatdırılması üçün hazırda çoxlu layihələr icra edir [6]. Bununla yanaşı Azərbaycan Respublikasının Prezidenti strateji enerji təhlükəsizliyinin möhkəmləndirilməsinin əsas qollarından biri olan elektrik enerjisi sisteminin maddi və texniki vəziyyətinin daha da inkişafına böyük diqqət göstərir [7]. Belə ki, son bir neçə ildə «Azərenerji ASC» tərəfindən respublikanın müxtəlif bölgələrində modul tipli istilik elektrik stansiyaları tikilmiş və nəticədə bu gün Azərbaycan nəinki elektrik enerjisinə olan tələbatını tam ödəyir, hətta qonşu ölkələrə elektrik enerjisi də satır [8].

Qlobal siyasətdə enerji resurslarının effektiv istismarı və bu sahədə söz sahibi olmaq aparıcı dövlətlərin prioritet maraqlarını təşkil edir. Qloballaşan dünyada super güclər artıq ərazi, torpaq uğrunda deyil, məhz enerji yataqlarının istismarının ələ keçirilməsi uğrunda mübarizə aparırlar [9].

Azərbaycanın qonşu dövlətlərlə ikitərəfli münasibətlərini qorumaqla bərabər Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, rəsmi Bakı xarici siyasətində milli maraq və mənafeləri əsas tutaraq strateji enerji təhlükəsizliyini daim gücləndirəcəkdir. Ona görə də respublikanın strateji enerji sisteminin möhkəmləndirilməsində və Avropa enerji təhlükəsizliyi sisteminə kömək göstərilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin

rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən layihələr həm Azərbaycan xalqı, həm də digər ölkələr tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycan Respublikası öz enerji resurslarını dünya bazarına çıxarmaqla yanaşı bölgədə əsas tranzit ölkəsi kimi də çıxış edir. Trans-Xəzər boru kəmərinin çəkilişi ilə Azərbaycan Respublikası tranzit ölkə kimi imkanlarını daha da artıracaq [10]. Xəzərin enerji ehtiyatlarının Avropa üçün əsas alternativ enerji mənbəyinə çevrilməsi Azərbaycan Respublikasının siyasi və iqtisadi mövqelərini Avropa ölkələri ilə əməkdaşlığını daha da möhkəmlənməsinə xidmət edir. Bir çox Avropa dövlətlərinin, o cümlədən Polşa, Rumıniya və Baltikyanı dövlətlərin Azərbaycan Respublikası ilə əməkdaşlığı müsbət mənada yeni məzmun və mərhələyə daxil olub. Azərbaycan Respublikası Türkiyə Cümhuriyyəti, Gürcüstan, Moldova və Rumıniya kimi dövlətlərin neft-yanacaq komplekslərinin inşasına investisiya qoyur. Karbohidrogen ehtiyatlarının daşınması üçün dəhlizin hazırlanması məqsədi ilə Vilnüs Enerji Sammitinin nəticəsi olaraq yeni konsorsium təsis edilib. Konsorsiumun yaradılmasının əsas məqsədi Azərbaycan Respublikası, Gürcüstan, Ukrayna və Polşadan keçməklə Xəzər dənizindən Avropa bazarlarına və beynəlxalq bazarlara gedən daşınma sistemlərinin reallaşdırılmasının mümkünlüyünü təhlil etməkdir [13].

Enerji təhlükəsizliyi Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasının əsas prinsiplərindən biridir. 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilməklə yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirildi. Bu saziş tarixə “Yeni əsrin müqaviləsi” kimi daxil oldu. Bu müqaviləyə görə 22 il ərzində “Azəri-Çıraq-Günəşli” yataqlarına 40 milyard dollardan artıq sərmayənin qoyulması nəzərdə tutulmuşdur [14]. Bu yeni müqavilə Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmlənməsi işinə bilavasitə xidmət edir. Buna görə də Azərbaycan xalqının gələcəyini dərindən düşünən Prezident İlham Əliyev Azərbaycan Respublikasını lider dövlətlər sırasına çıxarmaq işini uğurla davam etdirir. Azərbaycan Respublikasının bugünkü iqtisadi artım tempi onu da göstərir ki, o nəinki Cənubi Qafqazda, hətta MDB və digər Avropa ölkələri ilə müqayisədə ən yüksək yerlərdən birini tutur və yaxın illərdə Avropada inkişaf etmiş ölkələr sırasına çıxacaqdır. Bu, bir daha təsdiq edir ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikasının daxili, xarici və iqtisadi siyasət modelini və strateji enerji təhlükəsizliyi sistemi çərçivəsində hörmətli Prezident İlham Əliyevin neft-qaz strategiyasını dəyişməyə heç bir qüvvə təsir edə bilməz [12]. Ona görə ki, bu siyasət özünün ən böyük inersiya qüvvəsi ilə yeni-yeni nailiyyətlər qazanmaqdadır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Əliyev H. Azərbaycan nefti dünya siyasətində. Bakı, 1997.
2. Əliyev V. Azərbaycanın enerji təhlükəsizliyi siyasəti.
3. Həsənov Ə. Neft strategiyası və Azərbaycanın xarici siyasət strategiyasının qurulması. Əsin müqaviləsi – 10. Bakı, 2005.
4. Həsənov Ə. «Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti», Geosiyasət. Bakı.
5. Quliyev S. «Azərbaycan Respublikasının neft strategiyasının xarici siyasətinə təsiri», Azərbaycan. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi.
6. Quliyev S. «Cənubi Qafqazda Təhlükəsizlik Problemləri», Azərbaycan, Journal of Qafqaz University - 30, May 2010.

**Türk dilində**

7. Aliyev H. Dünya siyasetinde Azerbaycan Petrölü, Mısırlı Matbaacılık. İstanbul, 1998.

**Rus dilində**

8. Гулиев С. «Политика европейского союза на южном Кавказе». Ukrayna, ДП Видавничий дім Персонал, «Наукові праці МАУП» - № 2 (41).

**İngilis dilində**

9. Janusz Bugajski, «Energy Policies and Strategies: Russia's Threat to Europe's Energy Security», Insight Turkey, 2006.

**İnternet resursları:**

10. http://www.tanap.com/tanap-project/why-tanap/
11. http://xalqqazeti.com/az/news/economy/36045
12. http://anl.az/down/meqale/xalqqazeti/2014/aprel/360894.htm
13. http://sia.az/az/news/world/354624-tap-layihesi-azerbaycan-dunya-miqyasli-qaz-ixracatcisina-cevrilir
14. "İki sahil" xüsusi buraxılış. №27, 8 noyabr 2017, s.74-75.

**UOT 070+327**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ VƏ ONUN FORMALAŞMASINDA MƏTBUATIN ROLU

***Mübariz Göyüşlü***
*Bakı Dövlət Universiteti*
*mubariz2011@hotmail.com*

**Açar sözlər:** *Azərbaycan-Türkiyə münasibətləri, strateji əməkdaşlıq, dördüncü hakimiyyət, ictimai rəy*

Məqalədə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı müasir dövrdə mövcud olan münasibətlər araşdırılıb. İki ölkənin dövlət və hökumət başçılarının səyi nəticəsində son illərdə münasibətlərin strateji əməkdaşlıq səviyyəsinə yüksəlməsi təqdim olunub. Azərbaycan və Türkiyə arasında yaradılmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantıları, bu barədə Azərbaycanın rəsmi mətbuat orqanlarında geniş şəkildə işıqlandırılmış məlumatlar təqdim olunub. İctimai rəyin formalaşmasına təsir edən müasir mətbuatın bu münasibətlərin möhkəmlənməsinə töhfə verdiyi diqqətə çatdırılıb.

# АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ В СОВРЕМЕННУЮ ЭПОХУ И РОЛЬ ПРЕССЫ В ИХ ФОРМИРОВАНИИ

***Мубариз Гёюшлю***

**Ключевые слова:** *Азербайджано-Турецкие отношения, стратегическое сотрудничество, четвертая власть, общественное мнение*

В статье анализируются существующие в современную эпоху отношения между Азербайджанской и Турецкой Республиками. Рассматривается как в результате усилий глав государств и правительств двух стран отношения в последние годы были подняты до уровня стратегического сотрудничества. Представлены заседания Совета Стратегического Сотрудничества Высокого Уровня и широко освещенная информация о них в официльной прессе Азербайджана. Обращено внимание к вкладу современной прессы, влияющей на формирование общественного мнения, в укрепление этих отношений.

# AZERBAIJAN-TURKEY RELATIONS IN THE MODERN ERA AND THE ROLE OF THE PRESS IN THE FORMATION OF IT

***Mubariz Goyushlu***

**Key words:** *Azerbaijan-Turkey relations, strategic cooperation, fourth power, public opinion*

The article examines the existing relations between the Republic of Azerbaijan and the Republic of Turkey. It is shown in the article that as a result of the efforts of the heads of states and governments of the two countries, the relations in recent years have been promoted to the level of strategic cooperation. Meetings of the High-level Strategic Cooperation Council between Azerbaijan and Turkey, as well as broad information about these meetings in the Azerbaijan's official media were presented. It was noted that contemporary media that is affecting to the formation of public opinion, contributed to the strengthening of these relations.

Azərbaycanla Türkiyə arasında münasibətlər son illərdə artan xətlə yüksəkləməkdədir. İki ölkə arasındakı münasibətlər tarixinin ən məhsuldar dövrünü yaşayır. Bu münasibətlər tarixdən gələn zəngin bir yol ilə inkişaf edir, genişlənir, strateji müttəfiqlik səviyyəsində davam edir. Bu əlaqələrin çox böyük və zəngin tarixi var. Eyni soykökə, dilə, dinə malik olmaq, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirir. Hər iki ölkə tarixində baş vermiş çətin məqamlarda bir-birinə dəstək əli uzatmışdır. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi, Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlıların maddi və mənəvi yardım göstərməsi tariximizin şanlı, qanlı səhifələrindən, bizləri birləşdirən ən mühüm məqamlardandır.

Bu münasibətlər sovet imperiyasının Azərbaycanı işğal etməsilə kəsilsə də, tamamilə yox olmadı. Azərbaycan sovetlərin tərkibində olarkən iki respublika arasında rəsmi münasibətlər mövcud olmuşdur. 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin və 1969-cu ildə prezident Cövdət Sunayın Bakıya səfərləri bu əlaqələrin xarakterinin müəyyənləşdirilməsində böyük rol oynamışdır.

Lakin Türkiyənin Azərbaycana olan münasibəti, dəstəyi müstəqillik əldə edildikdən sonra daha çox özünü büruzə verməyə başladı. Türkiyə iki qardaş ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq, dövlət

quruculuğu yolunda respublikamızın səylərini daim dəstəkləməklə, hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərməkdədir.

Azərbaycan müstəqillik əldə edəndən sonra iki ökə arasındakı münasibətlərin tarixinə ekskurs edərək xatırlatmaq istərdik ki, 9 noyabr 1991-ci ildə Türkiyə Azərbaycanın müstəqilliyini tanımış və 1992-ci il yanvarın 14-də diplomatik əlaqələr qurulmuşdur. Bu gün hər bir Azərbaycan vətəndaşına, Azərbaycan türkünə bəllidir ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi 1992-ci ilin avqustayından fəaliyyətə başlamış, 1993-cü ildə AR-in İstanbulda Baş Konsulluğu, 2004-cü ildə isə AR-in Qarsda Baş Konsulluğu açılmışdır. Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi və Naxçıvan şəhərindəki Baş Konsulluğu 1992-ci ilin yanvar ayında yaradılmışdır. Hər iki ölkədəki diplomatik nümayəndəliklər qardaş dövlətlərin münasibətlərinin artan xətlə inkişafında əvəzedilməz rol oynayırlar.

Azərbaycanla Türkiyə xarici siyasət məsələlərində daim bir-birinə dəstək olmaqda davam edir. Bütün məsələlərdə qarşılıqlı tərəfdaşlıq kursu yürüdülür. Hər iki dövlət BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Birliyi, EKO, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarda bir-birinə dəstək verərək fəaliyyət göstərirlər. Hazırkı situasiyada, dünyada ikili standartların geniş yayıldığı bir şəraitdə koordinasiyalı fəaliyyət çox böyük fayda verir. Ötən hər il bu əməkdaşlıq və onun mühüm nəticələri özünü bariz şəkildə göstərməkdədir. Hər iki dövlətin yerləşdiyi məkan geostrateji əhəmiyyəti, həssaslığı baxımından mühüm rola malikdir. Ona görə də Azərbaycan və Türkiyənin dövlət xadimləri, ictimai rəyin formalaşdırılmasında mühüm rol oynayan media qurumları strateji tərəfdaşlığın inkişafında, onun daha da möhkəmlənməsində töhfələrini verirlər.

Türkiyə ilə Azərbaycan arasında ikitərəfli strateji müttəfiqliyin qurulmasında 2009-cu ilin avqust ayının 16-da prezidentlər - İlham Əliyev və Abdullah Gülün Bakıda imzaladığı "Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" mühüm rol oynamışdır. Azərbaycan hər zaman Türkiyəyə dəstək verir ki, bu da öz növbəsində onun regionda imkanlarını genişləndirir. BTC neft, BTƏ qaz, BTK dəmir yolu, TAP, TANAP, Şahdəniz-2 və s. transmilli layihələr aradakı münasibətləri daha da inkişaf etdirən amillərdir. Türkiyə də Azərbaycanın müstəqilliyinin qarantı kimi çıxış edir, Dağlıq Qarabağ münaqişəsində birmənalı olaraq dəstək verir. Bunun nəticəsidir ki, Türkiyə Azərbaycanın ən etibarlı strateji tərəfdaşı sayılır. Bu münasibətlərin qurulmasında və inkişafında hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumlarının rəhbərlərinin qarşılıqlı səfərləri əhəmiyyətli rol oynayıb.

Azərbaycan-Türkiyə münasibətlərinin strateji tərəfdaşlıq və müttfəqilik səviyyəsinə yüksəlməsini ekspertlər və nüfuzlu analitiklər dünyada ən sıx və möhkəm müttəfiqlik münasibətlərinə malik olan əlaqə kimi dəyərləndirirlər. Onların fikrinə görə iki ölkə arasındakı istər iqtisadi-siyasi və sosial-mədəni, istərsə də hərbi-strateji tərəfdaşlıq münasibətləri bir-biri üçün xüsusi önəm daşıyır [1, 346].

Prezident İlham Əliyevin dediyi kimi "Bizim əlaqələrimiz tarixi köklərə, xalqlarımızın qardaşlığına söykənir və bu gün bu əlaqələr dünyada ən yaxın əlaqələrdir. Bu gün dünyada Türkiyə və Azərbaycan kimi bir-birinə bağlı olan, yaxın olan ikinci ölkələr yoxdur və bu birliyi təsdiqləyən bir çox məqamlar var" [8].

Azərbaycan mehriban qonşuluq və dostluq münasibətlərini torpaqlarımızı işğal edən Ermənistanı çıxmaq şərtilə, bütün bölgə dövlətləri ilə saxlamaqdadır. Rusiya, Gürcüstan, Qazaxıstan, Türkmənistan, İran, Türkiyə ilə olan əlaqələr qarşılıqlı hörmət və ehtiram ruhunda davam edir. Bölgənin güclü müsəlman dövlətləri ilə ölkəmizin münasiətləri mehriban qonşuluq, qarşılıqlı hörmət ruhunda tənzimlənir. Qonşu dövlətlərdən olan İran və Türkiyə ilə faydalı qarşılıqlı əlaqələrin və mehriban qonşuluq münasibətlərinin qurulması ölkəmiz üçün olduqca vacibdir. Çünki istər Azərbaycanın hər iki dövlətlə ayrı-ayrılıqda, istər birgə, istərsə də bu iki dövlətin öz aralarında mövcud olan əlaqələri hər zaman respublikamızın daxili həyatı, həm də beynəlxalq vəziyyətinə öz təsirini göstərmişdir. Ona görə də müstəqil Azərbaycan diplomatiyası hər iki dövlətlə öz əlaqələrini elə qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin mühüm problemlərinin həll edilməsində istifadə etsin, digər tərəfdən, respublikanın inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin təsirindən azad etsin [3, 560].

Türkiyə ilə olan əlaqələrin daha fərqli və üst səviyyəyə gəlməsində iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulmasının böyük təsiri olmuşdur. Tərəflər arasında çoxdan gözlənilən və ehtiyac duyulan Strateji Müttəfiqlik Haqqında və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması barədə 15 sentyabr 2010-cu ildə İstanbulda baş nazir Rəcəb Tayyib Ərdoğan və prezident İlham Əliyev arasında müqavilə imzalandı. Bununla da iki ölkə arasındakı münasibətlərin daha da sıxlaşmasına, əlaqələrin strateji müttəfiqlik səviyyəsinə qalxmasına geniş zəmin yarandı.

2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi həlledici mərhələyə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi "Şahdəniz- 2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 20 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici

sərmayələrə açıb və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edib. Həmin müqavilə “XX əsrin müqaviləsi” adlandırılmışdısa, “Cənub” qaz dəhlizi layihəsi XXI əsrin ən iri enerji layihəsidir [4].

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 2015-ci ildəki dördüncü iclasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 15 yanvar 2015-ci il tarixində keçirilmiş dördüncü iclasının nəticələrinə dair Birgə Bəyanat”ı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar. Sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatla çıxış ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatından: "Siyasi sahədə Türkiyə ilə Azərbaycan arasında hər hansı bir problemdən söhbət belə gedə bilməz. Hərbi sahədə əməkdaşlığımız artaraq davam edir. İqtisadi-ticari əlaqələr sahəsində ticarət dövriyyəsi bu il 5 milyard dollara çatdı, belə bir səviyyəyə nail olduq. Amma təbii ki, bizim əsas hədəfimiz bu göstəricini 2023-cü ildə 15 milyard dollara çatdırmaqdır". Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatından: "İqtisadi sahədə gözəl əməkdaşlıq var. Bu gün Şuranın iclasında rəqəmlər səsləndi. Son illərdə Azərbaycan Türkiyəyə və Türkiyə Azərbaycana milyardlarla dollar sərmayə qoymuşlar. 2020-ci ilə qədər Türkiyəyə qoyulacaq Azərbaycan sərmayələrinin həcmi 20 milyard dollara çatacaq. Türkiyə şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər və 10 milyard dollar həcmində layihələr icra etmişlər" [8]. Dövlət başçılarının çıxışlarını təhlil etdikdə münasibətlərin inkişaf dinamikası, gələcək perspektivi gözümüz önündə aydın şəkildə canlanır. Bununla da Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının unikal və işlək bir mexanizm olması təsdiqlənir.

2015-ci il üçün iki dövlət arasında münasibətlərin sıxlaşmasına səbəb olan digər bir hadisə həmin il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə keçirilən təntənəli mərasim oldu. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün

nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. Ekspertlər bunu çox yüksək qiymətləndirmişlər. Bu tarixi hadisə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yeni və dinamik inkişaf mərhələsi kimi qiymətləndirilə bilər [4].

Siyasi realizm nəzəriyyəsinin nümayəndələrindən olan Edmund Burk, Aleksis de Tokvil, Uolter Lipmann, Hans Morgentao, Corc Kennan kimi araşdırmaçıların yanaşmalarında bildirilir ki, xarici siyasət problemin müəyyənləşdirilməsi, hədəflərin seçilməsi, alternativlərin ortaya qoyulması və rasional qərar qəbulunun həyata keçirilməsindən ibarət ardıcıllığın təmin olunduğu strateji kursdurş

Liberalizm nəzəriyyəsinin nümayəndələrindən olan Stuart Soroka “Media, ictimai rəy və xarici siyasət” adlı kitabında qeyd edir ki, I Dünya müharibəsindən sonra ictimai rəyin beynəlxalq münasibətlər sistemində rolu və əhəmiyyəti artmağa başladı. Onun fikrincə, artıq dövlətlərin xarici siyasətində ictimai rəy mütləq surətdə nəzərə alınır və bu, milli maraqların təmin olunmasıma, müəyyən olunmuş hədəflərə çatmağa əsaslı zəmin yaradır.

Tomas Risse-Kappen isə ictimai rəy ilə xarici siyasətin əlaqəsinin düzgün müəyyənləşdirilməsi üçün bir neçə amilin nəzərə alınmasının zəruriliyini diqqətə çatdırır. Onun yanaşmasına görə, ən əsası, cəmiyyətin inkişaf səviyyəsi nəzərə alınmalıdır. İnkişaf etmiş və yetərli intellektual potensiala malik olan cəmiyyətlərdə ictimai rəy rasional mexanizm kimi çıxış edir, ona görə də xarici siyasətə dair qəbul olunan qərarlarda onu nəzərə almaq əhəmiyyət daşıyır.

Müasir dövrdə ictimai rəyin formalaşmasında “dördüncü hakimiyyət” adını almış media aparıcı rolda çıxış edir. Medianın dəstəyi olmadan siyasi fəaliyyətdə, ictimai rəyin formalaşdırılmasında, əldə olunan uğurların geniş ictimaiyyətə çatdırılmasında gözlənilən nəticəni əldə etmək mümkünsüzdür.

Jurnalistikanın, kütləvi informasiya vasitələrinin cəmiyyətə təsiri çox güclüdür və geniş radiusu təşkil edir. Belə bir möhtəşəm gücə malik ictimai, kütləvi institut ictimai həyatın kamilləşməsi üçün öz üzərinə öhdəliklər götürür. Bu öhdəliklərdən biri və başlıcası onun nöqsanları aşkar etmək və göstərmək işi ilə bağlıdır. Jurnalistikaının "dördüncü hakimiyyət" rolunda çıxış etməsi bu vəzifədən irəli gəlir [5, 127].

Bir sıra hallarda isə media təmsilçiləri üzərlərinə düşən rolu unudurlar, müəyyən dairələrin sifarişlərini yerinə yetirməyə başlayırlar. Əgər dövlətlər həmin dairələrin sifarişlərini yerinə yetirmirsə, onların maraqlarından deyil öz milli maraqlarından çıxış edirlərsə o zaman onların əlində "Domokl qılıncı"na çevrilmiş transmilli media qurumları işə düşür. Vurğunluq və obyektivlik arasında gözlə görünməyən bir sərhəd vardır. Öz işinə başı qarışan reportyor bu sərhəddi keçən kimi obyektivliyi unudur və hər məsələ barədə öz fikirlərini

auditoriyaya qəbul etdirməyə çalışır və beləliklə, jurnaistdən peyğəmbərə çevrilir [7, 13].

Dünyada hegemonluğa can atan qüvvələrin nəzarətində olan media korporasiyaları həmin ölkələrin maraqlarından çıxış edərək iki ölkə arasında olan münasibətlərə zərbə vurmağa çalışırlar. Çünki Azərbaycanla Türkiyənin bu şəkildə birliyi, münasibətlərinin belə bir artan templə inkişafı onları ciddi narahat edir. Müxtəlif vasitələrlə bu birliyi pozmağa cəhd göstərir, təxribatlara əl atırlar. Xüsusən nəzarət etdikləri media vasitəsilə iki ölkənin münasibətlərini korlamağa çalışırlar. Lakin bunlara baxmayaraq hər iki dövlətin ali siyasi rəhbərliyi müttəfiqlik münasibətlərinə sadiq qalaraq əməkdaşlığı daha da genişləndirirlər.

Bu gün dünya siyasətində hegemon güc qismində təmsil olunan müəyyən milli faktorlar özlərinin transmilli maraqlarını təmin etmək üçün müxtəlif vasitə və resurslara istinad edirlər. Bu sırada ən çox istifadə və istinad edilən vasitə isə transmilli media strukturlarıdır. Müasir dövrdə transmilli media strukturlarının fəaliyyət mexanizmi konkret güclərin maraqları əsasında qurulub və özündə dərin siyasi manipulyasiya metodlarını ehtiva etməkdədir [2, 50].

Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi, mədəni münasibətlərin belə bir səviyyəyə gəlib çatmasında iki ölkənin media qurumları çox böyük rol oynayır. Dünyada mətbuatın yaranma tarixini götürsək və hər iki ölkənin mətbuat tarixinə ekskurs etsək görərik ki, həm Türkiyədə, həm Azərbaycanda mətbuatın yaranması elə də böyük bir tarixi əhatə etmir. Lakin ötən müddətdə hər iki ölkənin mətbuatı böyük bir inkişafa nail olmuşdur. Qətiyyətlə deyə bilərik ki, Azərbaycan və Türkiyə mətbuatı Avropa mətbuatının keçdiyi tarixi yol qədər məsafə qət etmişdir. Azərbaycanda mətbuatın 1875-ci ildən "Əkinçi" qəzeti ilə başlaması faktı bizə yaxşı məlumdur.

Türkiyədə isə türk dilində ilk qəzet 1832-ci ildə sultan II Mahmudun dövründə çap olunmuş və "Təkvimi-vəkayi" adlanmışdır. Bu qəzet Almaniyadan 222 il sonra, Fransadan 200 il sonra, Rusiyada "Vedimosti"dən 129 il sonra başlamışdır. Qəzetin ilk sayı 8 səhifə mətn, ayrıca 2 səhifə də ön söz olaraq, həftədə bir dəfə çıxmışdır [6, 396-400].

İki ölkənin media qurumları görülən işlərə, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına ciddi töhfələr verirlər. Qəbul edilən qərarların ictimaiyyətə çatdırılmasında, dövlət başçılarının görüşlərinin nəticələrinin şərh edilməsi, onun müxtəlif hissələrinin araşdırılması, geniş kütləyə çatdırılması medianın gördüyü ən mühüm işlərdəndir. Türk dövlət başçıları bu məqamı nəzərə alaraq Türk Dövlətlərinin Əməkdaşlıq Şurası (Türk Şurası) yanında Media Platformasının yaradılmasına qərar verdilər. 2011-ci ildə dörd türk dövlətinin aparıcı media qurumlarının təşkilatçılığı ilə qurum yaradıldı.

Qeyd edək ki, Türkiyənin Qərblə çox sıx əlaqələri var. NATO-nun aparıcı üzvlərindən olan Türkiyənin Azərbaycanla strateji müttəfiqliyi ölkə-

mizin də Qərblə əlaqələrinin inkişafında mühüm rol oynayır. Professor Əli Həsənov bu məqamı belə qeyd etmişdir: Türkiyə Qərb üçün də mühüm müttəfiqdir, bu münasibətlər öz orjinallığı ilə diqqəti cəlb edir. NATO-da təmsil olunan yeganə İslam dövləti kimi Türkiyənin yeri və rolu çox böyükdür. Demokratik inkişaf yolu tutmuş, ən böyük müsəlman dövlətlərindən olan Türkiyə İslam dünyasına örnək ola biləck siyasi sistemə, dövlət qurluşuna malikdir. Türkiyənin dünyanın ən mühüm geosiyasi məkanında yerləşməsi, transmilli geoiqtisadi və hərbi geostrateji dəhlizlərə, dəniz yollarına nəzarət etməsi, bəzi məsələlər üzrə Rusiyanın Xəzər-Qara dəniz hövsəzi və Cənubi Qafqazdakı təsirini zəiflətməsi, son zamanlara qədər İranın radikal islam fundamentalizminin qarşısında "milli və dini sipər" rolunu oynaması və s. onun Qərb üçün bundan sonra da əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir [1, 330].

Beləliklə sadalananlar ona dəlalət edir ki, Azərbaycanla Türkiyə arasında müasir dövrdə münasibətlər artan xətlə inkişaf edir. Hər iki ölkənin dövlət başçıları, rəsmi qurumları, ictimaiyyət nümayəndələri bunun üçün çox ciddi çalışmalar həyata keçirirlər. Bu əlaqələrin inkişafında ictimai rəyi formalaşdıran milli media orqanlarının rolu böyükdür. Baxmayaraq ki, bəzi hallarda isə transmilli media qurumları bu münasibətləri pozmağa çalışırlar. Məhz milli medianın apardığı təbliğat nəticəsində dövlət qurumlarının gördüyü işlər ictiamiyyətə çatdırılır və ictimaiyyətin dəstəyi qazanılır, əməkdaşlıq daha da möhkəmləndirilir.

## ƏDƏBİYYAT


1. Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı: Zərdabi LTD MMC. 2015, 1055 s.
2. Babaoğlu H. İnfoimperializm və media. Bakı: MSA. 2013. 192 s.
3. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: UniPrint. 2014. 674 s.
4. Əhmədov E. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı yeni və dinamik nkişaf mərhələsində. 03.04.2015. AzərTAC. http://azertag.az/xeber/Azerbaycan_Turkiye_strateji_terefdasligi_yeni_ve_dinamik_inkisaf_merhelesinde-843233
5. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı: Zərdabi LTD MMC. 2012. 616 s
6. Vəliyev H. Xarici ölkələrin jurnalistikası tarixi. Bakı: Tuna. 2012, 640 s.
7. Fichtelius E. Jurnalistikanın on qızıl qaydası. Bakı: Adiloğlu. 2002. 192 s.
8. Xalq qəzeti. 16 yanvar 2015-ci il, N 11

**UOT 91+94**

# BÖYÜK COĞRAFİ KƏŞFLƏR VƏ TARİXİ HƏQİQƏTLƏR

***Anar Ömərov***
*Bakı Dövlət Universiteti*

**Açar sözlər:** *yunan və əhəmənilər, fars körfəzi-Hörmüz boğazı, su və quru yollar, qədim ticarət yolları*

Böyük coğrafi kəşflərə qədər bəşəriyyət müxtəlif kontinentlərlə, o cümlədən Hindistan və Çinlə ticarət əlaqələri saxlayırdılar. Bu yolların varlığı müxtəlif arxeoloji materiallar əsasında öyrənilmişdir. Tədqiqatçıların fikrinə görə cənubdan şimala ixrac edilən ilk mal obsidian olmuş, daha sonra insanlar bu yollarla müxtəlif məişət əşyaları, silah və əmək alətləri göndərmişlər. Avropalıların böyük coğrafi kəşfləri zamanı qədim dövrdən mövcud olan unudulmuş yolları yenidən dünyaya tanıtmışdır.

## ВЕЛИКИЕ ГЕОГРАФИЧЕСКИЕ ОТКРЫТИЯ И ИСТОРИЧЕСКИЕ ФАКТЫ

***Анар Омаров***

**Ключевые слова:** *греки и ахемениды, персидский залив-Ормузский пролив, водные и сухопутные дороги, древние торговые пути*

До Великих географических открытий человечество знала и участвовала по торговым путям между разными континентами, в том числе с древними странами Индии, Китая. Эти дороги изучены на основе многочисленных археологических находок. Самый ранний товар перевозимые с юга на север по мнению ученых является обсидиан, после люди научились по этим дорогам отправлять в разные страны всевозможные утварь, специи, оружия и орудия труда. Европейцы повторили то, что происходила в Старом свете с древних времен.

## GREAT GEOGRAPHICAL OPENING AND HISTORICAL FACTS

**Anar Omarov**

**Key words:** *Greek and architecture, Persian Gulf-the Strait of Hormuz, the water, and a dry road, the ancient trade route*

Before the Great geographical opening knew humanity and participated on trade-routes between different continents, including with the ancient countries of India, China. These roads are studied on the basis of numerous archaeological finds. Earliest commodity transported from a south to the north in opinion of scientists there is obsidian, after people learned on these roads to send in different countries various utensil, spices, weapon and tool. Europeans repeated that took place in the Old light from ancient times.

Avropalıların Böyük Coğrafi Kəşflər adlandırdıqları və mahiyyət etibarilə qitələrarası ayrı-ayrı əmtəələrin daşınması, satışı prosesi dünya ticarət tarixində növbəti, təkrar işlərin daha qəddar və ağrılı şəkildə həyata keçirildiyi bir proses olmuşdu.

Ən qədim ticarət yollarının istiqaməti barədə düzgün məlumatları arxeoloji qazıntılardan əldə edilən maddi-mədəniyyət nümunələri sübut edir. Günümüzdə dünya alimlərinin bu problem ətrafında apardıqları araşdırmalara görə, çaxmaqdaşı-obsidian adlandırılan vulkanik mənşəli əmək alətinin primitiv formalı növləri öz yüngül çəkisinə görə daşınmaqda problem yaratmadığına görə belə mühüm strateji məhsullar sırasında bir ilk hesab olunur. Bu şüşəyəbənzər, vulkan püskürməsindən sonra daşlaşan sərt şüşə növləri həm əmək aləti, həm də silah kimi istifadə edilə bilirdi. Son illər aparılan araşdırmalara görə hesab edilir ki, belə keyfiyyətli əmtəə növü Avrasiyaya Qafqazdan şimala daşınmaqla çatdırlmışdı [16, 47-48,54; 5, 38-46]. Obsidianın ticarət yollarının gələcək perspektivində önəmli yer tutması, həm də dünyada çox az yerdə onun yataqlarının olması ilə bağlıdır. Bu yataqlar milyon illər öncə vulkanlardan sonra yerdə donmuş şəkildə qalan hissəciklərdir. Məsələn, yunan adaları sahillərində yerləşən Franxti mağarasından tapılan obsidian-çaxmaqdaşları 15 min il öncə püskürən Melos vulkanından sonra yaranmışdı. Obsidian-çaxmaqdaşının Asiyanın və Qafqazın cənubundan Yukatan adasınadək daşınması faktı alimlər tərəfindən kifayət qədər araşdırılmışdı. Onun daşınması üçün ən yaxın məsafə Mesopotamiya ilə Mərkəzi Asiya arasındadır.

Dünya tarix elmi Herodotun “Tarix” əsərində maraqlı bir məlumatı 200 ilə yaxındır ki, hələ də müzakirə edir. O, e.ə.430-cu ildə karfagenlilərlə Herkules, yaxud Herakl sütunlarının o biri tərəfindən gələn başqa insanlar arasında “sözsüz, söhbətsiz” ticarətin olmasını xüsusi qeyd edirdi: ”Hər dəfə karfagenlilər oradakı insanların yanına çatdıqda, onlar mallarını gəmilərdən boşaldıb, sahildə cərgəyə düzürdülər. Sonra yenidən gəmilərə oturub, tüstü ilə xüsusi işarə verirdilər. Yerli əhali tüstünü görüb dəniz sahillərinə gəlir, istədikləri mala görə qızıl pul qoyub geri evlərinə qayıdırdılar. Sonra karfagenlilər yenidən gəmilərindən sahilə enirdilər və qızılın onların gətirdikləri mallara kifayət edib etməyəcəyini yoxlayırdılar. Əgər bəs edirdisə, qızılı

götürüb üzüb gedirdilər. Əgər az olurdusa, yenə gəmilərinə qayıdıb, oturub gözləyirdilər. Yerlilər yenidən sahilə gəlib əlavə qızıl pul qoyurdular. Bu iş bəzən bir-neçə dəfə təkrar olunurdu. Hər iki tərəf bir-birini aldatmırdı. Tamam razılığa gəlməyincə heç kim nə pulu, nə malı götürmürdü [24, 41].

Herkules sütunlarının Cəbəllütarik boğazı yaxınlığında olması və karfagenlilərlə sözlə ticarət etməyən insanların Liviyadan-Afrikanın qərbindən olması məhz aşkar edilən maddi-mədəniyyət qalıqları vasitəsilə təsdiqini tapmışdır [15, 9-24]. Bununla belə bəzi əcnəbi alimlər bu cür ticarət növünü reallıqdan uzaq, həqiqətə uyğun olmayan əfsanə, rəvayət adlandırıdılar. Amma ibtidai icmalarda yaşayan insanların və yaxud insan qruplarının ilk ticarət münasibətlərinə belə primitiv şəkildə başlamaları ağlabatandır.

Təxminən 6 min il əvvəl misin kəşfi ilə bağlı həm də su yolu kəşf edilmişdir. Su yolunun kəşfinin qayıqlarla başlanması faktları demək olar ki, bütün dünyada qayaüstü rəsmlərdə-petroqliflərdə öz əksini tapmışdır. İlk qayıqların Avropada təxminən 15 min il bundan öncə hazırlandığı barədə müəyyən elmi mülahizələr mövcuddur. Bu qayıqlar ovçular tərəfindən heyvan dərilərinin və buynuzlarının karkas şəklində olan forması üzərində hazırlanırdı. Belə qayıqlar həm balıqçılıqda, həm də müxtəlif yüklərin daşınmasında iştirak edirdi. İkinci tip qayıqlar ağaclardan hazırlanaraq, müasir kanoy tipli formada olurdu.

Su yolu ilə hələ daş dövründə ticarətin yaranmasını sübut edən digər bir maddi-mədəniyyət nümunəsi baltalardır. Alimlərin fikrincə ən qədim balta prototipi Balkan yarımadasında geniş yayılan daş karxanalarında yaradılmışdır. Buradakı daşlardan hazırlanan baltalar Balkanlardan Dunay çayının Qara dənizə axdığı yerlərdə, Baltik dənizi sahillərinə qədər olan böyük məsafəli məkanlarda aşkar olunmuşdur [2, 10-11, 20]. Su yolu ilə belə ağır daş baltaların daşınması quru yoldan daha sərfəli idi. Hesablamalara görə, yüklənmiş at ən ağır 90 kq., arabaya qoşulmuş at ən çox 1,8 ton yükdaşıma qabiliyyətinə malikdir. Herodota görə belə ağır yükləri insanlar palma ağacından düzəldilmiş, iri ölçülü çəllək tipli qayıqlarda daşımağı bacarırdılar. Belə ticarət yolu Dəclə çayı ilə Babilistana çatırdı [24, 41]. Bu işin yerinə yetirilməsində yəqin ki, suyun axarı önəmli faktor olmuşdu.

Ehtimal edilir ki, misin ilk tapıldığı məkanı Erqanidən (Anadolu-A.Ö.) Uruk yaxınlığındakı yaşayış məskənlərindəki əhalini bu metalla Fərat çayı vasitəsi ilə təmin etmişlər. Üç min il bundan öncəyə aid olan bəzi yazılı mənbələrdə artıq müasir Fars körfəzi vasitəsilə Mesopotamiyanın taxıl və mislə digər tayfaları təmin etməsi haqqında məlumatlar vardır. Fars körfəzinin ticarət əlaqələrində vacib bir məkana çevrilməsi Hörmüz keçidindən istifadədən sonra baş vermişdi. Bura həm də müasir Oman dövləti ərazisindən (qədim Maqan şəhəri) tapılmış misi gətirərək, boğazdan daşıyırdılar. Mixi yazılarda, xüsusilə

arpanın Dilmun adasına və Maqan ölkəsinə hələ 2800 il əvvəl daşınması barədə məlumatlar araşdırılmışdı [3, 127-135; 17, 138-139].

1983-cü ildə sualtı arxeoloq Don Frey Türkiyənin Bodrum sahillərinin qərb hissəsində təxminən 1350-ci ildə batmış gəmidə işlənmiş fil və begemot sümüyü qalıqları, qədim şüşə və mis külçələri aşkar edilmişdi. Bu artefaktlar sırasında sürmə də olmuşdu. Sürmənin ilk yatağının Şimali Avropa olması faktı sübuta yetirilmiş və ilk dəfə finikiyalı tacir Qamiltonun Atlantik okeana çıxması, oradan Fransaya keçərək Qaronna çayına və Aralıq dənizinə keçməsi ilə göstərilən minillikdə misdən də qiymətli olan bu metalın Asiyaya çatdırılması faktları təsdiqlənmişdi [6, 118-127; 5, 497-498].

Mesopotamiya mədəniyyətində Fars körfəzi ətrafında aşkar edilən təbii mineral yataqlarında da istifadə edilmişdir. Bu mədəniyyətə aid edilən mixi yazılarda buğda ilə balın ticarətdə əsas yer tutması haqqında çoxsaylı məlumatlar vardır. Şumerlərin yazılarında süd və bal məkanı olan Dilmun (müasir Bəhreyn) yalnız torpağının məhsuldarlığına görə deyil, strateji baxımdan vacib olan Hörmüz boğazının Fars körfəzinə daxil olduğu yerdə yerləşməsi ilə əlaqədar olmuşdu. Son 30 ildə qədim Dilmun şəhərinin yerləşdiyi Kalat-əl Bəhreyn adlı yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı tunc dövrünə aid edilən xeyli sayda arxeoloji artefaktlar aşkar edilib. Qədim yaşayış yeri 0,2 $km^2$ ərazini əhatə edir. Əraziyə görə burada 5 min insanın yaşaması ehtimal edilir. Mixi yazılarda buradakı insanların taxıl və yonca ehtiyacını ödəməkdən ötəri e.ə.2800–ci ildə ticarətin çiçəklənməsi qeyd olunur [6, 118-127].

Hörmüz boğazı-Fars körfəzi çevrəsində şumerlərin taxıl və bal ticarəti əsasən qazıntılar nəticəsində araşdırılmışdır. Yazılı məlumatlara görə, Dilmun şəhəri içməli, şirin suyu bol olan adada inşa edilmişdi. E.ə.2000-ci ildə buranın ərazisi Mesopotamiyanın ən iri şəhərlərindən olan Ur qədər olmuşdu. Şəhərin mərkəzində olan meydanın bir istiqaməti dənizə olan qapılara tərəf uzanmışdı. Bu qapıların yanında içərisində külli miqdarda möhür, çəki daşları, tərəzilər saxlanılan gömrük bir otaqdan ibarət tikilidə yerləşmişdi. Meydanın hər iki tərəfində iri toxunma zənbillərdə yonca, Fərat çayı ilə gətirilən xurma yığılırdı. Bunlardan başqa Mesopotamiyadan gətirilən paltarlar, mərgümüş, mis külçələri yığılıb əks istiqamətə-Ur şəhərinə göndərilmək üçün hazırlanırdı. E.ə.1800-cü ildə bu mis külçələr Ea-Nasir ticarət evləri üçün nəzərdə tutulmuşdu. Bu məşhur ticarət evi Ur şəhərində fəaliyyət göstərirdi. Göstərilən məlumatlar Dilmundan və Urdan tapılan, mütəxəssislər tərəfindən araşdırılan gil lövhələrdə öyrənilmişdir. Belə gil lövhələrin birində hətta 12 ton mis külçəsi barədə məlumat belə vardır [7, 127-130].

Şumerlərin Hörmüz boğazı ilə ticarət etdiyi mallardan ən qədimləri sırasında tunc olmuşdur. Belə ki, mərgümüş və sürməni ayırmağı bacaran şümerlilər e.ə. təxminən 2800-ci ildə keyfiyyətli tunc məmulatlar hazırlamağı öyrənmişlər [10, 1-18]. Bu zamana qədər metal yataqları olmayan Meso-

potamiya özünün təbii zənginliklərini - İkiçayarası torpaqlarında yetişdirilən dənli bitkiləri, balıq növlərini, yun və digər əkinçilik, maldarlıq məhsullarını müasir Oman, Sinay yarımadasından gətirilən metal və metallurgiya məhsullarına, Anadoludan və Persiyadan (müasir Türkiyə və İran) daşınan qranit və mərmərə, Livandan gətirilən ağaca dəyişərək mədəniyyətlərini zənginləşdirmişlər. Bu güclü ticarət əlaqələri eyni marşrutla Hind çayı sahilində də mövcud olmuşdu (müasir Pakistanda). Göstərilən regionların bir-biri arasında ən qədim zamanlardan ticarət əlaqələri mövcud olmuşdu [18, 10-11].

Hörmüz boğazından Hind okeanı sahillərinə qədər olan su və quru yolların ümumi məsafəsi hesablamalara görə 3 min km-dən bir qədər artıqdır. Bu yol Anadolunun dağlarından Mesopotamiyanın cənub-şərqinə və Fars körfəzinə, oradan şərqə Hind okeanı sahillərinə və Hind çayının şimal-şərq axarına qədər uzanırdı. Ən qədim dövrlərdə yaranan və Böyük coğrafi kəşflərə qədər qısa fasilələrlə fəaliyyət göstərən bu yol müasir leksikologiyada ifadə etsək "ümumdünya ticarət təşkilatının" erkən qurulmuş forması hesab oluna bilər. Bu yol yüzlərlə kiçik yollardan keçdiyinə görə yəqin ki, hindlilərlə şumerlər heç bir birini tanımırdılar. Arada olan vasitəçilər daşınma, satış üzərinə nəzarətdən az gəlir götürmürdülər [8, 232-242].

Qeyd etmək lazımdır ki, ilk ticarət müqavilələri yazılı məlumatlara görə hakimiyyət nümayəndələri və kahinlər arasında bağlanmışdı. E.ə.2000-ci ildə şumerlərlə ticarət ayrı-ayrı şəxslərə, o cümlədən yuxarıda adı çəkilən Ea-Nasir adlı tacirlər qurumu ilə həyata keçirilmişdi. Hind okeanı sahillərindəki əlaqələrə aid çoxsaylı möhür nümunələri Mesopotamiyanın şəhər yerlərinin qazıntılarından aşkar edilmişdi. Əks istiqamətdə, Hind çayı sahillərində İkiçayarası mədəniyyətə xas olan heyvan başları-zoomorf uclu sancaqların kütləvi tapıntıları bir daha bu ticarət yolunun tarixini üzə çıxardı.

1990-cı ildə alman arxeoloqu Gil Şteyn Anadoluda Hacınəbi-təpə abidələrində (bura Dəclə çayının su yolunun şimal hissəsidir-A.Ö.) yerli maddi-mədəniyyət qalıqları ilə yanaşı, həm də hamar şəkilli daş möhürlər aşkar etmişdi. Burada kiçik bir ərazidə aşkarlanan bütün arxeoloji artefaktlar ümumilikdə, Uruk mədəniyyətinə oxşar olaraq, e.ə.3700-cü illərə aid edilmişdi. Bu artefaktlar sırasında Mesopotamiya üçün xarakterik olan silindr şəkilli möhürlər, keçi sümüyü qalıqlarının xüsusi işlənmiş formaları alimlər tərəfindən burada kiçik koloniya, yaxud ticarət evinin ola bilməsi ehtimalına gətirib çıxarmışdır [18, 10-11].

Uzaq məsafələrə üzmək finikiyalılara aid olan və onları qədim dünyada məşhur edən bir peşə olmuşdur. Hətta e.ə.600-cü ildə Misir fironu Nexo finikiyalılardan ibarət olan ekspedisiyanın maliyyəsini ödəyərək onları Afrikanın ətrafında üzməyi tələb etmişdir. Bu barədə Herodot yazırdı: "Nil çayından Ərəb körfəzinə qədər kanalın tikintisindən sonra firon finikiyalıları gəmilərlə yola saldı. Geri dönərkən onlara Herakl sütunlarından Şimal dənizinə

çatana qədər üzməyi əmr etdi. Payızda onlar Liviya sahillərinin bərəkətli torpaqlarına çatdılar. Orada məhsul yığımını gözlədilər, sonra yenidən dənizə çıxdılar. İki il keçib üçüncü ilə keçəndə finikiyalılar Herakl sütunlarının yanından ötərək, Misirə qayıtdılar. Onların danışıqlarına görə Liviya ətrafında üzərkən günəş onların sağında olduğunu müşahidə etmişlər. Mən onların bu fikrinə inanmıram, kim inanırsa inansın" [24, 123].

Herodotdan 200 il sonra, e.ə.205-ci ildə Eratosfen yer kürəsinin dairəsini dəqiq ölçüsünü təyin edərək, ekvatorun İsgəndəriyyə şəhərinin bir qədər cənubunda yerləşməsini sübut etmişdur [1, 44-45]. Deməк, qədim dünyada günəşin cənub yarımkürəsində hərəkətini Vasko-da Qamadan 2 min il əvvəl finikiyalılar Afrika ətrafında səyahət zamanı dərk etmişdilər.

Elmi ədəbiyyatda Aralıq dənizi və Hind okeanı arasında Qırmızı dənizdən keçdikdən sonrakı torpaqlarda yerləşən Misirin yuxarıda göstərilən kanalın tikintisinə Nexonun (e.ə.600-cı ildə) başlaması barədə kifayət qədər tutarlı araşdırmalar mövcuddur. Herodot bu barədə qeyd edirdi ki, "onun (Nexonun) bu cəhdi ən azı 120 min nəfərin ölümünə səbəb oldu. Kanalın çəkilməsi həm də düşmənlərin Misiri əhatəyə almasına münasib şərait yaratdı. Bu iki səbəbdən Nexo kanalın tikintisini sona çatdıra bilmədi" [24, 112].

Mesopotamiya və Hindistan arasında ticarət əlaqələrinin hələ tayfa ittifaqlarının mövcud olduğu zamandan yaranması və inkişafı barədə ən dəqiq sübutlar sırasında dünya sularından yalnız Hind okeanında və Oman körfəzində çıxarılan balıqqulağından hazırlanan çıraq və qabları göstərmək olar. Bu növ balıqqulaqları çox bahalı olması, həm də onların uzaq məsafələrdə yalnız zənginlərin, o cümlədən tayfa başçılarının qəbir abidələrindən tapılması faktları ilə sübuta yetirilir. İtaliyada gümüşdən sikkələrin buraxılması ilə mövcud ticarət yollarının araşdırdığımız ərazilərdə tapılan gil lövhələrdə pulla ticarət barəsində məlumatlar yazılmışdı. Yuxarıda adı çəkilən Dilmun adasında eyni adlı şəhərdən tapılan belə bir yazıda "2 mina gümüşə 5 gur yağ, 30 dəst paltar alınması" haqqında maraqlı maliyyə əməliyyatları qələmə alınmışdır [5, 38-46].

Belə arxeoloji, linqvistik araşdırmalar quru və su yolları marşrutunun Böyük coğrafi kəşflərdən bir neçə min il öncə nəinki mövcud olmasını, həm də işlək vəziyyətdə insanlar tərəfindən istifadə edilməsini sübuta yetirir. Əsas qədim yol Anadolunun cənub şərqindən Mesopotamiyanı və Hörmüz körfəzini keçərək şərqə tərəf Hind okeanı sahillərinə və şimal-şərqə Hind çayına qədər bir neçə min kilometrlik məsafədən ibarət olmuşdu. Eradan əvvəl 3 mininci ildə bu ticarət yolunun əsas arteriyası Hörmüz böğazı-Fars körfəzi olmuşdu. Sivilizasiyanın qərbə Misirə, Finikiyaya və Yunanıstana tərəf yönəlməsi istiqamətində əsas su yolu dənizlərlə, yəni Qırmızı dənizlə Bab-əl-Məndab körfəzinə, oradan Hind okeanına çıxış idi. İkinci dəfə bu sularda hakimiyyət Əhəmənilərin əlinə keçmişdi. I Dara müasir Suets kanalını inşa etdirməklə Nil çayını Qırmızı dənizlə birləşdirmişdi [17, 110-117; 7, 11-15].

Makedoniyalı İsgəndərin öz şərəfinə inşa etdirdiyi İsgəndəriyyə-Aleksandriyya bu qədim ticarət yolunun keçdiyi məkanda bir neçə yüz il Ərəbistan yarımadasını Hindistan və Çindən gətirilən və Avropaya daşınan malların qəbul edildiyi bir “gəlirli ticarət məskəni” kimi tanınmışdı. Onun ölümündən sonra dağılan imperiyada bir-biri ilə rəqabət aparan dövlətlərdən Ptolomey tərəfindən idarə edilən Misir finikiyalıların gəmiçilik təcrübələri qəbul edərək, Hind okeanında dənizçilik ticarətini ələ keçirmiş, Hindistanla fasiləsiz iqtisdadi əlaqələr yaratmışdı. Bu ticarətdə əsas prioritet-üstünlük qədim dünyanın ən güclü heyvanı sayılan fillərin daşınması olmuşdur. Fillər Selevkilər və digər yeni yaradılan dövlətlərlə mübarizədə vacib silah kimi istifadə edilirdi. 200-cü ildən sonra Ptolomeyin yaratdığı dövlətin ticarət maraqları daha da güclənmişdi. Təxminən 100 il sonra Yevdoks adında gəmi kapitanı Misirdən Hindistana Bab-Əl Məndab körfəzi ilə olan yolu kəşf etdi. O, əvvəlcə cənuba, sonra Hörmüz boğazının sahilləri ilə Fars körfəzinin şərq sahillərinə, oradan Hindistanın cənubuna çatdı. Ümumi marşrutun uzunluğu mütəxəssislərin hesablamalarına görə 8 min kilometr olmuşdu. Həmin dövrün vacib kəşflərindən biri Hind okeanında gəmilərin hərəkətinə köməklik edən musson külləkləri olmuşdu. Bu kəşfdən sonra Sokatra və Malabar limanlarında ticarət artıq etnik xarakter almağa başladı. Malabardan daşınan ədviyyatlardan - istiot növləri Romada ticarət ambarları olan –xorreumlara doldurularaq, çox baha qiymətə satılırdı.

Müsəlmanların ilk işğalları nəticəsində Roma tamamilə süquta uğradı. Əməvilərin və Abbasilərin hakimiyyəti zamanı bütün xilafətdə azad ticarət zonaları formalaşmışdı. Burada artıq qədim dünyada olan sərhədlər, gömrüklər yox idi. Xüsusilə, Fərat çayı boyunca Qərblə Şərqin təbii sərhədi üçün heç bir maneçilik qalmamışdı. İki alternativ yol avropalıları asiyalı tacirlərlə birləşdirirdi. Qırmızı dənizlə Fars körfəzinə Hörmüz boğazını keçməklə və İpək yolu istiqamətində.

Yeni imperiyanın əhalisinin eyni dildə-ərəb dilində yazıb oxunası mütləq şərt olduğu zamanda bu işlər daha da asanlaşdırıldı. Müsəlmanların kiçik ölçülü gəmiləri Cəbəllütarik boğazından Şri-Lankaya qədər bütün su ticarət yolunu nəzarətdə saxlamışdı. Bütün qədim dünyanın məşhur ölkələrinin istehsal etdiyi vacib və hamı tərəfindən qəbul edilən əmtəələr bu imperiyanın daxili yollarında daşınırdı [13, 47; 22, 8-9].

Bu yüzilliklərdə Şərqlə Qərbin arasındakı sərhəd Aralıq dənizindən keçirdi. XI əsrdə Xilafətin yüksəlişi həm də onun dağılmasına səbəblər yaratdı. Xristianlar Abbasilərin daxili çəkişmələrindən istifadə edərək İspaniyanı, Siciliyanı, Maltanı geri aldılar. Bundan ruhlanan II Urban 1055-ci ildə xristian-ların Klermonlardakı kilsəsində I xaç yürüşlərinə çağırış etdi. Qısa müddətdə Yerusəlim, Qüds müsəlmanlardan azad edildi. XII əsrdə Səlahəddin Əyyubinin qələbəsi ilə xristianlar o torpaqlardan qovuldu. Onun səyi nəticəsində islam

dünyası yenidən yüksəlməyə və genişlənməyə başladı [12, 92-93; 23, 390-400]. Sonra monqol hücumları və yaratdıqları yeni dövlətlərdən–Hülakilər 1258-ci ildə Bağdadı tutmaqla xilafətə son qoydu. XV əsrdə Vasko da Qamanın sərgüzəştləri və XVI əsrdə Böyük coğrafi kəşflər minillərlə insanlıq tərəfindən yaradılan ticarət yolunu yenidən dirçəltdi.

Beləliklə, qərb ölkələrinin şərqin ticarət yollarına nəzarət etməsi ənənəsi bizim eranın əvvəllərindən tam olaraq formalaşmışdır. Ticarət sistemi həm də hərbi ekspansiyanın erkən formasna çevrilmişdi. Yunan-Romanın Aralıq dənizi ticarət dövründən başlayaraq, əsasən ucuz su yollarına nəzarəti həm iqtisadi-təbii resurslarına, həm də siyasi-rejimlərin idarəsinə nəzarət üçün həyata keçirilirdi. Bu vəziyyət Hind okeanı sahillərindən başqa, iqtisadi faktorlara və tarixi təcrübələrə görə, həm də Hörmüz-Fars körfəzi, İndoneziya adalarına aid edilə bilər [20, 147-165,174-175; 21, 264-265].

Nəticədə, Roma bu əmtəələrə xərclədiyi vəsaitlərin məbləğinə görə tamamilə müflisləşdi. Ərəb xilafəti dövründə bu boğazlar barədə xüsusi addımlar atılmadı. Hindistanın müsəlman hökmdarları portuqallara qədər bu yerlərin möhkəmləndirilməsi üçün heç bir vacib işlər görməmişlər. Ümumiyyətlə, starateji məkanlara-körfəzlərin qorunması, adaların təhkükəsizliyi onlar üçün elə bir əhəmiyyət kəsb etmirdi. Portuqalların hücumlarının qarşısını almaq üçün Hindistanın qərb sahillərində yerləşən Diu şəhərinin müsəlman hakimi Malik Ayaz Misir məmlüklərinin köməyi ilə 1508-ci ildə onları məğlub etdilər. Bir ildən sonra portuqallar daha güclü gəmilərlə bura daxil olub ticarət faktoriyaları yaratdılar. Bir neçə Misir gəmisinin köməyi ilə müsəlmanlar Ədəni avropalılardan geri qaytardılar. Bununla da 1839-cu ilə qədər Bab əl Məndəb körfəzini idarə etdilər [22, 8-9].

Beləliklə, Əhəmənilərlə Yunanıstan arasında Peloponnes döyüşündən Romanın məhvinə qədər demək olar ki, min il; Roma imperiyasının məhvindən portuqalların Hind okeanında ticarət faktoriyalarına qədər yenə min il vaxt lazım olmuşdu. Demək, Böyük coğrafi kəşflərin tarixi XV-XVI əsrlər deyil, ondan 2000 il öncə şərqlilər tərəfindən həyata keçirilmişdi.

## ƏDƏBİYYAT

1. Aubert E. The Phoenicians and the West. Cambridge: Cambridge University Press, 2001, p. 44-45.

2. Deltev Elmer’s The beginnings of Boatbuilding in Central Europe-in The earliest Ships. Annapolis, MD, Naval Institute Press, 1996, p.10, 11, 20.

3. Donald Kagan. The Peloponnesian War . New York-Vikinq, 2003, p.8-9.

4. Carol A.Redmount. The Wadi Tumilat and the Canal of the Pharaonhs-Journal of Near Eastern Studiens, 54:2, aprel, 1995, p.127-135.

5. Cann J.R. ,and Colin Rentrew/Obsidian and the Origins of Tarde-Scienific American, 218, march,1968, p.38-46.
6. Christopher Edens. Dynamics of Tarde in the Ancient Mesopotamian World system-American Antropolojist, 94 (March,1989). P.118-127.
7. Craword H. E. Mesopotamia s Invisible Export in the Third Millennium BC-World Arxiology, 5 October, 1973, p. 232-242.
8. Gil J. Steyn. Rethinking World Systems. Tucson: University of Arizona press, 1999), p. 83-84, 88.
9. Raymond Robert. Out of the Fiery Furnace. University park: Pennsylvania Stat, University Press 1968, p. 1-18.
10. Joseph Rabino. The statistical Story of the Suez Canal-Journal of the Royal Staistical Society, 50:3, septembr, 1987, p.497-498.
11. Sübhi Y.Labib. Capitalizm in Medieval İslam- The Journal of Ekonomic History, 21:1, march 1969, p.92-93.
12. Saunders J.J.The history of Medieval İslam. (New York: Barnes and Noble, 1965), p. 47.
13. Tulcote R.F. A History of Metallurgy. London: metals Society, 1976, p.11.
15. Moraes P.F. Fairest. Silent Trade: Mouth and Historical Evidence-History in Africa, № 1, 1974, p.9-24.
16. Ellen Churchill Simple. Geographic Factors in the Ancient Mediterranean Grain trade- Annals of Association of American Geographers, 11,1992, p.47-48, 54.
17. Yacqueletta Hawkes. The First Great Civilizasions : Life in Mesopotamia,the indus Valley and Egypt ( New York), Knopf,1973, p.110-111,138-139.
18. Oppenheim A.L. The Seafaring Merchants of Ur- Journal of the American Trientol Society.74 :1,(yanvary-march 1954), p.10-11.
19. James D. Muhly. Sources of Tin and the Beginnings of Bronze Metallurgy.-American Journal of Archaeology. 89 ( April 1985), p.276.
20. Warmington E.H. The Commerse betwen the Roman Empire and India (New Dehli: Manshriaram and Manoharlal, 1995). P.147-165,174-175.
21. Lan Carapace review of Roman coins from India – (Paula J.Turner in the classical , rewiew, 41, yanvary,1991), p. 264-265.
22. George F.Hourani and John Carswell. Arab seafaring (Prinston,7: Prinston University Press) , 1995,p.8-9.
23. Marshall G.S. Hodgson. The Venture of islam ( Çikaqo: University of Çikaqo Press, 1974). 1:152, p.390-40.
24. Геродот. История. IV том. Пер. Г.А. Стратановского.

**UOT 159.9**

# AİLƏ MÜNASİBƏTLƏRİNƏ TELEVİZİYA VƏ İNTERNETIN TƏSİRİNİN ÖYRƏNİLMƏSİNDƏ ETNOMƏDƏNİ AMİLLƏRİN NƏZƏRƏ ALINMASI

***Əli İbrahimbəyli***
*Bakı Slavyan Universiteti*
*ibrahimbeyli63@gmail.com*

**Açar sözlər:** *münasibət, ailədaxili münasibətlər, münasibətlərə KİV-in təsiri, etnik xüsusiyyətlər, münasibətlərin etnopsixologiyası, ailə münasibətlərinin subyektləri, gənclik yaşı, valideyn-övlad münasibətləri, tərbiyədə cinsi fərqlər*

Araşdırmalar göstərir ki, nəinki valideynlər, məktəbəqədər yaşlı uşaqlardan başlayaraq övladlar da ailədə kütləvi informasiya vasitələrinin, xüsusilə internet və televiziyanın istifadəçilərinə çevriliblər. Öz təcrübəmizdən də görürük ki, gənc ana ev işləri ilə məşğul olarkən 1-2 yaşlı körpəni televiziyanın qarşısındakı manejə oturdaraq onu zorən "tamaşaçı" edir. Bağça yaşlı uşaq evdə vaxtının bir hissəsini, ya cizgi filiminə və reklamlara baxmaqla, ya da mobil telefonda, planşetdə müxtəlif oyunlar oynamaqla keçirir. Kiçikyaşlı məktəbli öz maraqlarına görə proqramlar izləyir, kompüter oyunları oynayır. Yeniyetmə və gənc evdə olarkən vaxtını daha çox virtual aləmdə olmağa, yaxud televiziyaya baxmağa, internetdə nələrisə axtarmağa sərf edir. Belə olduğu halda yeni bir problemin - ailə münasibətlərinə internet və televiziyanın təsirinin öyrənilməsinə zərurət yaranır.

İlk görünüşdə maraqlı olduğu qədər də sadə görünən bu mövzu bir sıra məsələləri əhatə etdiyindən məqalədə məhz bu göstərilənlərə münasibət əksini tapmışdır.

## ПРЕДУСМОТРЕНИЕ ЭТНОКУЛЬТУРНЫХ ФАКТОРОВ В ИЗУЧЕНИИ ВЛИЯНИЯ ТЕЛЕВИДЕНИЯ И ИНТЕРНЕТА НА СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ

***Али Ибрагимбейли***

**Ключевые слова:** *отношения, семейные отношения, влияние СМИ на отношения, этнические особенности, этнопсихология отношений,*

*субъекты семейных отношений, молодежный возраст, отношения между родителями и детьми, гендерные различия в воспитании.*

В статье рассматривается влияние телевидения и Интернета на вопросы формирования семейных отношений. Упоминается, что существуют субъекты семейных отношений. В этой связи сначала определяются члены семьи, которые будут рассмотрены. После этого изучаются этнокультурные особенности семейных отношений. Характер и характеристики семейных отношений уточняются по возрасту и полу.

Изучение влияния Интернета и телевидения на внутрисемейные отношения также подчеркивается как один из ключевых вопросов в этой статье. Этот аргумент основан на том факте, что почти каждый день члены семьи получают информацию, с различными программами, о событиях в других семьях, а также о конкретных семейных отношениях, конфликтах, убийствах, взаимных обвинениях, судебных делах и т. д. Это, конечно, определяет конкретные следы в семейных отношениях. Поэтому родители должны учитывать влияние телевидения и Интернета на их отношения со своими детьми даже в раннем возрасте.

## PROVISION OF ETHNO CULTURAL FACTORS IN STUDYING THE INFLUENCE OF TELEVISION AND THE INTERNET ON FAMILY RELATIONS

***Ali Ibrahimbeyli***

**Key words:** *attitudes, intra-family relationships, media influence on relationships, ethnic attributes, ethno psychology of relationships, subjects of family relationships, youth age, parent-child relations, gender differences in education.*

The article deals with the television and the Internet impact on the issues of the formation family relationships. It is mentioned that there are subjects of family relationships. In this regard, the family members who will be examined are determined firstly. After that, the ethnocultural features of the family relationships are studied. The nature and characteristics of family relationships are clarified by age and gender.

Studying the impact of the Internet and television on intra-family relationships is also highlighted as one of the key issues in the article. This argument is based on the fact that, almost every day family members get informed, with various programs, about events in other families, along with specific family

relationships, conflicts, murders, mutual accusations, court cases and so on. This, of course, sets out specific traces in family relationships. Therefore, parents should take into account the impact of television and the Internet on their relationship with their children even at the early ages.

Sosial elmlərdə ailə, onun pedaqogikası, psixologiyası və sosiologiyası haqqında çox sözlər deyilib, əsərlər yazılıb, araşdırmalar aparılıb. Ancaq ailəni, onun üzvlərini maraqlandıran, narahat edən məsələlərin həlli bitmir ki, bitmir. Əksinə, zaman dəyişdikcə, əsrlər yeniləşdikcə mövcud tarixi inkişaf dövrünün xarakterinə uyğun olaraq yeni problemlər meydana çıxır. Beləliklə, ailə və onunla bağlı olanlar yeniləşir, müasirləşir. Hazırda ailələr qloballaşma dövrünün tələbləri, normaları və ziddiyyətləri ilə üz-üzə qalıb. Bu ziddiyyətləri yaradan amillərdən biri də kütləvi informasiya vasitələrinin ailə münasibətlərinə təsiridir.

Həqiqətən də, nəinki valideynlər, məktəbəqədər yaşlı uşaqlardan başlayaraq övladlar da ailədə kütləvi informasiya vasitələrinin, xüsusilə internet və televiziyanın istifadəçilərinə çevriliblər. Öz təcrübəmizdən də görürük ki, gənc ana ev işləri ilə məşğul olarkən 1-2 yaşlı körpəni televiziyanın qarşısındakı manejə oturdaraq onu zorən “tamaşaçı” edir. Bağça yaşlı uşaq evdə vaxtının bir hissəsini, ya cizgi filiminə və reklamlara baxmaqla, ya da mobil telefonda, planşetdə müxtəlif oyunlar oynamaqla keçirir. Kiçikyaşlı məktəbli öz maraqlarına görə proqramlar izləyir, kompüter oyunları oynayır. Yeniyetmə və gənc evdə olarkən vaxtını daha çox virtual aləmdə olmağa, yaxud televiziyaya baxmağa, internetdə nələrisə axtarmağa sərf edir. Belə olduğu halda yeni bir problemin - ailə münasibətlərinə internet və televiziyanın təsirinin öyrənilməsinə zərurət yaranır. Ona görə də məhz bu mövzuda tədqiqat aparmağı qarşımıza məqsəd qoyduq.

İlk görünüşdə maraqlı olduğu qədər də sadə görünən bu mövzu, əslində bir sıra məsələləri əhatə edir.

1. Ailə münasibətlərinin subyektləri. Əvvəlcə tədqiqatın hansı ailələrdə aparılacağı, hansı ailə üzvlərinin tədqiqat subyekti olacağı, ailə qrupunun yaş səviyyəsi və digər sosial göstəriciləri, ailə üzvlərindən kimlərin sınanılan qismində tədqiqata cəlb ediləcəyi müəyyənləşdirilməlidir. Ə.Ə.Əlizadə bildirir ki, “ailə münasibətlərinin kökünü ər-arvad təşkil edir. Onlar ailənin qoşa qanadlarıdırlar. Keçmişdə də belə olub, indi də belədir. Ər-arvad “ailə” adlı dramın əsas rolları, başqa sözlə, baş qəhrəmanlarıdır. Ailənin bütün həyatı onların qarşılıqlı münasibətləri ilə isinir. Hər bir mədəniyyətdə bu münasibətlər etnopsixoloji ölçülərlə əmələ gəlib və inkişaf edir.” (1, 195).

Ə.Ə.Əlizadə ailə subyektləri ilə bağlı fikrini belə davam edir ki, “Azərbaycan ailəsinin episentri uşaqlarla qaynaqlanır. Elə ki, uşaqlar doğulur,

ər-arvad münasibətləri modifikasiya olunur və bənzərsiz əhəmiyyət kəsb edir. Rollar ikiləşir. Arvad-ana və ər-ata rollarını ifa edirlər. Onların gündəlik ünsiyyət təcrübəsində ata-ana münasibətləri prioritet sahəyə çevrilir: bu kökdə də valideyn-övlad münasibətləri aktualalşır və ailə həyatıın istiqamətini bilavasitə müəyyənləşdirir" (1, 196).

2. Ailədaxili münasibətlərin etnomədəni xüsusiyyətləri. Mövzu respublika mühitində araşdırılacağına görə ona mədəni aspektdə yanaşmaq, ailə üzvlərinin münasibətlərinin səciyyəvi xüsusiyyətlərini yaşa və cinslərə görə aydınlaşdırmaq lazım gəlir. R.İ.Əliyev ailə münasibətləri sahəsində aparılan tədqiqatlara etnopsixoloji yanaşmanın vacibliyini belə əsaslandırır. "Etnopsixologiya bir elm sahəsi kimi uzun illərdir ki, kəskin diskussiya, mübahisə, bir-birinə zidd fikirlərin obyekti olmuşdur. Bir tərəfdən, hətta iki qonşu xalqın emosiya və xarakterində fərqli cəhətlərin olduğu, onun ayrıca öyrənilməsinin zəruriliyi qeyd edilirsə, digər qrup alimlər sübut edirlər ki, psixologiya psixi prosesləri, şəxsiyyəti, başqa sözlə, ayrıca götürülmüş insanı öyrənir və bu baxımdan kollektivin öyrənilməsi mümkün deyildir. Xalqların emosiya və davranışının təzahürü, reaksiya və s. fərqləri ilə üzləşən, empirik faktlara istinad edən etnopsixoloqlar belə fərqli xüsusiyyətlərin nə ilə bağlı olduğu sualı ilə qarşılaşırlar" (2, 18).

Tədqiatçı fikrini həm də bununla əsaslandırır ki, "milli adət və ənənələrin qorunduğu, milli zəminə əsaslanan ailələr daha sağlam və ayrılmaz olur" (2, 19).

3. Ailədaxili münasibətlərə internet və televiziyanın təsiri. Ailə sübyektlərinə internet və televiziyanın təsirinin xüsusiyyətləri öyrənilməlidir. Bu ona görə vacibdir ki, ailə üzvləri, demək olar hər gün müxtəlif verilişlər və informasiyalar vasitəsi ilə digər ailələrdə baş verən hadisələr, ailə münasibətlərinin xüsusiyyətləri, yaxşı nümunələri ilə yanaşı, məsələn, münaqişələr, qətllər, qarşılıqlı ittihamlar, məhkəmə işləri və s. haqqında məlumatlar alırlar. Bu da, sözsüz ki, ailə münasibətlərində özünəməxsus izlər qoyur. B.S.Ağayeva göstərir ki, "KİV son 20 ildə yeni milli mədəniyyət qurucularının baş arxitektor rolunu icra edir. Yeni mədəniyyət isə KİV tərəfindən "köhnə mədəniyyət"in bünövrəsində deyil, ondan "kənarda" tikilir. Hazırda amorallıq müasir cəmiyyətin ana xətti kimi qəbul olunur və KİV bu cəmiyyətin formalaşması üçün heç nə əsirgəməyib" (3, 223).

Qeyd etdiklərimizdən aydın olur ki, biz əvvəlcə münasibət və onun ailədə necə qurulması ilə tanış olmalı, ailə subyetlərini münasibətlər sistemindəki yerini aydınlaşdırmalıyıq. Ona görə də ilk növbədə tədqiqatda iştirak edəcək sınanılanları müəyyənləşdirmək lazım gəlir.

Tədqiqata başlamazdan əvvəl Azərbaycan psixologiyasında aparılmış tədqiqatları nəzərdən keçirdik. Aydın oldu ki, bu tədqiqatlarda daha çox araşdırılan yaş dövrləri uşaq və yeniyetməlik yaşıdır. Gənclik yaşının tədqiqində isə daha çox tələbələr əhatə olunur. Ona görə də burada daha çox ailələrdəki gənclik yaşında olan övladların ailə münasibətləri sistemindəki rolunu öyrənməyi məqsədəuyğun hesab etdik. O halda, biz valideyn olaraq orta yaşlı (35-50 yaş) nəslin nümayəndələri ilə iş aparmalı oluruq.

Beləliklə, problemi aşağıdakı ardıcıllıqla nəzərdən keçirmək daha səmərəlidir:

a) münasibət və ailədaxili münasibətlər;

b) gənclərin yaş və cinsi xüsusiyyətləri;

c) gənclərin ailə üzvləri (valideynlərlə) ilə münasibətlərinin xüsusiyyətləri;

d) ailədaxili münasibətlərə (valideynlərin 17-21, yəni gənclik yaşında olan övladlarla münasibətlərinə) internet və televiziyanın təsiri.

Məlumdur ki, hər bir şəxsiyyətin qiyməti, dəyəri, cəmiyyətdə qazandığı hörməti və tutduğu mövqeyi onu əhatə edən, ünsiyyətdə olduğu insanlarla, o cümlədən ailə üzvləri ilə qarşılıqlı münasibətlərinə görə qiymətləndirilir. “Münasibətlər şəxsiyyətin nəyəsə qarşı emosional-iradi yönümü, yəni mövqeyinin ifadəsidir: müxtəlifobyektlərin, yaxud həmin obyektin fikrən qarşılaşdırılması, müqayisəsidir” (4, 628).

V.N.Myasişev münasibətlərin psixoloji xarakterini belə səciyyələndirir: “İnsanın inkişaf etmiş formada psixoloji münasibətləri obyektiv gerçəkliyin ən müxtəlif sahələri ilə şəxsiyyətin fərdi, seçici, şüurlu əlaqələrinin bütöv sistemini nümayiş etdirir. Münasibətlər insanı obyektlərin daha çox zahiri tərəfləri ilə deyil, bütövlükdə özü ilə əlaqədə saxlayır” (5, 111).

Münasibətlər sistemində hiss və emosiyalar, tələbatlar, maraqlar, qiymətləndirmə, inam və ideallar xüsusi yer tutur. Bu amillərə insanın yaşadığı regionun, mənsub olduğu millətin xüsusiyyətlərini, iqlim şəraitini, iqtisadiyyatı da əlavə etdikdə bütöv bir struktur yaranır. Məişətdən başlayaraq ideal münasibətlərə qədər insanın ətraf aləmlə əlaqəsində bu amillərin rolu tədqiqatçılar tərəfindən xüsusi olaraq vurğulanır. Ona görə də münasibətlərin psixoloji parametrlərini regionun, millətin özünəməxsus xüsusiyyətlərinə görə öyrənilməsi aktual məsələ kimi qəbul edilir. Bu tələb ailə münasibətlərinə də aiddir. Çünki, ailə kiçik cəmiyyət hesab olunduğundan özündə mövcud mədəniyyətin xüsusiyyətlərini əks etdirir.

Bəs gərəsən ailələrdə övladlarla (tədqiqatımızda gənc oğlan və qızlarla) qarşılıqlı münasibətlər necə qurulur?

Bir çox müəlliflər (İ.S.Kon, Ə.Ə.Əlizadə, R.İ.Əliyev və b.) göstərirlər ki, valideynlər övladlara cinsi mənsubiyyətindən asılı olaraq fərqli münasibət bəsləyirlər. Uşaqların tərbiyəsi iki ölçülüdür: oğlan və qız tərbiyəsi ailədə

şaxələnir və özünəməxsus endopsixoloji məziyyətlər kəsb edir. R.İ.Əliyev yazır: "Dünyaya gələcək uşağın oğlan və ya qız olacağından asılı olaraq valideynlər ona müəyyən münasibətini müəyyənləşdirir, onun tərbiyəsi ilə necə məşğul olacağını təsəvvür edir, elə bil ki, buna hazırlaşır. Valideynlərin oğlan və qız barədə müxtəlif arzu, istək, fikir, münasibətləri və qayğıları uşaqların tərbiyəsi prosesində bütün dolğunluğu ilə əks olunur. Ata və ana istər - istəməz oğlanların tərbiyəsi ilə bir cür, qızların tərbiyəsi ilə başqa cür məşğul olur. Onlara birbaşa və ya dolayısı ilə müxtəlif keyfiyyətlər, cinsi mənsubiyyət hissi aşılayırlar" (6, 101).

Tədqiqatlar göstərir ki, İ.S.Kon (7), L.B.Şneyder (8), Ə.S.Bayramov (9), Ə.Ə.Əlizadə (1) və b. ailədə müxtəlif yaşlardan olan övladların, o cümlədən yeniyetmə və gənclərin valideynlərlə qarşılıqlı münasibətlərinin əlverişli ünsiyyət çərçivəsində, əxlaqi dəyərlərə və sosial normalara istinad edilməklə tənzimləndiyini bildirirlər. Ailədəki qarşılıqlı münasibətlər ailənin ümumi maraqlarına, adət-ənənələrə, stereotiplərə, arxetiplərə əsaslanır.

Ə.S.Bayramov Azərbaycanın soykökünü təşkil edən oğuzların ailə münasibətləri, evlənmə, olan və qız tərbiyəsi, onların valideynlərlə münasibətlərini təhlil edərək bir sıra etnopsixoloji məsələləri ümumiləşdirir: "Oğuzların evlənmə adət-ənənələri çox zəngindir. Qadın-kişi münasibətləri qarşılıqlı ehtirama əsaslanır. Qadın öz ərinin yardımçısı, mənəvi dayağıdır" (7, 121).

Məlumdur ki, ənənəvi mədəniyyətdə ailədə ər-arvad münasibətləri uzun əsrlər boyu bərqərar olmuş ənənələrlə müəyyən edilirdi. Milli ənənələrə, qayda - qanuna görə nigah bağlananda ər qeyd-şərtsiz ailə başçısı olurdu. Qadın onu ailə başçısı kimi qəbul edirdi. Uşaqlar da atanın qərarları ilə hərəkət edirdilər. Ata vasitəsi ilə dünyanı, insan münasibətlərini və özlərini dərk edir, şəxsiyyət kimi formalaşırdılar. Atanın timsalında anaya, qadına, qıza hörmət etməyi öyrənirdilər. Kiçik yaşlardan başlayaraq atalar oğlanları, analar qızları ailə həyatına hazırlayır, onlarda ailə başçısı və ya ailə-məişəti üçün səciyyəvi keyfiyyətlər tərbiyə edirdilər.

Hazırda da bu qaydaların bir çoxu qorunur, ancaq, təbiidir ki, yeni ənənələr də var. İlk gənclik dövründə övladların valideynlərlə münasibətlərində ciddi dəyişmələr baş verir, yeniyetməlik dövrünə bənzəməyən yeni müstəviyə keçir. Onların valideynlərlə münasibətləri özünəməxsus məzmunu bacı və qardaşlarınkından fərqlənir. Burada diqqəti cəlb edən əsas məsələ münasibətlərdə gəncin valideyn tərəfindən artıq bərabərhüquqlu tərəfmüqabil kimi qəbul olunmağa başlamasıdır. Bu münasibətlərdə müstəqillik, təşəbbüskarlıq, fərdilik və seçicilik özünü göstərir. Onun nəticələri övladın həyata hazırlanması, peşəyə yönəlməsi, özünüreallaşdırma bacarığına yiyələnməsi kimi həyati əhəmiyyətli məsələlərə yönəlir.

Digər tərəfdən gənclik dövründə onların ailə üzvləri ilə qarşılıqlı münasibətlərinin dəyişməsinə təsir edən amillərdən biri cinsi yetişkənliyin başa

çatması, kişi və qadın rollarına xas olan davranış, münasibət, ünsiyyət normalarının bərqərar olmasıdır. Onlar üçün əvvəlki dövrdə yeniyetməyə xas olan çılğınlıq və canıfəşanlıqla özünüaxtarış, özünütəsdiqetmə, başqalarına qəbul etdirmə tələbatı artıq əhəmiyyətini itirir. Məhz bu dəyişikliklər onlarda özləri haqqında yaşlı adam təsəvvürlərinin formalaşması üçün obyektiv şərait yaradır. Bu andan etibarən hər bir gənc öz səviyyəsinə uyğun olaraq uşaqlıq aləmindən uzaqlaşaraq yaşlılar aləminə qovuşmaq üçün ciddi addımlar atır. Yaşlılar üçün səciyyəvi olan fizioqnomik maskadan istifadə etməyə başlayır. Saçında, paltarında kişiyə və qadına, eləcə də öz üslubuna, zövqünə xas olan görünüşə üstünlük verir.

O.Y.Drozdov (10), D.Lemiş (11), N.A.Matveyeva (12), V.A.Mişenko (13) və b. tərəfindən müəyyən edilmişdir ki, ailədə mənəvi əlaqələrin və ünsiyyətin pozulması şəraitində gənclərin münasibətlərinə KİV-in təsiri artır. Bu şəraitdə gənclərin ünsiyyət tələbatının təmin edilməsində kənar informasiyalara tələbat yaranır. Gənclər, xüsusilə oğlanlar özlərinin ünsiyyət tələbatını virtual aləmdə təmin etməyə başlayırlar. Psixoloqların hesablamalarına görə, müasir dövrdə gənclərin təxminən 80 %-i özünün asudə vaxtını mobil şəbəkədə keçirir. Çoxcəhətli ünsiyyət tələbatının təmin etməkdən ötrü məhz ailədən kənarda özünə həm dərd, tərəfkeş, yoldaş və dost axtarmağa məcbur olaraq virtual ünsiyyətdə rahatlıq tapırlar. Özünü müxtəlif yaşlı dostları və yoldaşları içərisində xoşbəxt, rahat, qəbulolunan hesab edirlər. Virtual dostlar gəncin referent qrupuna çevrilir. Bu zaman gəncin ünsiyyət tələbatının təmin edilməsində virtual qruplar əsas rol oynayır. Bu, sadəcə olaraq ailənin virtual qrupla əvəz olunması deyildir. Əsas məsələ ondan ibarətdir ki, ailəyə nisbətən internet gəncin ünsiyyət tələbatının təmin edilməsini başlıca vasitəsinə çevrilir. Bütün bunlar gənclərin valideynlərlə qarşılıqlı münasibətlərinin real vəziyyətini öyrənərək optimal yollar tapma zərurəti yaradır.

Gənclik dövründə ailə münasibətlərinin fərqli təzahürləri ailə tərbiyəsinin, gənclərin ailə haqqında təsəvvürlərinin hansı səviyyədə olmasından çox asılıdır. Əksər müasir ailələrdə övladlar çox əzizlənirlər. Bu özünü müxtəlif formalarda göstərir: əmək qayğılarından azad edilir, hamı onun canına and içir, hər sözünə əməl olunur, bərkə - boşa salınmır, adi çətinliklərini ata və ya ana həll edir. Nəticədə onun həyati problemlərdən xəbəri olmur.

Bəzi ailələrdə gənclərin belə əzizlənməsi, hər cür tələblərinə əməl edilməsi, yanlış hərəkətlərinin bağışlanması, güzəştə gedilməsi, istək və tələbatlarına sərbəstlik verilməsi pis nəticələnir: təhsildən yayınır, siqaret çəkir, narkotika qəbul edir, içki içir, əxlaqsızlıq edir, yaşlılara məxsus azarkeş oyunlara, cinayətkar küçə qruplarına qoşulur, evə gec gəlir, yaxud gəlmir və s.

Bir çox ailələrdə isə, əksinə, gənclik yaşında belə övladlara hədsiz tələbkarlıq göstərilir. Tədqiqatçıların (Kon, Myasişev, Şneyder və b.) fikrincə, gənclərdə ailələri haqqında “biz” təsəvvürləri çox ciddi dəyişmələrə uğrayır.

Məsələn, övlad görür ki, müxtəlif demoqrafik amillər səbəbindən valideynlər onun zəruri ehtiyaclarını ödəməkdə çətinlik çəkir, təhsili qayğısına qala bilmir, gələcəyi üçün heç bir hazırlıq görmür və s.

Ailəsində ona qarşı biganə və səriştəsiz münasibətin xarakterindən asılı olaraq gənclər özünə inamın itməsinə səbəb olan hallarla qarşılaşırlar. Belə münasibətdən nəticə çıxaran gənc özünə və başqalarına, eləcə də sosial situasiyaya münasibətdə barışmazlıq və aqressivlik nümayiş etdirə bilər. Əksər hallarda, belə vəziyyət gələcəyə ümüdsüzlük, özünütəşkiletmədə və özünüreallaşdırmada ciddi maneələr yaradır.

Bəzi ailələrdə isə gənclər qaydaları pozduqda, onun "yaşına-başına" əhəmiyyət verilmədən təhdid, tənqid edilir, hədələnir, sıxışdırılır, yerli-yersiz cəzalandırılır. Bir çox hallarda cəzanın ədalətli olmasına fikir verilmir və o müstəsna dərəcədə sərt olur, hətta, qorxudulur. Bu, əksər hallarda ailədə övlad-valideyn münaqişəsinin əsasını qoyur. Valideyn övladın "gözündən düşür", artıq özünün müqəddəslik nüfuzunu itirir. Təcrübə göstərir ki, ailədə fiziki cəzaya məruz qalan gənc daha zərərli hərəkətlər edir, valideynlərlə öcəşir, bilərəkdən durumu daha da ağırlaşdırır.

Halbuki, psixoloji tədqiqatların nəticələrinə görə, artıq gənclik dövründə insan özünün şəxsiyyətini yüksək qiymətləndirir. Öz ləyaqət və şərəflərini bütün aydınlığı ilə başa düşür, başqalarından özünə qarşı hörmətlə yanaşılmasını gözləyir. Buna görə də ailə münasibətlərində gənclərlə əlaqələrə diqqətlə yanaşmaq lazımdır. Onları təhqir etmək, söymək, döymək olmaz. Belə münasibət onların ləyaqətini alçaltmaq, özünüqiymətləndirməsini ləkələyir, zəiflədir, mənəvi sıxıntlarını artırır.

Ancaq bu heç də gənc övladların qətiyyən cəzalandırılmaması anlamına gəlmir. Onlar bəzən elə yanlış hərəkətlər edirlər ki, cəzalandırmadan bağışlamaq da olmur. Cəzanın müxtəlif növləri vardır. Onların bir çoxundan ailə tərbiyəsində bu və ya digər dərəcədə istifadə olunur, lakin bu zaman cəza məqsəd deyil, vasitə olmalıdır. Tələbkarlıq gənclərin şəxsiyyətinə və ləyaqətinə təzyiq kimi deyil, ona etibar və hörmət zəminində tətbiq edilməlidir.

Gənclərin ailə münasibətlərinə valideynlər arasındakı münasibətlərin də mühüm təsiri var. Hələ uşaqlıq dövründən başlayaraq o, valideynlərin münasibətlərini müşahidə edir, şəxsi nümunə kimi bəzilərini öz davranışına köçürür. Bütün bunlar, gənclərdə kişi və qadın münasibətləri haqqında təsəvvürlərin formalaşmasına təsir göstərir. Nəticədə hər bir gənc öz valideynlərinin rəftar və münasibətlərinin, davranışının transformatoru funksiyasını icra etmiş olur.

Bundan başqa, əlverişli valideynlərlə münasibətlərində gənclər bir çox həyati bacarıqlara yiyələnməklə özünü və başqalarını qiymətləndirməyi də öyrənə bilərlər. Ailə münasibətlərində valideynlərdə əxz edilən mədəniyyət, ailədə psixoloji iqlimin nizamlanması, psixoloji uyuşmanın yaradılması, səlahiyyət və hüquqlarda bərabərlikdə gənc övladlara aşılana bilər. Ailədə

gənclərlə qurulan ünsiyyət, psixoloji yaxınlıq onların həyatda uğur qazanmalarına, özünəhörmət hissinə təkan verər. Əslində, "normal" hesab etdiyimiz ailələrdə hər şey bu axarda baş verir.

Nəticə etibarı ilə, gənclərin münasibət və ünsiyyət mədəniyyətində ailənin mühüm rolu təsdiqlənir. Çünki ailədə uşaq sosial münasibətlərə - ailədaxili münasibətlərə qoşulur, onların vasitəsi ilə insan, dünya, mənəvi sərvətlər haqqında anlayışlara yiyələnir, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Valideynlərin əməyə münasibəti, öz biliyini, istedadını və əməyini ictimai maraqlara həsr etməsi, düzgünlüyü və prinsipiallığı, səmimiliyi, təvazökarlığı gənclərin münasibətlərinə təsir edən mühüm amildir. Təəssüf ki, valideynlərin heç də hamısı bu imkanlardan eyni dərəcədə istifadə edə bilmirlər. Lakin bir cəhət şübhəsizdir: valideynlərlə gənclər arasındakı münasibətlər nə qədər əlverişli olarsa, onların gənclərin şəxsiyyətinə təsiri də bir o qədər möhkəm və səmərəli qurulacaqdır.

Bütün bunlar nəzərə alınaraq ailə münasibətlərinin formalaşmasında valideynlər öz məsuliyyətlərini hiss etməlidirlər. Onlar gənclik yaşında olan övladları ilə münasibətlərini yaşa və cinsinə görə, bərabərhüquqlu qaydada tənzimləməli, mədəni dəyərlərə, adət-ənənlərə hörmətlə yanaşmalı və övladdan da bunu tələb etməli, eyni zamanda onların müasir dövrlə səsləşən maraqlarını, ünsiyyət tələbatını, asudə vaxtını keçirmə tərzini nəzərə almalıdırlar. Burada başlıca məsələlərdən biri də valideynlərin gənc övladlarında internet və televiziya informasiyasından məqsədyönlü şəkildə, yaşına görə yararlanmaq bacarığını inkişaf etdirməkdir.

## ƏDƏBİYYAT


1. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.
2. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları // avtoref. psixol. elm. dokt. Bakı: BDU, 2004, 58 s.
3. Ağayeva B.S. Təhsil prosesində şəxsiyyətin sosiallaşması problemi // Təhsilin sosioloji problemləri, Bakı, TPİ, 2010, s. 187-245
4. Большая энциклопедия. М.: Сов.Энц., 1974, 628 s.
5. Мясищев В.Н. Личность и отношения человека // Проблемы личности: Материалы симпозиума. М.: Сборник работ ЛГУ и НИИ им. Бехтерева, 1969, 342 с.
6. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.
7. Кон И.С. Психология ранней юности. М.: Просвещение, 1989, 225 с.

8. Шнейдер Л.Б. Психология семейных отношений. М.: Владос, 2009, 346 с.

9. Bayramov Ə.S. “Kitabi-Dədə Qorqud” dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı: Nurlan, 2000, 145 s.

10. Дроздов О.Ю. Агрессивное телевидение: социально-психологический анализ феномена // Социологические исследовании, № 8, 2001, с. 62-68

11. Лемиш Д. Влияние телевидения на развитие детей М.: Поколение, 2007, 304 с.

12. Матвеева Н.А. Влияние телевидения на формирование ценностны х ориенаций подростков и пути преодоления его негативных последствий // Научная библиотека, 2010, 254 с.

13. http://dialog.pronko.org/monitoringsmi/news/obraz-semi-v-sredstvah-massovoy-informacii. Мищенко В.А. Образ семьи в средствах массовой информации

14. http: efamily.ru/znaikak.ru/coolreferat.com. Влияние семейных конфликтов на психическое состояние ребенка. Влияние домашнего насилия на психику ребенка

**UOT 376**

# RİNOLALİYANIN ETİOLOGİYASI, PATOGENEZİ VƏ FORMALARI

***Nailə Hüseynova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nailyahuseyn72@gmail.com*

**Açar sözlər:** *rinolaliya, tam yarıqlar, natamam yarıqlar, qapalı rinolaliya, açıq rinolaliya, burun boşluğu, sərt damağ, artikulyasiya aparatı.*

Rinolaliya-nitq aparatının anatomik-fizioloji qüsurları ilə şərtləşən səsin tembrinin və səs tələffüzünün pozulmasıdır. Bu zaman səs tələffüzünün kobud təhrif olunması baş verir, sait və samit səslər burunda səslənir, fonematik proseslər pozulur. Ümumilikdə nitqin leksik, qrammatik inkişafı istiqamətində kənaraçıxmalar özünü göstərir. Bəzi ədəbiyyatlarda rinolaliyaya əvəz olaraq tın-tınlıq-burunda danışma və ya rinofoniya termini işlədilir. Lakin hər iki termin bu nitq pozuntusunun mahiyyətini tam əks etdirmir. Belə ki, birinci halda yəni tın-tınlıq termini rinolaliya zamanı səsin burunda səslənməsini qabardırsa, ikinci halda rinofoniya zamanı yalnız artikulyasiya və akustikanın pozulmasını ön plana çəkir. Rinolaliya zamanı isə bu problemlər ayrı-ayrılıqda deyil birgə özünü göstərir.

## ЭТИОЛОГИЯ, ПАТОГЕНЕЗ И ФОРМЫ РИНОЛАЛИИ

***Наиля Гусейнова***

**Ключевые слова:** *ринолалия, полная расщелина, неполная расщелина, закрытая ринолалия, открытая ринолалия, носовая полость, твердое небо, артикуляционный аппарат, звукопроизношение.*

Ринолалия – это нарушение звукопроизношения и тембра голоса обусловленное анатомо-физиологическими дефектами речевого аппарата. При этом наблюдаются грубые ошибки в звукопроизношении, носовое произношение гласных и согласных звуков, нарушаются фонематические процессы. В общем, ринолалия наблюдается в отклонениях лексико-грамматического направления. В некоторых источниках, ринолалия

заменяется терминами носовая речь или ринофония. Но эти термины не полностью отражают содержание данной патологии. При первом случаи выделяется носовое произношение, а во втором случаи выделяется лишь нарушения артикуляционного и акустического плана. Но при ринолалии же указанные проблемы не наблюдаются в отдельности они проявляются вместе.

## ETIOLOGY, PATHOGENESIS AND FORMS OF RINOLALIA

***Naila Huseynova***

**Key words:** *rinolalia, full craks, incomplete craks, closed rinolalia, open rinolalia, nasal cavity, hard palate, articulation apparatus.*

Rinolalia – is a pathology in which the pronunciation of sounds in particular, and speech in general, is distorted. In generally the qrammatcal and lexis arc of speech is violated.

Rinolalia is named as nasality in some literatures. But both of term are not excude of disorder of essence of the speech. In the first case nasality term is puffed of sound in nose during rinolalia, in the second case pulled of front plan articulation and acustic disorder durinqrinolalia. But durinqrinolalia these problems are not showen separate showen.

Nitq insana məxsus olan ali psixi funksiyadır. Nitq, uşağın bütün psixi həyatında mühüm rol oynayıb, əsas idrak proseslərinin formalaşmasına səbəb olur. Uşağın nitq inkişafında baş verən pozğunluq – onun bütün psixi proseslərinin formalaşmasına çox böyük mənfi təsir göstərə bilər. Bu pozulmalar nəticəsində ətraf mühitlə ünsiyyət yaratma çətinliyi ilə yanaşı, idrak proseslərinin düzgün formalaşmaması, bilik, bacarıq və vərdişlərinin qavranılması kimi ciddi qüsurları, uşağı ən vacib vasitədən məhrum edir, onda davranış dəyişmələri, neqativizm, inamsızlıq yaradır.

Nitq qüsurlarının nitq təsnifatı:

1. Fonetik qüsurlar – səslərin təhrif tələffüzü və ya heç olmaması. Bu qüsurlar dislaliya, dizartriya və rinolaliya kimi diaqnozlaşdırılırlar.

2. Nitqin itirilməsi və ya inkişafdan geri qalması. Bura alaliya və afaziya daxildir.

3. Nitq surətinin, ritminin və səlisliyinin pozulmasına taxılaliya, bradilaliya aiddir.

Tarixən rinolaliyanın öyrənilməsi tarixi XIX əsrin ortalarına qədər gedib çıxır. Bu sahədə aparılan ilkin tədqiqatlar N.İ. Piroqovu, N.V. Voronsovoy, M.İ. Paykin kimi həkimlərə aiddir. Nitq qüsuru kimi istifadə edilən terminologiya dəfələrlə dəyişilmiş, tın-tınlıq, palatolaliya, rinolaliya, rinofoniya olaraq müxtəlif cür adlandırılmışdır.

Rinolaliya-nitq aparatının anatomik-fizioloji qüsurları ilə şərtlənən səsin tembrinin və səs tələffüzünün pozulmasıdır. Bu zaman səs tələffüzünün kobud təhrif olunması baş verir, sait və samit səslər burunda səslənir, fonematik proseslər pozulur. Ümumilikdə nitqin leksik, qrammatik inkişafı istiqamətində kənaraçıxmalar özünü göstərir. Statistikaya əsasən dünya əhalisi arasında hər 760 nəfərdən birində rinolaliya müşahidə edilir. Bəzi müəlliflər rinolaliyanı zamanla dislaliyanın forması kimi təqdim etsələr də, müasir loqopediyada rinolaliya ayrica bir nitq pozuntusu olaraq qəbul edilərək öyrənilir. Bəzi ədəbiyyatlarda rinolaliyaya əvəz olaraq tın-tınlıq-burunda danışma və ya rinofoniya termini işlədilir. Lakin hər iki termin bu nitq pozuntusunun mahiyyətini tam əks etdirmir. Belə ki, birinci halda yəni tın-tınlıq termini rinolaliya zamanı səsi burunda səslənməsini qabardırsa, ikinci halda rinofoniya zamanı yalnız artikulyasiya və akustikanın pozulmasını ön plana çəkir. Rinolaliya zamanı isə bu problemlər ayrı-ayrılıqda deyil birgə özünü göstərir.

Rinolaliyanın 3 forması vardır:

- yaranma vaxtına görə açıq üzvi rinolaliya;
- anadan gəlmə və ya sonradan qazanılma;
- gizli və ya natamam.

Anadan gəlmə açıq rinolaliya yumuşaq və sərt damaq yarıqları olan uşaqlarda rast gəlinir. Həmçinin, üst çənə və üst dodağın alveolyar çıxıntısının yarılması, yumuşaq və sərt damağın gizli yarıqları zamanı da bu əlamətlər olur.

Yarıqlar birtərəfli və ikitərəfli olur. Birtərəflilər daha çox solda (70 %) müşahidə olunur və oğlanlarda qadınlardan daha çox rast gəlinir. 69% oğlanlarda damağın yarığıyla, dodaq yarıqları, 31% isə qadınlarda damağın təcrid edilmiş yarıqları olur. Statistik məlumatlara əsasən, rinolaliya hər 1000 əhalidə 1-2 insanda təsadüf olunur. .

Yuxarı dodağın anadangəlmə qüsurlarına aiddir:

- burun boşluğunun dəri-qığırdaq bölməsinin deformasiyası olmadan yuxarı (üst) dodağın gizli yarığı;
- burun boşluğunun dəri-qığırdaq bölməsinin deformasiyasıyla yuxarı (üst) dodağın gizli yarığı;
- burun boşluğunun dəri-qığırdaq bölməsinin deformasiyası olmadan yuxarı (üst) dodağın natamam yarığı;
- burun boşluğunun dəri-qığırdaq bölməsinin deformasiyasıyla yuxarı (üst) dodağın natamam yarığı;
- burun boşluğunun dəri-qığırdaq bölməsinin deformasiyasıyla yuxarı

(üst) dodağın tam (dolu) yarığı.

Sərt damağın anadangəlmə qüsurlarına aiddir:

- sərt damağın natamam yarığı;
- sərt damağın tam (dolu) yarığı;
- sumbukoz (gizlədilmiş) sərt damaq yarığı

Yumşaq damağın anadangəlmə qüsurlarına aiddir:

- kiçik dil - damaq dilçəyinin ikiyə bölünməsi;
- kiçik dil - damaq dilçəyi yoxluğu;
- submukoz - yumşaq damaq yarığı.

Uşağın danışıq aparatının quruluşunda bütün yuxarıda göstərilən qüsurları qeyd etməmək çətindir. Submukoz yarığın aşkar edilməsi üçün müayinə etmək lazımdır, bu zaman xüsusi diqqəti yumşaq damağıın dal səthinə yönəltmək lazımdır.

Anadangəlmə yarıqların yaranmasının səbəbi kimi hamiləliyin erkən vaxtlarında toksoplazmoz, hamilənin qrip, məxmərək, parotit və digər infeksiyalara yoluxması, pestisid və digər zərərli maddələrin təsiri, alkoqol, narkotik və s. kimi zərərli vərdişlərin olması, stress və endokrin pozulmalar və s. götürülür. Üz yarıqlarının yaranmasının ən təhlükəli dövrü embriogenezin 7-8-ci həftəliyi sayılır.

Göstərmək lazımdır ki, yarıqlar başdan – başa, tam və ya natamam, ikitərəfli və ya birtərəfli sağ və sol tərəfli olurlar. Başdan – başa yarıqlar üst dodaqdan başlayaraq üst çənə, yumşaq və sərt damaq boyunca dilçəyə qədər olan yarıqlardır. Bəzən bu qüsur zamanı hətta dilçəkdə paralanmış olur (bəzən isə dilçək anadangəlmə olmur).

Natamam yarıqlar qısa, yumşaq damaq, dilçəyin ikiyə bölünməsi və ya heç olmaması ilə xarakterizə olunur.

Qapalı rinolaliyanın əmələ gəlməsinin ən başlıca səbəbi hipertrafik zökəm, burun və burun-udlaq toxumalarının burun boşluğu keçidini bağlayan hissəsinin bitişməsidir. Uşaqlarda qapalı rinolaliyanın aradan qaldırılması üçün ən birinci burun və burun udlağın müalicəsini aparmaq lazımdır. Adətən belə uşaqlarda burunda tənəffüs nizama salındıqda nitq normaya düşür [2, 34].

Açıq rinolaliyalı və damaq yarıqlı uşaqlarda-hipertrofiyaya, otit (burun, udlaq, burun-udlaqdan orta qulağa infeksiya keçməsi), yevstax iltihabı (burun, udlağın selikli qişasının iltihabi prosesləri), bronxit, pnevmaniyaya meyilli olurlar. Açıq rinolaliyalı uşaqlarda intellektual inkişaf fərqli olur, normadan-müxtəlif dərəcəli oliqofreniyaya qədər intellektual pozulmalara rast gəlmək olur. Bu uşaqlarda nevroloji hallara (nistaqm-göz almasının qeyri-iradi ardıcıl ritmik hərəkəti, ptoz- yuxarı göz qapağının düşməsi-sallanması, hiperrefleksiya) çox rast gəlinir [3, 4].

Qapalı üzvi rinolaliya hansısa səbəbdən buruna gedən yolun bağlı olmasıyla bağlıdır. Bu zaman samit səslərin tələffüzü xeyli pozulur. Cingiltili

və kar samitlərin tələffüzü zamanı burun boşluğunda xirilti səsləri artır. P, b, d, t, k və q hərfləri anlaşılmaz səslənir, bu isə ağız boşluğundan burun boşluğuna keçərkən hava təzyiqinin lazımi şəkildə yaranmamasıyla bağlıdır. Hava axını ağız boşluğunda çox zəif olduğundan səsin düzgün səslənməsi üçün kifayət etmir.

Rinolaliya zamanı artikulyasiya mexanizmi, avazlanma və səs yaratma burun və ağız-udlaq rezanatorlarının fəaliyyət pozulmaları nəticəsində normadan kənarlaşır.

Damaq-udlaq yumulmasının pozulmasından asılı olaraq rinolaliya 3 əsas formaya ayrılır ki, bunlarda açıq, qapalı və qarışıq formalarıdır.

Qapalı rinolaliya danışıq səslərinin tələffüzü zamanı burun rezonansının fizioloji cəhətdən aşağı olması ilə xarakterizə edilir [1, 92]. Qapalı rinolaliyada tələffüz yalnız ağız vasitəsilə həyata keçirilir. Qapalı rinolaliya burun-udlağın və ya burun boşluğunun qüsurlarının (burun mukoza hipertrofiyası, yumşaq damaq hipertrofiyası, və s.) nəticəsidir.

Qapalı rinolalya zamanı hava burundan çıxmır. Buna səbəb adenoid, polip və s. ola bilər. Normada ən güclü rezonans burunda m, m', n, n' səslərinin tələffüzündə müşahidə olunur. Bu səslərin artikulyasiyası zamanı burun-udlaq yolu açıq qalır və hava axını sərbəst burun boşluğuna daxil olur. Əgər burun rezonansı olmasa həmin səslər ağız, b, b'; d, d' səsləri kimi səslənər [1, 92]. Nitq zamanı yumşaq damaq tələffüz olunan səslərdən və nitqin sürətindən asılı olaraq fasiləsiz qalxır və düşür. Damaq-udlaq sıxılmasının gücü tələffüz olunan səsdən asılı olur. Saitlər üçün samitlərə nisbətən qapanma zəif olur. Saitlərdə burun çalarları o halda əmələ gəlir ki, yumşaq damağın arxa tərəfi ilə udlağın arxa divarı arasında 6 mm-ə qədər boşluq olsun. Ən zəif damaq udlaq qapanması b-samitində, ən güclü s-samitindən müşahidə edilir. Rinolaliya zamanı artikulyar aparatda olan qüsurlar uşağın artikulyasiyasının düzgün keçməsini təşkil etməyə imkan vermir, nitqin yaranmasını mümkünsüz edir.

Qapalı üzvi rinolaliyanın yaranması müxtəlif növ burun boşluğu və ya burun-udlaq sahəsindəki anatomik dəyişikliklərələ əlaqədardır. Qapalı rinolaliya ön və arxa olmaqla iki hissəli olur. Ön qapalı rinolaliya burun çəpərinin əyilməsi, burun polipləri, selikli qişanın hipertrofiyaları, burun boşluğu şişləri ilə bağlı yarana bilir.

Arxa qapalı rinolaliyanın yaranması adenoid, polip, burun-udlaq şişi və s. səbəb olur.

Qapalı funksional rinolaliya burun vasitəsilə hava axınının çıxışına mane olan yumşaq damağın hipertonusu zamanı yaranır. Bu vəziyyət nevroloji pozulmalar, ətrafda burunda danışan birisinin təqlidi zamanı daha da inkişaf edə bilər.

Anadangəlmə dodaq-damaq yarıqlarıyla şərtlənən açıq üzvi rinolaliya zamanı uşaq həyatının ilk çağlarında qidalanma və nəfəsalmada çətinlik çəkir. Uşaq qidalandırılarkən süd burnundan keçir ona görə də körpə lazımi qidalı maddələrin çatışmazlıqlarından bədən kütləsində çox az artımlar müşahidə olunur. Nəfəs alarkən nəfəs burun yollarından keçərkən kifayət qədər bədən temperaturuna uyğunlaşa bilmir, bi isə havanın yarıq vasitəsilə alt tənəffüz yollarına keçərək hərəkət etməsiylə əlaqədardır [4, 109].

Qapalı rinolaliyanın iki forması vardır: üzvi və funksional. Qapalı üzvi rinolaliyada boğaz, burun və burun-udlağın qüsurları olur. Qapalı üzvi rinolaliya zamanı yerindən asılı olaraq qüsurlar fərqləndirilir. Ön üzvi qapalı rinolaliya xroniki zökəmlərə görə burunun selikli qişasının hipertrofiyası, poliplər və burun boşluğunun şişləri nəticəsində burun arakəsməsi əyilməsidir [2, 34].

Arxa üzvi qapalı rinolaliya gənzik, udlağın (boğazın) dal divarıyla yumşaq hissəsinin bitişməsi, udlağın tək badam içinin sahəsində mexaniki maneələrin olmasıdır. Belə uşaqlar üçün daimi ağız və yarıaçıq ağız nəfəsi tipikdir.

Funksional qapalı rinolaliya: yumşaq damaq hiperfunksiyası burun vasitəsilə hava axını yoluna maneə yaradır. Bu forma pozulmayan burun nəfəsi vaxtı yaranır. Yumşaq damağın hiperfunksiyası adenoidlərin silinməsi üzrə əməliyyatın nəticələriylə şərtlənmiş ola bilər, eşitmə kontrolunun çatışmazlıqları, ətrafındakıların burunda danışan nitqinin (danışığının) yamsılanmasına səbəb olur. Bu forma vaxtı səs tutqun, cansız çalara malikdir.

Açıq rinolaliya zamanı ağız və burun boşluğunun arasındakı arakəsmələrin üzvü zədələnməsi nəticəsində səs tələffüzü eyni zamanda həm ağız, həm də burun boşluğunda baş verir, nəticədə səsin tembri dəyişir. Açıq rinolaliya-danışıq zamanı nəfəsdən deyil, burundan çıxır. Açıq rinolaliya anadangəlmə damaq qüsurlarının-yarıqlarının nəticəsidir.

Aparılan tədqiqatlar göstərir ki, damaq yarıqlarının meydana çıxması hamiləliyin 2-3 ayında nitq aparatının periferik hissəsinin embrion mərhələdə inkişafdan qalması səbəbindən baş verir. Rüşeymin inkişafında belə ağır pozulmanın mənşəyi toksoplazmoz, ananın hamiləlik dövründə düzgün qidalanmaması və psixi zədələnmələr hesab edilir. Xarici ölkələrdə bu daha çox irsi qüsur kimi xarakterizə edilir.

Göstərmək lazımdır ki, yarıqlar başdan-başa, tam və ya natamam, birtərəfli və ya ikitərəfli - sağ və sol tərəfli olurlar. Başdan-başqa yarıqlar üst dodaqdan başlayaraq üst çənə, yumşaq və sərt damaq boyunca dilçəyə qədər olan yarıqlardır. Bəzən bu qüsur zamanı hətta dilçək də paralanmış olur.

Açıq rinolaliya zamanı bəzən selikli qişa ilə örtülmüş sərt damağın sümük əsasında da müəyyən qüsurların – submukoz yarıqlarının olması müşahidə edilir. Yumşaq damağın bütün yarıqları eyni zamanda sərt damağın deformasiyasını şərtləndirir. Üst çənə və sərt damaq yarıqları sonralar uşağın

normal dişlərinin formalaşmasına əngəl törədir. Damağın yarıqları zamanı periferik nitq aparatının tələffüz və səs şöbələrində heç bir anatomik pozulma yaratmadığı halda, artikulyasiya şöbəsində kobud dəyişmələrə səbəb olur.

Rinolaliyanın açıq və qapalı formasından başqa, həmçinin qarışıq rinolaliya da vardır. Qarışıq rinolaliya bunların ən çətinidir. Qarışıq rinolaliya vaxtı bütün səslərin artikulyator-akustik xarakteristikaları dəyişir, səsin tembri əhəmiyyətli dərəcədə təhrif olunur. Qarışıq forma vaxtı səsin burun çaları aydın eşidiləndir və burun səsləri yoxdur.

Rinolaliyalı uşaqlarla işləyərkən, ilkin olaraq, səsləri və artikulyar aparatı yoxlamaq lazımdır. Əgər uşaq səsləri buruna verərək danışmağa meyillidirsə, onun burnuna xüsusi loqopedik burun zajemindən qoymaq olar. Bu zajemlər loqopedik məşğələlər üçün nəzərdə tutulub. Uşaq daim otolorinqoloq tərəfindən yoxlanılmalı və müşahidə altında olmalıdır.

## ƏDƏBİYYAT

1.Ağayeva T.H., Əliyeva S.M. Loqopediyanın nəzəri-praktik məsələləri. Bakı, 1999. 188 s.

2.Волосовец Т.В., Е.А. Соболева. Психолого-педагогическая характеристика детей с врожденной расщелиной губы и неба / // Практичская психология и логопедия. 2006. - №2. С.34-37.

3.Воронцова Т. Н. Логопедическая работа с больными открытой ринолалией. Автореф. канд. дис. М., 1966.

4.Захарова Н. П. Роль логопедического обучения в плане комплексного лечения детей с врожденными расщелинами неба. Педиатрия, № 6. 1967, с.97-125.

UOT 94

# ÇİN KONSERVATİZMİNİN TARİXİ VƏ İQTİSADİ TƏSİRLƏRİ

***Qadir Seyidov***
*Cənubi Vestfaliya Universiteti, Almaniya*
*gseyid@gmail.com*

**Açar sözlər:** *Google, Çin, konservatizm, iqtisadiyyat, tarix, inkişaf*

Çin tarix boyu digər ölkələr üçün “zülmət meşə” kimi görünüb. Avropa yeni torpaqların kəşfi və yeni imkanlar yaratmaq axtarışındaykən, Çin özünü təmin edən ölkə kimi görünüb, çünki dünya əhalisinin böyük bir hissəsi orada yaşayır. Tarixə nəzər salsaq, adətən digər ölkələrin Çinlə təmas qurmağa çalışdıqları qənaətinə gəlmək olar, halbuki Çin dünyanın qalan hissəsindən fərqli olaraq konservatizmi üstün tutur. Ümumiyyətlə, Çin hökuməti xarici şirkətlər üçün yeni qanunvericilik aktları ilə "ipləri gərməyə" davam edir. Şübhəsiz ki, “Google” şirkətinin 12 yanvar 2010-cu il tarixli bəyanatı yuxarıda göstərilən məsələlərin nəticəsidir və bu vida Çin hökuməti üçün sürpriz deyildi. Nəzərə alsaq ki, 2020-ciilədək Çinin sürətlə inkişaf edən orta sinfinin xərclərinin 6 trilyon dollara çatması gözlənilir, Qərb şirkətləri indi necə fəaliyyət göstərəcək?

# ИСТОРИЧЕСКИЕ И ЭКОНОМИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ КИТАЙСКОГО КОНСЕРВАТИЗМА

***Гадир Сеидов***

**Ключевые слова:** *Google, Китай, консерватизм, экономика, история, развитие.*

Китай всегда был «темным лесом» для других стран. В то время, как Европа располагала идеей открыть новые земли и новые возможности, Китай всегда казался самодостаточной страной, благодаря наличии в стране подавляющего большинства мирового населения. Если посмотреть на историю, можно сделать вывод, что обычно другие страны стремились наладить контакты с Китаем, в то время как он предпочитал консерватизм, которым всегда отличался от остального мира. В целом, правительство Китая по-прежнему «сужает веревку» для зарубежных компаний новыми и новыми законодательными актами. Предположительно, заявление

Google от 12 января 2010 года было следствием вышеупомянутых вопросов, и прощание Google не являлось сюрпризом для правительства Китая. Как будут действовать западные компании сейчас, поскольку ожидается, что быстро растущий средний класс Китая утроит свои расходы, достигнув к 2020 году 6 триллионов долларов?

## HISTORIC AND ECONOMIC OUTCOMES OF THE CHINESE CONSERVATISM

***Gadir Seyidov***

**Key words:** *Google, China, conservatism, economy, history, development.*

China has always been a ‘dark forest’ for the others. While Europe has always had the main idea of discovering new lands and for new opportunities, China has always seemed to be a self-sufficient nation given to the fact of having the vast majority of the world's population. If we look at the history we can make a conclusion that other countries habitually keened to initiate contacts with China, whilst the latter preferred conservatism philosophy which has always distinguished China from the rest of the world. Overall, the Chinese government still tightens up ropes for foreign companies by new and new legislation acts. Supposedly, the 2010 January 12 statement by Google was a consequence of all the above-mentioned issues and Google’s farewell was not a surprise for China’s government. How will the Western companies act now as China’s rapidly expanding middle class is expected to triple their spending, reaching $6 trillion by 2020?

Çin tarix boyu digər ölkələr üçün “zülmət meşə” kimi görünüb. Dünya əhalisinin böyük bir hissəsinin yaşadığı Çinlə iqtisadi-siyasi əlaqələr əksər hallarda yeni torpaqlar və imkanların axtarışında olan qərb dövlətlərinin ciddi təşəbbüsü ilə yaradılıb. Çin isə ənənəvi konservatizm fəlsəfəsi ilə başqalarından fərqlənib [1]. Bəlkə də elə bu səbəbdən çinlilər öz ölkələrini “Zhong Guo” (“Çin” sözünün mənşəyi) – Mərkəzi İmperiya adlandırıb [2].

Qapalılıq taktikası bu nəhəng ölkə üçün bəzi dövrlərdə müsbət effektlər versə də, bəzilərində mənfi fəsadlarla tarixə keçib. Opium müharibələri ərəfəsində parçalanmaqdan çətinliklə qurtulan Çin, bundan sonra daxili və xarici siyasətdə daha ehtiyatlı addımlar atmağa başlayaraq, diqqətini daxili inkişafa yönəldib.

XX əsrin ikinci yarısında “Mədəni inqilab” illərində Çin artıq dünya əhalisinin ən çox məskunlaşdığı ölkə olmasına baxmayaraq [3], hələ də 80-ci illərədək xarici əlaqələrə qapalı idi. Tezliklə, bazarın sürətlə genişlənməsi iqtisadi sıçrayışa təkan oldu və Çin yenidən dünyanın aparıcı qüvvələrindən birinə çevrildi. Təkcə elə Çinin ən nəhəng dövlətə çevrilmək məramını diqqətə alsaq Qərbin informasiya texnologiyaları firmalarının niyə Çin hökuməti ilə ciddi problemlər yaşadığını anlamaq olar. Amma əvvəlcə beynəlxalq şirkətlərin yerli hakimiyyətin siyasəti ilə qarşıdurmasından başlamaq daha məqsədəuyğundur.

Şübhəsiz, yeni ölkəyə daxil olarkən oranın milli təhlükəsizlik, mədəniyyət, qanunlar, suverenitet və s. kimi məsələlərə ehtiram göstərilməlidir. Bir qayda olaraq, əgər beynəlxalq şirkətin əsas prinsipləri yerli hakimiyyətdə olanlarla ziddiyyət təşkil edirsə, danışıqlara getmək ilk addım olmalıdır. “Güzəşt” və “kompromis” bu danışıqlarda açar sözlərdir. Bu məqamda şirkətin bazar dəyəri, texnologiyası, yaşı və təcrübəsi və digər başlıca məqsədləri ön plana çıxır. Yerli bazarın bu şirkət üçün olan əhəmiyyəti də az rol oynamır. Sual ondadır ki, bu ziddiyyəti aradan qaldırmaq üçün beynəlxalq şirkət və yerli hakimiyyət nələri “qurban verə” və əksinə–nələr onlar üçün vazkeçilməz ola bilər? “Google” axtarış sisteminin Çindəki alternativi olan “Baidu” şirkətinin icraçısı Sun Yunfenqin sözləri ilə desək, “Görəsən, ‘Google’ Çinin axtarış bazarının 80%-nə sahib olsaydı, bu şirkətin rəhbərləri yenə də ‘Pislik etmə!’ şüarına sadiq qalıb, Çini tərk edərdilərmi?” [4].

Bəzən beynəlxalq normalara sığmasa da, demək lazımdır ki, bütün Qərb şirkətlərinin Çində yerli “dublikatları” var: “Google”, “Whatsapp”, “Skype”, “Facebook”, habelə məşhur avtomobil, mobil telefon, bahalı aksessuarlar və s. brendlərin bu ölkədə (gərək fərqli adla rəsmi şirkət kimi) eyni adla gizlicə fəaliyyət göstərənləri var. Hərçənd, inkişaf etdikcə, Çin artıq malların əldəqayırma saxta nüsxələrini çıxaran ölkədən, yüksək keyfiyyətli yeni məhsullar istehsal edən ölkəyə çevrilməkdədir.

Məsələyə başqa prizmadan baxmaq daha yaxşı anlamaq üçün kömək edər. Misal üçün, gənc idman klubları ilkin mərhələdə ən azı bir ulduz oyunçunu heyətlərinə cəlb edirlər. Sonralar, komanda artıq məqsədlərinə çatanda, klubun menecerləri həmin o ulduz oyunçuya ödənilən astronomik rəqəmdən narazılıqlarını gizlətmirlər. Hətta o ulduz oyunçunun müqaviləsi davam etsə belə, klub menecerləri onun özünü klubda narahat hiss etməsi üçün müxtəlif üsullara əl ataraq, nəhayət niyyətlərinə çatırlar.

İqtisadiyyatı sürətlə inkişaf edən ölkələrdə xarici şirkətlər adətən eyni aqibətlə rastlaşır. Bu ölkələrin inkişaf strategiyası xarici şirkətlərə imkan verir ki, bazara daxil olaraq rəqabət mühitini daha yüksək səviyyəyə qaldırsın və yerli şirkətlər bundan bəhrələnsin. Elə ki, yerli şirkətlər xaricilərdən artıq kifayət qədər bəhrələnir, yaxud yerli şirkətlər bazardakı mövqelərini itirməyə

başlayır, hakimiyyət “oyunun qaydalarını dəyişir”. Bu qəbildən, “IBM” şirkətinin rəhbərliyi əvvəlcə dərindən təəccüblənsə də, çinli idarəçilərə öz məlumat bazalarına giriş icazəsi verməyə bir növü məcbur qaldılar. Bu hadisəyə Pekin əsilli internet texnologiyaları firmalarından birinin çinli baş icraçı direktorunun reaksiyası belə olmuşdu: “Nə qədər ki, Çin gəlirli bazardır, bunların hamısı biznes üçündür [keçərlidir]. Oyun mənim, qaydalar mənimdir” [5].




Diaqram 1. Çinin milli gəliri [12]

Tarix təkrarlanır və bənzər vəziyyət “Google” şirkəti ilə əlaqədar müşahidə olunur. 2006-cı ildə Google Çində yerli axtarış sistemini – “Google.cn” portalını istifadəyə verdi. Bu portalın fəaliyyəti dövründə Çinin milli gəliri (Atlas metodu ilə) heyrətamiz 215% artdı (Diaqram 1). Görünür, 2010-cu ilə doğru “Google” Çinə əvvəlki dövrlərə nisbətən daha az gərəkli idi, çünki hökumət mütəmadi olaraq “Google” xidmətlərinə “yeni qanunlar və digər qadağalar” [6] qəbul etməyə başlamışdı.

Yeri gəlmişkən, Çin hökuməti hələ də xarici şirkətlər üçün ipləri gərməyə davam edir. Yeni qanunvericilik aktlarına əsasən, “bütün xarici şirkətlər məlumat bazalarını yoxlanışdan keçirməli və ən əsası, əgər orada Çinə aid məlumatlar varsa, bu məlumatlarla onlar Çini heç vaxt tərk edə bilməzlər” [7]. Bu, o anlama gələ bilər ki, müvafiq icbari yoxlamalar zamanı şirkətlərdən tələb olunacaq ki, onlar açıq proqram kodlarını və şifrələmə açarlarını hökumət nümayəndələrinə təqdim etsinlər. “Hökumət artıq daha çox yerli şirkətlərin dönəminin çatdığını anlamış görünür” – ‘APCO Worldwide in China’ konsultasiya şirkətinin sədri McGregor belə deyir [5].

Ehtimalən, “Google” şirkətinin Çini tərk etməkdən bəhs edən 12 yanvar 2010-cu il tarixli bəyannaməsi yuxarıda qeyd olunan məsələlərin nəticəsi olmaqla, bir neçə gün və ya həftəyə verilmiş qərar deyildi. Çin hökuməti üçün də bu vidalaşma sürpriz deyildi. Çin bazarının gəlirləri baxımından “Google” böyük itki vermədi: 2009-cu ildə bu gəlirlər şirkətin ümumi gəlirlərinin heç 1%-ni keçmirdi [8]. Lakin, Çində fəaliyyət göstərdiyi dövr ərzində bütün dünya bu şirkətin nüfuzunu dəfələrlə sorğuya çəkib. Kimləri onu Çin hökumətinin

insan hüquqlarını pozmasında yardımçı olduğunu, kimləri onun ABŞ təhlükəsizlik orqanlarına məlumat sızdırdığını və s. ittihamlar irəli sürməklə, şirkətin öz əqidəsindən döndüyünü iddia edirdilər. Beləliklə, “Google” Honq-Konqa köçməklə (başqa sözlə, Çini tərk etməklə) ilk növbədə öz nüfuzunu xilas etmiş və Çindəki senzura siyasətini tənqid etmiş oldu.

Təbii ki, bu gedişdən ən çox zərər görən çinli alimlər oldu. İndi isə məhz bu fakt şirkətin Çinə qayıtmasında körpü rolunu oynaya bilər, çünki yerli hökumət hazırda danışıqlar aparır ki, “Google” şirkətinin elmi sektoru geri qayıtsın. Bu haqda Milli Xalq Konqresinin komitə üzvü Liu Binjie deyib [9]. “Çinin məqsədi, xəbərlər, informasiya və siyasətin əvəzinə, elmi inkişafa köklənib... Hüquqşünasın sözlərinə görə, danışıqların mövzusu olan ‘Google’ şirkətinin digər funksiyaları sırasına ‘siyasi cəhətdən həssas məlumatları əhatə etməyən xidmətlər’ də daxildir.” [10].

Yenə də, “Google” üçün Çinə qayıtmaq o qədər də asan olmayacaq kimi görünür. Çinin axtarış sistemləri bazarında yerli hegemon “Baidu” və “Google” arasında pay nisbəti 2017-ci ilin oktyabr ayında 83% və 1% təşkil edib, halbuki 2009-cu ilin dekabr ayında, yəni yuxarıda qeyd olunan 12 yanvar bəyannaməsindən öncəki ay, bu göstəricilər müvafiq olaraq 55% və 43% idi (Diaqram 2).

Çinin danışıqlar üçün çox da asan olmayan dövlət olduğu tarixlə sübut olunsa da, hərçənd üfüqdə yeni ssenarilərin ortaya çıxacağı istisna deyil. “Google” isə hələ də bütün digər qərbi şirkətlər kimi, Çində maraqlıdır. Bunun iqtisadi səbəbləri sadədir: Çin inkişaf etdikcə, onun genişlənən orta sinif əhalisinin xərclərinin 2020-ci ildə 3 dəfə artaraq, 6 trilyon ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır [11].

Qərb şirkətlərinin Çin bazarında şanslarını və bu ölkənin onlar üçün yaratdığı çətinliklərin səbəblərini təhlil etmək üçün yenə də əvvəldə qeyd etdiklərimizə qayıtmaq kifayət edər. Hələ yaxın keçmişdə parçalanaraq az qala çökmək təhlükəsi ilə üzləşən Çini idarə etməyin bəlkə də yeganə üsulu konservatizm siyasətidir. Senzuraları, bəzən söz və fikir azadlığının arzuolunan səviyyədə olmaması ilə tənqid edilən, bir-birindən tamamilə fərqli millətlər toplusu olan, əhalisi 1,3 milyardı ötən Çin üçün, inkişaf templəri göstərir ki, bu gün ən düzgün idarəetmə metodu məhz budur. Fəqət “Bu metod nə vaxtadək müsbət nəticələr verməyə davam edəcək?” sualına mütəxəssislər kontrast cavablar səsləndirsələr də, fikrimizcə, tezliklə xaricilər üçün müəyyən güzəşt xarakterli dəyişikliklərin tətbiqi qaçılmaz olacaq.

Son olaraq qeyd edək ki, Azərbaycanla Çin arasında qarşılıqlı iqtisadi münasibətlər inkişaf edir. Tarixən Azərbaycan ərazisi Böyük İpək Yolu üzərində yerləşdiyindən, zamanla bu torpaqlar Qafqazla Yaxın Şərq, Mərkəzi Asiya ilə Kiçik Asiya arasında bir “körpü” rolu oynamışdır. Böyük İpək Yolu ilə ticarət edən insanların rahatlığı üçün tikilən, Hindistan-Çin və Qara dəniz

sahillərini, Avropanı birləşdirən onlarla tarixi abidə - karvansaraylar, məscidlər, körpülər, mədrəsələr və digərləri bu gün də dövlətimiz tərəfindən qorunur.




Diaqram 2. Çinin axtarış sistemləri bazarında yerli hegemon “Baidu” və “Google” arasında pay nisbəti [13]

## MƏNBƏLƏR


1. Charles P.Cullinan, F. W. (2012). *Ownership structure and accounting conservatism in China* (Cild 21). Bu Science Direct.
2. China Travel. *Origin of the Name of China*. November 14, 2017 tarixində bu China Travel: https://www.chinatravel.com/facts/origin-of-the-name-of-china.htm
3. United Nations. (2017). Total Population - Both Sexes. De facto population in a country, area or region as of 1 July of the year indicated. Figures are presented in thousands. *World Population Prospects 2017*. https://esa.un.org/unpd/wpp/DVD/Files/1_Indicators%20(Standard)/EXCEL_FILES/1_Population/wpp2017_pop_f01_1_total_populatıon_both_sexes.xlsx
4. Hogg, C. (2010, January 13). *Google's warning that it might pull out of China over cyber attacks has surprised human rights activists here*. BBC News: http://news.bbc.co.uk/2/hi/business/8456950.stm
5. Wu, W. (2016, May 30). *Is China making life difficult for foreign companies?* Bu South China Morning Post: http://www.scmp.com/news/china/diplomacy-defence/article/1940397/china-making-life-difficult-foreign-companies
6. Google. (2010, January 12). *A new approach to China*. Google Official Blog: https://googleblog.blogspot.de/2010/01/new-approach-to-china.html
7. Leyden, J. (2017, September 1). *China's cybersecurity law grants government 'unprecedented' control over foreign tech*. The Register: https://www.theregister.co.uk/2017/09/01/china_cybersecurity_law_analysis/
8. Quelch, J. A. (2010, January). *Google in China*. Harvard Business School: http://hbr.org/product/Google-in-China--A-/an/510071-PDF-ENG
9. Madrigal, A. (2010, February 24). *Chinese Scientists Say Losing Google Would Hurt Research*. Wired: https://www.wired.com/2010/02/china-scientists-google/
10. Gan, N. (2017, March 12). *Is Google another step closer to being unblocked in China?* South China Morning Post: http://www.scmp.com/news/china/policies-politics/article/2078173/google-another-step-closer-being-unblocked-china

11. Internships China. (2016, July 15). *Why Western Marketing Strategies Fail in China*. Internships China: http://internshipschina.com/western-marketing-strategies-fail-china/

12. The World Bank. (2017). *DataBank*. The World Bank Data Catalog: https://data.worldbank.org/indicator/NY.GNP.ATLS.CD?end=2010&locations=CN&start=2006

13. Stat Counter Global Stats. Search Engine Market Share China. http://gs.statcounter.com/search-engine-market-share/all/china/#monthly-200912-200912-bar

**UOT 94(479.242)**

# ORTA TUNC DÖVRÜ NAXÇIVAN TAYFALARININ İDEOLOJİ BAXIŞLARI VƏ İQTİSADİ HƏYATI

***Sevinc İmanova***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*seva_imanli@mail.ru*

**Açar sözlər:** *orta tunc dövrü, qəbir abidələri, ideoloji baxışlar, iqtisadi həyat, dini təsəvvürlər*

Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən orta tunc dövrünə aid yaşayış yerlərinin, qəbir abidələri və dəfn adətlərinin tədqiqi cəmiyyətin daxilində baş verən ictimai-iqtisadi və ideoloji proseslərin öyrənilməsində əhəmiyyətli rol oynayır. Bu dövrün dəfn adətləri, incəsənət nümunələri, qayaüstü təsvirləri, tunc dövrü tayfalarının mənəvi aləmi haqqında müəyyən təsəvvürlər yaradır.

Orta tunc dövrünün iqtisadi həyatı cəmiyyətin inkişafında mühüm rol oynamışdır. Məlumdur ki, insanların əsas təsərrüfat sahələri əkinçilik, maldarlıq və sənətkarlıq olmuşdur. Bu dövrün insanlarının ideoloji baxışları və iqtisadi həyatı cəmiyyətin təkamülünün məhsulu kimi meydana çıxmışdır. İqtisadiyyatın inkişafı sənətkarlığın müxtəlif sahələr üzrə ixtisaslaşmasını dərinləşdirmiş, mübadilənin artmasına, tayfalar arasında sosial differensasiyanın güclənməsinə səbəb olmuş, bu da qəbilə üzvləri arasında güclənən əmlak bərabərsizliyi ilə nəticələnmişdir.

# ИДЕОЛОГИЧЕСКИЕ ВЗГЛЯДЫ И ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ ПЛЕМЕН НАХЧЫВАНА ЭПОХИ СРЕДНЕЙ БРОНЗЫ

***Севиндж Иманова***

**Ключевые слова:** *Среднебронзовый век, могильные памятники, идеологические взгляды, экономическая жизнь, религиозные представления*

Изучение поселений, могил и захоронений среднебронзового века, расположенных на территории Нахчыванской Автономной Республики, играет важную роль в изучении социально-экономических и идеологических процессов происходящих в обществе. Традиции погребения

этой эпохи, образцы искусства, наскальные рисунки и духовный мир племен бронзового века создают определенные концепции.

Экономическая жизнь среднебронзового века сыграла важную роль в развитии общества. Известно, что основными отраслями хозяйства были сельское хозяйство, скотоводство и ремесло. Идеологические взгляды и экономическая жизнь людей этой эпохи стали продуктом эволюции общества. Развитие экономики углубило специализацию мастерства в различных областях, привело к увеличению обмена и расширению социальных различий среди племен, что привело к имущественному неравенству между членами племени.

## THE IDEOLOGICAL VIEWS AND THE ECONOMICAL LIFE OF THE NAKHCHIVAN'S TRİBES IN THE MIDDLE BRONZE AGE

***Seving Imanova***

**Key words:** *Middle Bronze Age, grave monuments, ideological views, economic life, religious beliefs*

The study of settlements, graves and burials of the Middle Bronze Age located on the territory of the Nakhchivan Autonomous Republic plays an important role in the studying the socio-economic and ideological processes taking place in the society. The traditions of the burial of that era, art samples, rock paintings and the spiritual world of the Bronze Age tribes create certain concepts.

The economic life of the middle Bronze Age played an important role in the development of the society. It is known that the main branches of the economy were agriculture, cattle breeding and craft. The ideological views and economic life of people of this era has become the product of the evolution of the society. The development of the economy deepened the specialization of craftsmanship in various fields, led to an increase in the exchange and expansion of social differences among the tribes, which led to property inequalities among tribal members.

Naxçıvan Muxtar Respublikasının cənub hissəsindən keçən Araz çayının (İranla düz xətlə-163 km, qıvrılma ilə-184 km, Türkiyə ilə düz xətlə-11 km, qıvrılma ilə-13 km) axdığı və dağətəyi ərazilərdə onlarla neolit, eneolit və tunc dövrlərinə aid abidə qeydə alınıb. Bu abidələr içərisində orta tunc dövrünə aid yaşayış yerləri və qəbir abidələri müəyyən edilərək bir neçəsində uğurlu

tədqiqatlar aparılmışdır. Bu abidələr sırasına I Şahtaxtı, II Şahtaxtı, Qızılburun, Nəhəcir, Şortəpə, Kükü, I Sarıdərə, Kərki, Naxçıvan, Yaycı, Ağsal nekropolları, Çalxanqala, Plovdağ kurqanları və b. daxildir. Qədim dövrün qəbir abidələrinin və dəfn adətinin tədqiqi cəmiyyətin daxilində baş verən ictimai-siyasi proseslərin, müəyyən arxeoloji mədəniyyətlərin yayılma arealının və etnik mənsubiyyətinin həll olunmasında əhəmiyyətli rol oynayır. Digər tərəfdən, qəbir abidələrinin quruluşu, dəfn prosesinin icrası və qəbir avadanlıqlarının hər biri məna daşımaqla yanaşı, insanların bilavasitə, dini-ideoloji baxışları ilə bağlıdır.

Naxçıvanın orta tunc dövrü abidələrindən əldə edilən faktik arxeoloji material sübut edir ki, o dövrün insanları yaradıcılığa, bəzəyə, incəsənətə və s. xüsusi maraq göstərmişlər. Bu dövrün dəfn abidələri, incəsənət nümunələri, qayaüstü təsvirləri, tunc dövrü tayfalarının mənəvi aləmi haqqında müəyyən təsəvvürlər yaradır. Xüsusən, boyalı qablar üzərində çəkilmiş müxtəlif kompozisiyalı rəsmlər qədim insanların yüksək mənəvi dünyasından xəbər verir. Əkinçilik və maldarlıqla bağlı ayin və etiqadlar insanların ideologiyasında mühüm rol oynamış, onların dünyagörüşünə ciddi təsir göstərmişdir.

Orta tunc dövrü yaşayış yerlərində aparılan arxeoloji tədqiqatların materialları qədim insanların dini inancları haqqında yetərli məlumat vermədiyindən qəbir abidələrinin tədqiqi daha əhəmiyyətlidir. Bu dövrə aid qəbirlər tək, cüt, kollektiv dəfnlərlə müşayiət edilir. Onlar əsasən ətrafı kromlexlə əhatələnmiş kurqanlardan, torpaq və daş qutu tipli qəbirlərdən ibarətdir. Bəzi qəbirlərin üzəri sal daşlarla dördkünc planda dövrəyə alınmışdır [1, 33-34]. Tədqiqatçılar qəbirlər üzərində kurqan düzəldilməsinin, onların kromlexlə əhatə edilməsinin Günəşə inamla bağlı olduğunu göstərirlər [2, 99].

Orta tunc dövrünə aid bir qrup qəbirdə insan skeletinə rast gəlinməyib (Kükü, Şəhtaxtı, Çalxanqala, Qarabağlar, Plovdağ və s.). Boş qəbirlərə Gədəbəyin daş qutularında da rast gəlinib. Lakin oradakı qəbirlərin heç birində avadanlıq olmayıb. Arxeoloq C.Ə.Xəlilov tədqiqatçıların (U.Bayern, V.Belhk, E.Resler, A.İvanovski) fikirlərini təhlil edərək, bu nəticəyə gəlmişdir ki, həmin qəbirlər qəbilə üzvləri və yaxud tək-tək şəxslər tərəfindən ehtiyat məqsədilə tikilmişdir [3, 63-64].

Kükü nekropolunda tədqiq olunan kurqanların birindən bütöv öküz skeleti aşkar olunmuşdur. Burada qəbir avadanlığının üzərini örtən torpaq təbəqəsinin üstündə nazik kül qatına rast gəlinmişdir. V.B.Baxşəliyev qeyd edir ki, dəfndən sonra qəbirin üzərində od yandırılmış, daha sonra kurqan düzəldilmişdir [1, 34].

Şahtaxtı nekropolunda Ə.K.Ələkbərovun tədqiq etdiyi qəbirlərin birindən [4, 47] və S.H.Aşurovun öyrəndiyi Qarabulaq kurqanlarından [5, şəkil 261] bütöv at skeleti aşkar olunub. Qəbirlərdən bütöv heyvan skeletinin tapılması, şübhəsiz ki, qədim insanların axirət dünyasına inamı ilə bağlı

olmuşdur.

Bu dövrə aid boz rəngli gil qablar üzərində rast gəlinən aypara təsvirləri Naxçıvan ərazisində məskunlaşan qədim tayfaların göy cisimlərinə sitayişi ilə bağlıdır. Orta tunc dövrünün boyalı qabları, habelə Qobustan, Abşeron, Gəmiqaya və Kəlbəcərin qayaüstü təsvirləri, heç şübhəsiz ki, qədim Azərbaycan tayfalarının dini inancları və mifologiyası ilə əlaqəlidir.

Qobustan və Gəmiqaya qayaüstü abidələrində rast gəlinən Günəş təsvirləri də diqqətəlayiqdir. Onlar şüalanan, içərisində nöqtə olan, ya da çarpaz xətlərlə 4 yerə bölünmüş dairələrlə təsvir olunmuşdur. Günəşə sitayiş, demək olar ki, tunc dövrünün bütün mərhələlərində mövcud olmuşdur. Şübhəsiz ki, bu inancın geniş yayılması, insanların məşğuliyyəti və həyat tərzi ilə bağlı olmuşdur. Həyat mənbəyi olan Günəş Baş Tanrı səviyyəsində yüksəldilmişdir. Fikrimizcə, orta tunc dövrü insanların ideologiyası və dini təsəvvürləri ilə daha zəngin olmuşdur. Orta tunc dövrü insanlarının dini-ideoloji təsəvvürləri haqqında hələlik son olaraq onu demək olar ki, Naxçıvan ərazisində yaşayan insanlar göy cisimlərinə, oda, axirət dünyasına, iri və xırdabuynuzlu heyvanlara, müxtəlif ruhlara, dağlara və təbiətin digər atributlarına sitayiş etmişlər. Belə sitayişlər onların mənəvi dünyasını zənginləşdirmiş, qədim tayfalar tapındıqları varlıqları düşündükləri, gördükləri kimi gil qabların, daşların üzərinə köçürmüş, yaşayış yerlərində onların forma və ritualını yaratmışlar [6, 285-286].

Bu dövrün iqtisadi həyatı cəmiyyətin inkişafında mühüm rol oynamışdır. Məlumdur ki, ibtidai insanların əsas təsərrüfat sahəsi əkinçilik və maldarlıq olub ki, buna görə də o dövrün qədim yaşayış yerləri şirin su mənbələri, həm də suvarma üçün yararlı, münbit torpaqlar olan ərazilərdə salınıb. Burada sənətkarlığın müxtəlif sahələrinin inkişafını da yaddan çıxarmaq olmaz. Suvarma əkinçiliyinin və qoşqu qüvvəsinin tətbiqi əkinçilik məhsullarının istehsalını artırmağa imkan vermişdir. Həmçinin əmək alətlərinin təkmilləşməsi taxılın yığılması və emalında mühüm rol oynayır.

Orta tunc dövrü abidələrinin tədqiqi zamanı əldə edilən osteoloji materialdan görünür ki, xırdabuynuzlu heyvanların sayca artması və yarımköçəri yaylaq maldarlığının inkişaf etməsi sayəsində yüksək dağlıq zonalarında və dağ ətəklərində yeni abidələr meydana çıxır. Gəmiqayada orta tunc dövrünə aid öküz qoşulmuş araba təsvirlərinə rast gəlinməsi, bu dövrdə qoşqu qüvvəsinin (öküz və at qoşulmuş) inkişafı və bunun maldar tayfaların həyatındakı əhəmiyyəti ilə bağlıdır.

Monoxrom və polixrom boyalı qabların üzərində xırdabuynuzlu heyvan təsvirlərinə rast gəlinməsi, heyvandarlığın orta tunc dövründə təsərrüfatın mühüm sahələrindən biri olduğunu göstərir. Maldarlığın inkişafı əkinçiliyə nisbətən daha çox izafi məhsul əldə edilməsinə, sərvətin müəyyən qrup adamların əlində toplanmasına imkan yaratmışdır. Bu isə sinifli cəmiyyətin ilk rüşeymlərinin meydana çıxmasına səbəb olmuşdur. Tayfa başçılarına aid zəngin

qəbirlərin meydana çıxması da, şübhəsiz ki, bununla bağlıdır.

İqtisadi həyata təkamül verən əsas sahələrdən biri də sənətkarlıq olmuşdur. Hələ qədim dövrlərdən meydana çıxan ibtidai sənətkarlığın müəyyən sahələri hələ eneolit dövründən başlayaraq inkişaf etmiş, orta tunc dövründə bir qədər də təkmilləşərək daha yüksək pilləyə çatmışdır.

Bütün Cənubi Qafqazda məskunlaşan tayfaların metalla ilk tanışlığı hələ eneolit dövründə meydana çıxsa da, Azərbaycan ərazisinin mis və polimetal yataqları ilə zəngin olması orta tunc dövründə metallurgiya və metalişləmənin inkişafını təmin etmişdir. Bu dövrün metal əşyalarının hazırlanmasında tökmə, döymə, kəsmə, burma, yastılama, prokat və digər texnoloji üsullardan istifadə edilmişdir. Arxeoloji materialın tədqiqindən göründüyü kimi, bu dövrdə qalaylı tuncdan geniş istifadə edilmişdir. I Kültəpədə aşkar olunan metal əşyaların tərkibində 1-10,8%, Qızılburunda 0,1--8,4%, II Kültəpədə 4%, Çalxanqalada 0,3-12% [7, 51,107,109-114] qalay olduğu müəyyən edilmişdir.

Tədqiqatların nəticəsi göstərir ki, Naxçıvanda tunc dövrü metallurgiyası Qədim Şərq ölkələri ilə əlaqəli şəkildə inkişaf etmişdir. Azərbaycan ərazisində metallurgiya və metalişləmənin yerli zəmində formalaşmasına, inkişaf etməsinə baxmayaraq, onun Yaxın Şərq ölkələrinin naaliyyətlərindən də bəhrələnməsini inkar etmək olmaz.

Eramızdan əvvəl III-II minilliklərdə dulusçuluğun inkişafında hiss ediləcək irəliləyiş gözə çarpır. Bu dövrdə dulusçuluq ev sənəti çərçivəsindən kənara çıxaraq, ixtisaslaşmış istehsal sahəsinə çevrilir. Orta tunc dövrünün monoxrom boyalı qablarında bu zaman qırmızı üzərindən qara rənglə dalğalı xətlərlə naxışlanma əsas yer tutur. Sonrakı mərhələlərdə yerli sənətkarların ustalığı nəticəsində həndəsi formalarda aşağıdan yuxarıya üfüqi xətlərlə çəkilmiş naxışlar əsas yer tutur. Polixrom naxışlı qabların üzərində ağ, yaxud sarı anqob üzərindən qara və qırmızı rənglərlə naxışlanma, heyvan və quş təsvirləri, bir-birinin içərisinə əlavə edilmiş qoşa, torlu üçbucaqlar xüsusi yer tutur. Daşişləmə sənəti neolitdən başlayaraq tunc dövrünün bütün mərhələlərində əsas yerlərdən birini tutmuşdur. Tədqiqatçılar qeyd edir ki, bu dövrün daşişləmə sənətində yonma, pardaqlama, cilalama, oyma, deşmə, zərbetmə və s. kimi texniki üsullar daha da təkmilləşmişdir [6, 254-264]. Sümükişləməyə aid biz, əyircək, qaşov, bəzək əşyaları (asmalar, muncuqlar), müxtəlif məqsədlər üçün işlədilən əmək alətləri çapma, kəsmə, cilalama və deşmə üsulu tətbiq olunmuşdur.

Son olaraq qeyd etmək olar ki, orta tunc dövrü Naxçıvan tayfalarının ideoloji baxışları və iqtisadi həyatı cəmiyyətin təkamülünün məhsulu kimi meydana çıxmışdır. İqtisadiyyatın inkişafı sənətkarlığın müxtəlif sahələr üzrə ixtisaslaşmasını dərinləşdirmiş, mübadilənin artmasına, tayfalar arasında sosial differensasiyanın güclənməsinə səbəb olmuşdur. Orta, son tunc və erkən dəmir dövrlərinə aid tədqiq olunmuş qəbir abidələri zəngin avadanlığına görə bir-

birindən fərqlənir ki, bu da qəbilə üzvləri arasında güclənən əmlak bərabərsizliyi ilə bağlı olmuşdur.

## ƏDƏBİYYAT

1. Bahşeliyev V.B. Nahçıvan arkeolojisi. Arkeoloji ve Sanat Yayınları, İstanbul, 1997, 140 s.

2. Muradova F.M. Qobustan tunc dövründə. Bakı, "Elm", 1979, 117 s.

3. Xəlilov C.M. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çayları hövzələri) Azərb.SSR EA Nəşriyyatı, Bakı, 1959, 170 s.

4. Алекперов А.К. Исследование по археологии и этнографии Азербайджана. Баку, Издательство АН Азербайджанской ССР, 1960, 249 с.

5. Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H. Qədim Şərur. "Nurlan", Bakı, 2012, 466 s.

6. Seyidov A.Q., Naxçıvan e.ə.VII-II minilliklərdə. Bakı, 2003,

7. Seyidov A.Q., Hasanova A.N., The Ancient Metal of Nakhcivan, "Elm", Baku, 2005, 315 p.

**UOT 94(479.24)**

# LULLUBİLƏRİN VƏ QUTİLƏRİN ETNİK ADLARINA DAİR

***Allahverdi Əlimirzəyev***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

**Açar sözlər**: *Azərbaycan tayfaları, mixi yazılar, qədim etnonimlər, lullubilər, qutilər*

Azərbaycanın tarixi torpaqlarında qeydə alınan ən qədim aborigen etnos lullubilər hesab olunur. Onlar hələ e.ə. XXVIII əsrdə məskunlaşdıqları əraziyə öz etnik adlarını vermişlər. Şumerlilər onları lulu, babillilər, aşşurlular və hetlər lullu, hurrilər isə nullu adlandırırdılar. Onların məskunlaşdığı ölkənin (Urmiya gölündən cənubda) dağlıq qərb hissəsi Zabu, Zamua, düzən şərq hissəsi Lullubi, Lullumi kimi adlarla tanınırdı. E.ə. XXIII əsrdən mixi kitabələrdə daha bir etnos – qutilər xatırlanmağa başlayır. Onların qərb qrupunun yayıldığı ərazi (Şərqi Anadolu) Aşşur mətnlərində hurri adı ilə – Kutmuhi, şərq qrupunun məskunlaşdığı ərazi isə Şumer yazılarında Kutium termini ilə ifadə olunurdu. “lulu” və “quti” etnonimlərinin anlamı müəyyən olunmayıb.

## К ЭТНИЧЕСКОЙ АТРИБУЦИИ ЛУЛЛУБЕЕВ И КУТИЕВ

***Аллахверди Алимирзоев***

**Ключевые слова**: *племена Азербайджана, клинописные тексты,древние этнонимы, луллубеи, кутии*

Приурмийская зона с XXVIII в. до н.э. была известна шумерийцам под названием его ранних обитателей, луллубеев. Горная западная часть их страны в клинописных текстах соседей упоминается под названием Забу или Замуа, а низменная восточная часть – Луллуби или Луллуме. По сообщениям текстов XXIII в. до н.э в соседстве с ними обитали кутии (или гутии). Западная группа кутиев совместно с хурритами занимала территорию под названием Кутмухи (район горы Тур-Абдин на востоке Анатолии). Восточная группа кутийских племен обитала на более огромной ространстве Южного Азербайджана, которого шумерийцы называли Кутиумом. Смысловое значение этнонимов луллубеев и кутиев пока не установлено.

# TO THE ETHNIC ATTRIBUTION OF LULUBIAN AND GUTEAN

***Allahverdi Alimirzoev***

**Key words**: *tribes of Azerbaijan, cuneiform texts, ancient etnonyms, lullubeans, guteans.*

Urmiya basin from the XXVIII century BC. was known to the sumerians under the name Lulu. The mountainous western part of their country in the cuneiform texts of neighbors is referred to as Zabu or Zamua, and the low eastern part is called Lullubi or Lullume. According to the texts of the XXIII century. BC in the neighborhood with them lived kutians (or gutians). The western group of kutians, together with the hurrians, occupied a territory called Kutmuhi (the region of Mount Tur-Abdin in the east of Anatolia). The eastern group of the kutian tribes lived on the larger space of Southern Azerbaijan, which the sumerians called Kutium. The semantic significance of the ethnonyms of lulubi and kuti has not yet been established.

Azərbaycan xalqının etnosiyasi tarixinin formalaşmasında Urmiya gölü hövzəsində məskunlaşan və orada hərbi-siyasi birliklərini yaradan tayfalar önəmli rol oynamışlar. Onlar haqqında məlumat verən yadelli tarixi və ədəbi qaynaqlar, əsasən, hərbi münaqişələri əks etdirir. Urmiya hövzəsi mühüm strateji əhəmiyyət kəsb etdiyindən əsrlər boyu Mesopotamiyadakı dövlətləri idarə edənlərin maraq dairəsində olmuşdur. Hövzənin qədim sakinləri barədə ilk xəbərlər e.ə.III minilliyin ikinci yarısında şumer və akkad dillərində tərtib olunmuş mixi yazılı mənbələrdə yer alsa da, bəzi etnosların burada daha qədim zamanlardan yayıldığına dair faktlar mövcuddur. Bu xəbərlərdən məlum olur ki, müasir Süleymaniyyə və Sənəndəc zolağından Urmiya gölünə qədər uzanan ərazilərdə lullubi tayfaları məskunlaşmışlar [4, 126].

Lullubilər yazılı mənbələrin Azərbaycanın tarixi torpaqlarında qeydə aldığı ən qədim aborigen etnosdur. Onları ifadə edən geo-etnik terminlərin mahiyyəti tam aydın deyil. E.ə. XXVI-VIII əsrlər ərzində mixi yazılı qaynaqlarda bu etnosun adı **lulu, lullu, lullubi, lullume**, **lullumi**, Urmiya gölündən cənubda məskunlaşdıqları ərazilərin adı isə Zabu, Zabua, Zamua formalarında qeydə alınıb. Ehtimal ki, etnosun özünəməxsus adı – ekzonimi, "luluvi" olmuşdur. Nəzərə alınmalıdır ki, Mesopotamiya mənşəli mixi yazı sistemlərində **-v-** səsi, xüsusi işarə olmadığından, **-p-** və **-m-** səslərini bildirən işarələrlə ifadə olunurdu [9, 312].

Lakin elmdə oturuşmuş ənənəyə sadiq qalaraq etnosu "lulubi/lullubi" adlandırırıq. Coğrafi termin kimi Lullubum tarixi mətnlərdə ilk dəfə Abu-

Salabihdən (qədim Şumer şəhəri Keş) tapılan və III Erkən sülalələr dövrünə (e.ə. XXVI əsr) aid edilən coğrafi adlar siyahısında əks olunub [26, 61]. Ur şəhərinin təqribən həmin dövrə aid təsərrüfat hesabatlarında "lulu" kimi qeydə alınmış şəxslərə ərzaq ödənişlərinin uçotu aparılıb, sənədlərin birində, hətta, **lu-lu GAL+LU$_2$** ("lulu hökmdar") ifadəsi ilə qarşılaşırıq [21, №№ 17, 62, 70, 74, 112, 114, 163, 171, 181, 212, 226, 231, 257, 338, 350, 352, 371].

Şumer qəhrəmanlıq dastanlarında Zamua və Lullu terminlərinin tətbiqi eyni vaxta təsadüf edir. E.ə. XIX əsrdə gil lövhələrə həkk olunan "Luqalbanda və Anzud quşu" eposunda Şumerin Uruk şəhər-dövlətinin hökmdarı En-Merkarın (e.ə. XXVIII əsrin ikinci yarısı) böyük ordu ilə Arattaya yürüşü təsvir olunub. Həmin eposdakı "Lullubi ölkəsinin dağları" (**kur-ra lu$_5$-lu$_5$-bi-a$^{ki}$**) ifadəsindən bəlli olur ki, Aratta ölkəsinə gedən yollardan biri buradan keçirdi və bu ölkə Zabu (və ya Zabua) adlanan dağlıq ərazinin tərkib hissəsi idi. Şübhə yoxdur ki, "Zabua" termini e.ə. I əsrdə Aşşur hərb xronikasında dəfələrlə qeydə alınmış "Zamua" toponiminin daha qədim şumer formasıdır. Lullubilərin ölkəsi (**Lu-lu-bi-i$^{ki}$**) Şarrumkenin (I Sarqonun: e.ə. 2296-2241) yaratdığı Akkad dövlətinin torpaq kadastrında qeydə alınıb [28, fig. 13].

E.ə. 1300-720-ci illərdə lullubilərə qarşı hərbi əməliyyatlar aparan Aşşur hökmdarlarının salnamələrində Lullume və Zamua terminləri fərqləndirilirdi; görünür bu terminlər əvvəllər fərqli, lakin qonşu ərazilərə şamil olunurdu. Yalnız II Sarqonun (e.ə. 722-705) mətnlərində hər iki termin sinonim kimi işlənirdi [33, § 142; 7, № 49; 16, c. 77-92; 1, s. 66]. Lullume etno-coğrafi termin olsa da, Zamua anlayışı yalnız sırf coğrafi məkanı bildirirdi; bunu bəzi mətnlərdə **lú lulli** [30, 356] və ya **lú lullim** [24, №3], yəni «lullu adamı» yazılışları da təsdiq edir. Ehtimal edilir ki, "Zamua" termini öncə lullubi tayfalarından birinə aid idi, "lullu" isə, ümumiləşdirilmiş ad kimi, onlara qohum dildə danışan bütün tayfalara tətbiq olunurdu [17, 135-136]. Zənnimizcə, "Zamua" sırf coğrafi komenklatura olmaqla Diyalanın qolları Yuxarı/Böyük Zab (akkaddilli mətnlərdə **nâr Zaba eliatum**) və Aşağı/Kiçik Zab (akkaddilli mətnlərdə **nâr Zaba supalu**) çayları ilə əlaqələndirilməlidir, başqa sözlə, Zab çayları hövzəsindəki ərazilərə şamil olunurdu.

Hurrilərin Arrapha şəhərinin Akkad dilində tərtib olunmuş rəsmi sənədlərində lullubilər, əsasən, **nullu**, **nulluaiu**, nadir hallarda **lullu** terminləri ilə ifadə olunublar. Bu sənədlərdə **Nu-ul-lu-e-na-aš-we** ("lullubi şəhəri"), **di-im-tu lu-ul-lu-a-e** ("lullubi bürcü"), eləcə də, Halulliwe şəhəri xatırlanır [28, ss. 28, 61-62, 70, 96, 104, 243, 245]. Bir sənəddə Lullubi ölkəsinin (**KUR Lul-lu-bi-i $^{KI}$**) Uruna adlı baş kahini qeydə alınıb [28, s.107]. Nuzi şəhərinin arxiv sənədlərində Lullubilərin ölkəsinin adının akkadca yazılış formaları da qeydə alınıb: adlıq halda **Lu-lu-bum$^{ki}$**, yiyəlik halda **Lu-lu-bi-im$^{ki}$** [34, №№ 176, 99].

Het mətnlərində lullubilərin ölkəsinin **Lulahhu** formasına rast gəlinir. Burada **-hh-** suffiksi hurri mənşəlidir və ehtimal ki, hetlərin lullubilərlə tanışlığı

onların arasındakı ərazilərdə məskunlaşan hurrilər vasitəsi ilə olmuşdur [17, 132-133]. Urmiya gölü hövzəsinə yürüş edən Kutik-İnşuşinakın "Qələbə kitabəsi"ndə xatırlanan **La-lu-uh** toponimi lullubilərin ölkəsinin hurri adı kimi qəbul oluna bilər. Maraqlıdır ki, Nuzi şəhərində (indiki İraqda Yorğan-təpə) məskunlaşan hurrilər lullubiləri, əsasən, **nulu** (və ya **nullu**) formasında ifadə edirdilər [17, 130-131]. Hurrilərin Mitanni (qədim Misir mətnlərində Naharina) dövlətinin rəsmi adlarından biri olan "Haniqalbat/Haliqalbat" nəzərə alınmasa, genetik baxımdan qohum olan hurri və biayni dillərində **-l-** və **-n-** fonemlərinin bir-birini əvəzləməsi halları qeydə alınmayıb. Belə səs əvəzləməsi lullubilərin Nuzidə yayılmış qrupuna xas olan dialekt üçün səciyyəvi sayıla bilər.

Hetlərin mifoloji mətnlərində lullubilər haqqında lakonik qeydlər nəzərə çarpır. Bu mətnləri tərtib edənlərin təsəvvüründə lullubilərin ölkəsi adsız dənizin kənarında yerləşirdi. Həmin mətndə deyilir: **URU lu-ul-lu-wa-ia-aš-ša-an KUR-e a-ru-ni ZAG-ši e-eš-zi** "Lulluva ölkəsindəki dənizin sərhəddində" [20, 421]. Şübhə yoxdur ki, burada Urmiya gölü nəzərdə tutulub. Aşşur hərb xronikası Yuxarı Dəclənin sol sahilində Luluta adlı dağlıq ərazidən xəbər verir [7, №26]. Bu mətnlərdə lullubilərin etnonimi, bəzən, hurri dilinin fonetik normalarına uyğun formada (**lú lu-la-hi-iš** "Lulu adamı") yazilırdı [32, 160]. Mifoloji mətnlərdən məlum olur ki, Anadolunun aborigen sakinləri olan hatların dini inanclarında yeraltı dünyanın tanrısı lullubilərin etnik adına uyğun olaraq Leluvani adlanırdı [12, 45]. Sonralar Anadoluda məskunlaşan yunanlar qonşuluqdakı aborigenlərin bəzilərini **λελεγες** adlandırırdılar [10, 186]. E.ə. II minilliyin ortalarında lullubi qrupları indiki Suriyanın şimal-şərqində də qeydə aliniblar. Məsələn, bir mənbədə deyilir: **lú lu-ul-li-[im] Ha-ah-hi-im**$^{\mathbf{ki}}$ "Hahhum ölkəsinin lullubiləri" [14, 79].

Lullubilərin şimal-qərb qrupu Urartu tayfa ittifaqının yaxınlığında, Zab çayları hövzəsində yaşayırdı. Onlarin etnonimi buradakı oronimlərin birində (Lalar) əks olunub. I Tukulti-Ninurtanın mətnində bu dağın "Aşağı Zab çayının qarşı sahilində" yerləşdiyi bildirilir. Bax: [1, 21]. Bu qonşuluq hərbi münaqişələrlə müşayiət olunduğundan lullubilərin etnik adı Urartu kitabələrində xüsusi isim kimi "düşmən" anlamında işlənirdi [17, 134-135]. Lakin, qohum hurri dilindən fərqli olaraq, biayni dilində qeminatlığa, yəni eyni samit səsin təkrarlanması hallarına yol verilmədiyindən, etnonim **lulu** formasında yazılırdı.

"Lullume" və "Zamua" coğrafi termin kimi sonuncu dəfə e.ə. VII əsrin ortalarında qeydə alınsa da, bədii əsərlərdə **lullu** etnonimi anaxronizm əlaməti kimi şəhər mədəniyyətindən kənar topluma şamil olunurdu. Məsələn, "Gilqameş haqqında epos"da Enkidu Uruk şəhərinin hökmdarı Gilqameşlə tanış olana qədər sivil cəmiyyətdən kənarda, vəhşi heyvanlar arasında sərgərdan həyat keçirən qəhrəman kimi təsvir olunur və **lullaa awēlu** «lullubi adamı» adlandırılır [19, 134]. "Vəhşi insan" (**awēlu lullû**) obrazı Akkad dövrü təsviri incəsənətinin, xüsusilə qliptikanın, süjet xəttində önəmli yer tuturdu. Bu

personaj yer tanrısı Enki və qəhrəman Enkidu ilə yanaşı, bəzən, Gilqameşi də simvolizə edirdi [5, 142].

E.ə.III minilliyin ikinci yarısında şumer-akkad mətnlərində qutilər məskunlaşdıqları ölkənin (və ya ərazinin) adı ilə (**Gu-ti-um**[ki]) ifadə olunurdular. Bir mətndə, Elam hökmdarı Kutik-İnşuşinakın "Qələbə kitabəsi"ndə **KUR Gu-UD**[ki] formas qeydə alınıb [37, p. 9, II sütun, sətir 12]. Şumer-akkad və aşşur-babil mixi yazı sistemində UD "Günəş" ideoqramı, konteksdən asılı olaraq, 20 fərqli hecanı ifadə edirdi [31, №379]. Deyilən mənbədə toponimi **Gu-tú**[ki] və ya **Gu-tam**[ki] variantlarda oxunuşuna üstünlük verilir [29, 549].

E.ə. II-I minilliklərin mətnlərində bu etno-xoronimin yazılışında **Gu-tu-um**, **Gu-ti**, **Ku-tu-u**, **Qu-ti-im**, **Qu-ti-i**, **Qu-te-u** və s. formalar qeydə alınıb [27, p.709]. Bundan əlavə, e.ə.VIII-VII əsrlərin sözlüklərində, eləcə də münəccimlərin astroloji mətnlərində və tanrı adları (teonim) siyahısında abreviatur yazılışlara (**Gu**, **Gu**[ki]) təsadüf olunur [40, 88; 38, № 173; 22, 27-29]. Elam mətnlərində qutilərlə bağlı toponimikanın **Kar-Ku-ti-ia**, **Kar-Ku-ti-ia-iš** (akkadca "Quti koloniyası") formaları qeydə alınıb [29, 442]. Bəzi hallarda bu etno-xoronimə **- um** (akkad dilində ismin adlıq hal şəkilçisi) sonluğu əlavə olunurdu. Şumer-akkad mixi yazı sistemində kar, cingiltili və emfatik samitlərin (o cümlədən **-g-**, **-k-** və **-q-**) yazılışında fərq qoyulmadığından, "Quti" etno-xoroniminin reallıqda necə səsləndiyini bilmirik [8, 104, прим. 3; 11, 6; 6, 17; 3, 45]. Qutilərlə bağlı bütün etno-coğrafi terminlərin birinci hecası 2 fərqli işarə ilə qeyd olunsa da, onların hər ikisi də **-gu-**, **-ku-**, **-qu-** səslərinin yazılışı üçün nəzərdə tutulmuşdu [35, 30; 31, №№ 536, 559].

Suzdan tapılmış akkaddilli uçot mətnlərindəki (e.ə. II minilliyin birinci yarısı) **Kİ. Ku-tu-tu** yazılışı ehtimal ki, qutilərin ölkəsini bildirirdi [36, №23]. İ.M. Dyakonov hesab edirdi ki, bu etnotermin emfatik səslə (ingilis əlifbasında "Q" hərfinin ifadə etdiyi səslə) tələffüz olunurdu. Lakin bu müddəa yalnız e.ə. II-I minilliklərin aşşur-babil mətnləri üçün keçərlidir və daha qədim dövrün şumer-akkad sənədləri üçün məqbul sayıla bilməz. Şumer fonologiyasına və Azərbaycan əlifbasına emfatik səslərin yad olduğunu nəzərə alaraq, eləcə də, ingilis və kiril əlifbalarının "**G**" və "**Г**" hərflərinə müvafiq olaraq bu etno-xoronimi "Quti" formasında verməyi daha münasib və məntiqli hesab edirik. Danimarkalı Yorgen Lösye də analoji fikrin tərəfdarıdır [15, 204, прим.1]. Şumer-akkad sözlüklərində akkad termini "Qutium" **GİŠ.GAL.[LU].AN.NA.** ideoqramları ilə yazılaraq, məcazi mənada "qasırğa", "fırtına" kimi mənalandırılır [23, 56; 27, 718].

Qeyd etmək lazımdır ki, akkad dilində mimasiya suffiksi olan **-m** isimlərin hallanma formalarının göstəricisi kimi e.ə. XVI əsrin ortalarından etibarən mətnlərdən yox olur [13, 435]. Bu səbəbdən, əvvəllər adlıq halında yazılan Kutium və Lullubum (yiyəlik halında Lullubim) kimi etno-coğrafi

terminlər sonralar mənsubiyyət halında (Kutii, Lulubii/Lulumii) göstərilirdilər. Şübhə yoxdur ki, haqqında bəhs olunan etnosun adı “qut” olmuşdur, lakin elmdə oturuşmuş terminologiyanı nəzərə alaraq biz onları “qutilər”, Cənubi Azərbaycanda məskunlaşdıqları ərazini və yaratdıqları siyasi qurumu “Kutium” adlandırılmasının tərəfdarıyıq.

Elmi ədəbiyyatda belə bir fikir yer alıb ki, e.ə. II minilliyin sonlarından qutilər qonşu etnoslarla assimilyasiyaya məruz qalsalar da, “Quti” termini anaxronizm əlaməti kimi mətnlərdə işlənməkdə davam edirdi [17, 119; 8, 140, 284, 287; c. 64, прим.10; 4, 130, 134; 6, 18]. Qeyd olunmalıdır ki, e.ə. I minilliyin tarixi sənədlərinin yalnız ikisində ”Qutium” termininin anaxronizm nümunəsi qismində işlənməsi şübhə doğurmur. Belə ki, Aşşur çarı Aşşurahaiddinin (e.ə. 681-668) mətnlərinin birində və “Rassam silindri” adı ilə tanınan kitabədə bu termin reallıqda mövcud olmayan arxaik xoronimlərin (Subartu, Hatti, Maqan, Amurru və Meluhha) sırasında xatırlanır [33, § 668; 40, 59]. Bundan əlavə, e.ə. I minilliyin münəccim mətnlərində “Qutium” termini cəhətlərdən birini, şimal-şərq istiqamətini bildirirdi [40, s.69]. Bütün digər hallarda “Qutium” termini konkret inzibati ərazi vahidini ifadə edirdi. Belə ki, Aşşur çarları III Tiqlatpalasarın və II Sarqonun hərb salnamələrində yürüş zamanı işğala məruz qalan məntəqələr sırasında Qutium da qeydə alınıb. Deməli, bu dövrdə hələ də Urmiyadan cənub-şərqdə, Manna və Madada quti mənşəli əhalinin, zəif də olsa, hərbi-siyasi birlikləri mövcud idi.

Qutilərin qərb qrupunun məskunlaşdığı Kutmuhi (və ya Katmuhi) adlı digər bir ərazi Anadolunun şərqində yerləşirdi. Turukku və Niqimhi ölkələri ilə sərhədlənən Kutmuhi çarlığı aşşur mənbələrində ilk dəfə I Adadnerarinin hərbi yürüşü ilə əlaqədar xatırlanır, sonuncu dəfə isə Sinahheribin mətnində qeydə alınıb [7, №№ 3-5, 7, 10-12, 23, 26, 42, 58]. “Kutmuhi” burada məskunlaşan qutilərin siyasi birliyinin hurri mənşəli adı olmuşdur. **Kutmuhi > Kutum-hi**; sonuncu heca hurri dili üçün xarakterik olan məkan-mənsubiyyət şəkilçisidir. Müqayisə et: Kinah-hi, Kir-hi, Salmat-hi, Babana-hi, Niqim-hi, Kummu-hi və digər toponimlər [39, 140-141; 18, 68]. Hurridilli mətnlərdə qutilərin ölkəsi **Kutiuhe**, **Kuttenašwe** kimi formalarda da yazılırdı [32, 157].

## ƏDƏBİYYAT

1.Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S. Qaşqay). Bakı, 2006.

2.Алиев И. История Мидии. Баку, 1960.

3.Алиев И. О некоторых вопросах этнической истории азербайджанского народа. Баку. 2002.

4.Алиев И.Г., Погребова М.Н. Об этнических процессах в областях Восточного Закавказья и Западного Ирана в конце II – начале I тыс. до н.э. / Этнические проблемы истории Центральной Азии в древности. Москва, 1981, с.126-137.

5.Афанасьева В.К. Гильгамеш и Энкиду. Эпические образы в искусстве. Москва, 1979

6.Гамкрелидзе Т., Иванов В. Первые индоевропейцы в истории: предки тохар в древней Передней Азии // Вестник древней истории, Москва, 1989, № 1.

7.Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту // Вестник древней истории, Москва, 1951, №№ 2,3.

8.Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва, Ленинград, 1956.

9.Дьяконов И.М. Языки древней Передней Азии. Москва, 1967.

10.Дьяконов И.М., Старостин С.А. Хуррито-урартские и Восточнокавказские языки / Древний Восток. Этнокультурные связи. Москва, 1988, с. 164-207.

11. Дьяконов И.М. Алародии (хурриты, урарты, кутии, чеченцы, лезгины, дагестанцы) / Алародии (Этногенетические исследования). Махачкала, 1995, с. 3-13.

12. Иванов В.В. Об отношение хаттского языка с северозападнокавказским / Древняя Анатолия. Москва, 1985.

13. История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I. Месопотамия, Москва, 1983.

14. Кифишин А. Географические воззрения древних шумеров при патеси Гудеа (2162-2137 гг. до н.э.) / Палестинский сборник, Москва,1965, Выпуск 13(76), с. 61-83.

15. Лессеэ Й. Древние ассирийцы. Покорители народов. Москва, 2012.

16. Медведская И.Н. Древний Иран накануне империй (IX-VI вв. до н.э.). История Мидийского царства. Санкт-Петербург, 2010.

17. Меликишвили Г.А. Наири-Урарту (Древневосточные материалы по истории народов Закавказья. I.), Тбилиси, 1954.

18. Хачикян М.Л. Хурритский и урартский языки. Ереван, 1985.

19. Эпос о Гильгамеше (Перевод И. М. Дьяконова). Москва, 1961.

20. Berman H. Rec. on the J. Siegelová. Appu-Märchen und Hedammu-Mythus. Studien zu den Boğazköy-Texten. Vol. 14. Wiesbaden, 1971 // Journal of Near Eastern Studies. Chicago 1974, Vol. 33.

21. Burrows E. Ur Excavations Texts. Vol. II. Archaic Texts. London, 1935.

22. De Zorzi N. Jupiter omens: an Addendum to BPO 4 // Neuvelle Assyriologique Brèves et Utilitaires. Paris, 2015, № 1, pp. 27-29.

23.Deimel A. Šumerisches Lexikon. III Teil Band I. Šumerisch-akkadisches Glossar. Roma, 1934.

24. Eidem J., Lossoe J. The Shemshara Archives 1. The Letters. Kobenhavn, 2001.

25. Fadhil A. Studien zur Topographie und Prosopoqraphie der Provinzstäte des Königreichs Arraphe. Mainz am Rhein, 1983.

26. Frayne R.D. The Early Dynastic List of Geographical Names. 1992, Vol. 74.

27. Hallo W.W. Gutium // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. Berlin, Leipzig, New York, III, 1971, pp. 708-720.

28. Herzfeld E. The Persian Empire. Wiesbaden, 1968.

29. Hinz W., Koch H. Elamische Handwörterbuch. Berlin, 1987.

30. Klengel H. Lullubum. Ein Beitrag zur Geschichte der altvörderasiatischen Gebirgsvölker // Mitteilungen des İnstituts für Orientforschung. Berlin, 1966, № XI.

31.Labat R. Manuel d'éigraphie Akkadienne (signes, syllabaires, ideogrammes). Paris, 1952.

32. Laroche E. Glossaire de la Langue Hourrite. Paris, 1980.

33. Luckenbill D.D. Ancient Records of Assyria and Babylonia. Vol. II, New York, 1968.

34. Meek T.J. Excavations at Nuzi. Vol. III. Old Akkadian, Sumerian and cappadocian texts from Nuzi. London, 1935.

35. Gelb I. Material for the Assyrian Dictionnary. Vol. II, Chicago, 1952.

36. Scheil V. Textes elamites-semitiques (quatrieme serie) // Mémoires de la Délegation de Perse. Tom X, Paris, 1908.

37. Scheil V. Textes élamites-semitiques (cinquieme série) // Mémoires de la Mission Archéologique de Perse. Tom XIV, Paris, 1913.

38. Schroeder O. Keilschrifttexte aus Assur. Verschiedenen Inhalt. Leipzig, 1920.

39. Speiser E. A. Mesopotamian Origins. The Basic Population of the Near East. Philadelphia, 1930.

40. Ungnad A. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde Vorderasiens. Berlin, Leipzig, 1936.

**UOT 94 (479.24)**

# RUSIYA IŞĞALINDAN SONRA AZƏRBAYCAN KƏNDINDƏ RƏNCBƏR KƏNDLILƏRƏ RƏSMI MÜNASIBƏT HAQQINDA

***Fazil Baxşəliyev***
*Bakı Dövlət Universiteti*
*bfazil4444@mail.ru*

**Açar sözlər:** *islahat, kənd, hüquq, kateqoriya, proses*

Məqalədə Şimali Azərbaycan kəndindəki rəncbər kəndli kateqoriyasından danışılır. Rəncbərlərin yaranması və təsərrüfatdakı dəyişikliklər nəticəsində bu kateqoriyanın formalaşması və onların sıralarının genişlənməsi məsələlərinə diqqət yetirilmişdir. Bu kateqoriyadan olan kəndlilərin sayı, çoxalması, idarə olunma qaydaları da məqalədə ayrıca araşdırılır.

## ОБ ОФИЦИАЛЬНОМ ОНОШЕНИЕ КРЕСТЬЯН РАНДЖБАРАМ В АЗЕРБАЙДЖАНСКОМ ДЕРЕВНЕ ПОСЛЕ РУССКОГО ЗАХВАТА

***Фазил Бахшалиев***

**Ключевые слова:** *реформа, деревня, право, категория, процесс*

В статье говорится, что одна из категорий крестьян в Северном Азербайджане составляли ранджбары, т.е. безземельные крестьяне. Излагается процесс формирования этой категории после ряд изменений внутри хояйства, увеличения их числа. Уделяется особое внимание на изучение их число, умножение и хояйственной деятельности. В статье указываются правила и формы управления этих крестьян.

## ON OFFICIAL RELATIONS OF PEASANTS TO RANDZHBARA IN AZERBAIJAN VILLAGE AFTER RUSSIAN TAKEOVER

***Fazil Bakshaliyev***

**Key words:** *reform, village, right, category, prosses*

It is talked in the article, that one of categories of peasants wageworkers made in North Azerbaijan - rangbars , i.e. landless peasants. The process of forming of this category is expounded after row of changes inwardly economy, increases of their number. The special attention is spared on the study of essential activity. Rules and forms of management of these peasants are specified in the article.

Aqrar münasibətlərə həsr edilmiş bütün tədqiqat və ədəbiyyatlarda rəncbərlər institutu ən az əhatə olunmuş sahələrdən biridir. Rəncbərlə bağlı, onların Azərbaycan kəndinin digər tərəfləri ilə münasibətləri sistemində öz tədqiqatçılarını gözləyən elə ciddi məsələlər və cəhətlər var ki, onların bu gün də araşdırılmasına ehtiyac duyulur.

Əvvəla onu deyək ki, istər rus məmurları, istərsə də burjua rus və sovet tarixşunaslığında Azərbaycan kəndliləri və kəndindən bəhs edən ədəbiyyat və digər xarakterli yazılarda kəndlilərin kateqoriyalar üzrə təsərrüfat fəaliyyəti haqqında daha çox məlumatlara rast gəlirik. Kənd, yalnız qısa bir dövr nəzərə alınmasa, bəhs etdiyimiz yazılarda kölgədə qalır. Əgər rəncbər kəndlilərdən həmin yazılarda söhbət gedirsə, bu da təsadüfən, ötəri xarakter daşıyır, konkret say, ümumiləşdirilmiş göstəricilər yox dərəcəsindədir. Lakin bu yazılarda, əgər rast gəlinirsə, əsas şərh ilk növbədə onların ağır və dözülməz təsərrüfat fəaliyyətləri və həyat şəraiti ilə əsaslandırılır [1, 23]. Bu, o deməkdir ki, hələ o vaxtdan - XIX əsrdən bəri rəncbər kəndlilərin fəaliyyəti ilə bağlı məlumatların azlığı, yoxluğu bu kateqoriyanı, nəinki məmurların, mütəxəssislərin, habelə tədqiqatçıların diqqətindən uzaq salmışdır.

XIX əsrin ortalarından başlayaraq Azərbaycan kəndinə aid hökumətin qəbul etdiyi qanun və qərarların, demək olar, hamısında kəndlilərin və elatların ödəyəcəyi vergilərin və yerinə yetirəcəyi mükəlləfiyyətlərin dəqiq vaxtı və formaları reqlamentləşdirilirdisə, yəni qanunlar və dövlət rəsmiləri rəiyyət kəndlilərin hüquq və mənafelərinin formal şəkildə qorunmasının təminatçısı kimi təsvir edilirdilərsə, rəncbər kəndlilər haqqında bunu demək olmur.

Bununla da rəncbərlərin sosial-hüquqi baxımdan təminatsız vəziyyətdə qalmasına hökumət və qanunlar özləri yol açırdı. Digər tərəfdən, ilk iki kateqoriyadan fərqli olaraq, rəncbərlər say baxımından kənddə əsas istehsalçı qüvvə kimi tanınmırdılar. Bəzən qəzalarda hər iki kənd qrupu ilə birlikdə hesablandıqda rəncbər kəndlilərin sayı heç mini də keçmirdi. Bu isə bu rəqəmin hətta iki kateqoriya ilə ayrılıqda müqayisə etdikdə belə 1/50-dən də dəfələrlə az demək idi [3, 24].

Fikrimizcə, belə məsələlər sırasında ilk yerdə sahibkarla onların mülkiyyətində yerləşən kəndlərin ərazisində məskunlaşan rəncbər kəndlilər arasında yaranan istehsal, sosial münasibətlərlə bağlı məsələlərdir. Bu

münasibətlərin araşdırılması üçün bu gün əlimizdə kifayət qədər müxtəlif məzmunlu və bəzən də qarışıq xarakterli yazılı və faktik materiallar var.

Rəncbərlik instutunun zəifləməsi eyni zamanda Azərbaycan kəndində feodal-asılı münasibətlərinin zəifləməsində də öz sözünü deyirdi. Halbuki çar hökumətinin müstəmləkə orqanları və onların yerli məmurları bu münasibətləri ilə milli əyalətlərdə bu məsələnin hələ bundan sonra da uzun müddət dəyişməz qalmasında maraqlı idilər.

Qafqazın baş hərbi rəisi postunda Rusiya-İran müharibələrinin ikinci mərhələsinin başlanması ərəfəsində öz ağalıq dövrünün son illərini keçirən general Yermolov rəncbər kəndlilərin vəziyyətinin gedişində bir sıra yeni addımlar atır. Bu addımlar rəncbər kəndli kateqoriyasının azaldılması məqsədinə xidmət edirdisə, digər tərəfdən onların sosial statusunun qorunub saxlanmasına kömək edirdi. Belə addımlardan biri generalın göstərişilə qəzalarda mülkədarlara rəncbərlərin bağışlanması və ya əksinə geri alınması hallarının bir müddət qadağan edilməsi idi.

Bu hüquq əvvəllər əyalət komendantlarına məxsus idisə, indi məlum mövqenin formalaşması ilə əlaqədar bu səlahiyyətlər hərbi dairə rəislərinin səlahiyyətlərinə daxil edilirdi. Dairə rəisi isə öz növbəsində qəzalar üzrə rəncbərlərin sayındakı bütün dəyişikliklər haqqında Qafqazın baş hərbi rəisinə illik hesabatını təqdim etməli idi.

Bütün bunlara baxmayaraq yerlərdə hər hansı səbəb üzündən rəncbərlərin verilməsi və tabeçiliyi qaydalarında yol veriləcək pozuntuların qarşısını almaq üçün belə bir qayda müəyyən edilmişdi ki, hər bir sahibkara surəti hərbi rəisin dəftərxanasında saxlanmaq şərtilə tabeçiliyində olan rəncbərlərin sayı, ailə tərkibi və s. haqqında möhürlə təsdiq edilmiş siyahılar təqdim olunurdu. Ümumiyyətlə, rəncbər kəndlilərin qəzalar və kəndlər üzrə siyahıları və bunlarla bağlı bütün sənədlərin məzmunu xüsusi kitablarda olur və bu onlar xəzinə sənədləri siyahısına daxil edilirdi.

İmperiya hökuməti rəncbərlərin statusu və idarəçiliyilə əlaqədar yerli məmurlar tərəfindən (mahal rəhbərləri, kəndxudalar və digərləri nəzərdə tutulurdu) qanun pozuntularına yol verilməsinin qarşısını almaq məqsədilə müəyyənləşdirilmişdi ki, adı çəkilən məmurlara qulluq əvəzində müəyyən sayda bütün vergi və mükəlləfiyyətlərdən tamamilə azad edilmiş rəncbərlər ayrılsın. Bu hədd adətən 20 rəncbərdən çox olmamalı idi və bir qayda olaraq naiblər tərəfindən bu göstəricinin pozulması birbaşa hökumət tərəfindən qanun pozuntusu kimi qəbul edilirdi. Hələ xanlıqlar dövründə belə mövcud bu göstəriş və ya hədd əslində yenilik deyildi [5, 12].

Yüksək rütbəli çar məmurlarının bu məsələdə mövqeyi belə idi ki, göstərilən sayda rəncbərlər əldə etmiş naiblər, o cümlədən qazilər və digər yerli məmurlar hökumət və imperiya qarşısında öz vəzifə qulluqlarını daha böyük canfəşanlıqla yerinə yetirəcəklər [2, 8].

Yerli hakimiyyət strukturları tərəfindən hazırlanmış və baş hərbi rəis tərəfindən təsdiq edilmiş sənədə əsasən rəncbərlər iki qrupa ayrılırdı. Birinci qrupa daxil olanlar bütün növ vergi və mükəlləfiyyətlərdən azad olunurdular, ikinci qrupdakılar isə illik minimal pul vergisi ödəməli idilər. Sonuncuların torpaqla təminatı, təsərrüfat fəaliyyəti imkanları olmadığı üçün onların yalnız pul vergisi ödəməli olması ilə kifayətlənilirdi.

Beləliklə, yerlərdə rəncbərlərin sayının və mənsubiyyətinin, bunlarla bağlı digər məsələlərin kifayət qədər bəhs edilməsi və dəqiq araşdırılmasından sonra gəldiyimiz nəticələr üzərində bir qədər ətraflı dayansaq yerinə düşər.

İlk olaraq qeyd edək ki, birtərəfliliyinə, törətdiyi ağır, xoşagəlməz qanun pozuntularına, sabitliyin pozulması hallarına baxmayaraq öz mülahizələrimizi belə formalaşdırardıq: - ayrı-ayrı qəzalarda işğalın ilk dövrlərindən rəncbərlərin sayı artmağa başlayır. Yüksək rütbəli idarəçilik məmurları onların vəziyyətinin daha da pisləşməsinin, rəiyyət kəndlilərinin öz pay torpaqlarından məhrum edilməsi prosesinin daha da dərinləşməsinin qarşısını almaq məqsədilə müəyyən işlər görürlər. Bununla da bu məsələ ətrafında nisbi sabitlik təmin olunur.

Daha sonra, Qafqazın bir neçə baş hərbi rəisinin idarəçiliyi dövründə rəncbərlərin sayının azalmasının ardınca onların təyinatı, bağışlanması qaydaları dəqiq reqlamentləşdirilir. Bununla da yerlərdə müxtəlif səviyyə və pillələrdə vəziyyətdən sui-istifadə hallarının səviyyəsi tamamilə minimuma enir. Bu isə özlüyündə Azərbaycan kəndində sosial və siyasi sabitliyin təmin edilməsi və əhalinin kənd təsərrüfatının ayrı-ayrı sahələrində məşğulluq səviyyəsi və vəziyyətini müəyyən qədər yaxşılaşdırırdı [6, 227].

Artıq qaydaların yeniləşdirilməsi və dəqiq reqlamentləşdirilməsi gedişində ona nail olundu ki, bağışlanan rəncbərlər təkcə yerli mülkədar və bəylərin təsərrüfatlarında işçi qüvvəsi kimi istifadə olunmaqla bitmirdi. İndi idarəçilik pillərinin ayrı-ayrı yerlərində müxtəlif inzibati idarəçilik məmurlarının sərəncamına, özü də görəcəkləri işlərin dəqiq növü və formaları göstərilmək şərtilə, verilməsi hallarıda geniş təcrübədən keçirilirdi.

Yuxarıda bəhs etdiyimiz rus işğalının ilk iki onilliyində rəncbər kəndlilərinin sayının azalması ilə nəticələnən yoxlamaların yeni mərhələsi də özünü çox gözlətmədi. Əsas məqsəd ilk növbədə kəndlilərin rəncbərlərə çevrilməsi yolu ilə xərclənən gəlirlərin və dövlətin xeyrinə müəyyən mükəlləfiyyətləri yerinə yetirənlərin sıralarının azalması mərhələsinin məzmununu müəyyən edirdi.

XIX əsrin 30-cu illərində müstəmləkə zülmü əleyhinə 4 əyalətdə baş vermiş üsyanın səbəbləri yeni mərhələnin başlanmasında müəyyən rol oynamışdı. Artıq əsrin 30-cu illərinin sonlarında yeni yoxlamalara və onların nəticələrinə əsasən rəncbər kəndlilərin sayının azalması ilə müşayiət edilən yeni mərhələnin gedişində hökumət məmurlarının ən çox diqqət yetirdikləri məqsədlər daha çox indiyə qədər tabeliklərində olan rəncbərlərin bağışlanması

haqqında rəncbər kateqoriyasına keçirilmiş kəndlilərin əvvəlki statuslarının bərpası idi [4; 5; 6].

Lakin üsyanların təzəcə başa çatdığını yaddan çıxarmayan məmurlar bu işlərin tədricən həyata keçirilməsinə üstünlük verirdilər. Komendanlara ünvanlanmış məktublarda Qafqazın o vaxtki baş hərbi rəisi, sonralar 1840-cı il inzibati-məhkəmə islahatının əsas ilhamçısı və təşkilatçılarından biri olacaq knyaz Qolovin tövsiyə edirdi ki, bütün bu işlər heç bir tələskənliyə yol verilmədən, son dərəcə ciddi şəkildə nəzarət altında həyata keçirilsin [4, 7].

Bütün bunların nəticəsi idi ki, yuxarı təşkilatlara ünvanlanan şikayət məktubları və müraciətlər diyarda yenicə keçirilən inzibati məhkəmə islahatının uğursuz nəticələrinin yaratdığı yeni gərgin psixoloji, mənəvi, sosial durum şəraitində belə o qədər də hiss olunacaq əks - səda verə bilmədi.

Kənd yerində kateqoriyasından asılı olmayaraq kəndlilərin həyat və təsərrüfat vəziyyətini olduqca ağırlaşdıran hal əsrin ortalarınadək heç bir qanun və normativ sənədlərlə nizamlanmayan müxtəlif mükəlləfiyyətlərin necə yerinə yetirilməsi ətrafında baş verirdi. Çünki yerlərdə hökumət səviyyəsində mükəlləfiyyətlərin nədən ibarət olduğu, nə vaxt və nə şərtlərlə yerinə yetiriləcəyi haqqında tərəflərin heç birində yazılı təsdiqedici sənəd olmurdu. Hər şey yerli ənənələrə əsaslanırdı. Daha doğrusu, mülkədarların istəkləri və arzuları da elə bu münasibətlərdə onları hərtərəfli təlqin edən qeyri-müəyyənliyin qalması idi.

Niyyətlərindən və bu istiqamətdə atılmış addımların məzmun və nəticələrindən asılı olmayaraq, bəzən hökumət sənədlərində rəncbərlərin ümumi vəziyyətindən bəhs edilirdi. Lakin münasibətlərin konkretləşməsi və sabitləşməsindən söhbət açılsa da, onların heç birində konkret mövqe müəyyən olunmamış, qanunvericilik xarakterli sənədlər qəbul edilməmişdi.

Buna görə hər dəfə bu sahədə görülmüş işlərin səmərəsizliyi aydın olduqda, daha dəqiq desək, hökumət məmurlarının öz niyyətlərini və ya planlarını səmərəli sonluqla başa çatdırmaqda o qədər də maraqlı olmadıqları müəyyənləşdikdə yerli hakimiyyət strukturları hadisələrin əvvəlki axarında davam etmələrini vəziyyətdən yeganə düzgün çıxış yolu kimi qiymətləndirərək, heç nəyi dəyişdirmirdilər [7, 98]. Rəncbərlərin ağır həyat tərzi və dözülməz vəziyyəti onların sahibkarları üçün də yenilik deyildi. Lakin maddi maraqlarının məhz onların əvəzi ödənilməyən əməkləri vasitəsilə təmin olunması onlar üçün qalan cəhətlərə ən azı heç bir diqqət verilməməsindən daha maraqlı olurdu.

Qeyd etdik ki, qəzalar üzrə heç vaxt kəndlərdə rəncbərlərin sayı və bu növ fəaliyyətləri haqqında ümumiləşdirilmiş statistik hesabatlar hazırlanmamışdır. Ona görə də yuxarıda dediyimiz rəncbər kəndlilərin hətta torpaq sahələri, şəxsi təsərrüfatları, oradakı fəaliyyətləri ilə bağlı müəyyən rəqəmlərin haradan yaranması və ya götürülməsi haqlı sual doğura bilər. Ona görə də bildirməliyik ki, həm İran-Rusiya müharibələrinin gedişində, həm də əsrin 40-cı illərinin lap

əvvəllərində çarizmin yerli hakim siniflərin nümayəndələri ilə münasibətlərinin qeyri-sabit xarakter daşıdığı və hətta bəzən açıq qarşıdurmaya gəlib çatdığı vaxtlarda sonuncuların torpaq mülklərinin və digər əmlaklarının açıq-aşkar və iki mərhələdə baş vermiş müsadirə gedişində yerlərdə çar məmurları müsadirə edilmiş malikanə və torpaqlar haqqında çox geniş və ətraflı hesabatlar hazırlayırdılar. Bu sənədlərdə əmlakı müsadirə olunan bəy və ağaların bütün əmlakı, neçə kəndli təsərrüfatlarına malik olması, onların kateqoriyaları, təsərrüfat fəaliyyətləri, bir sözlə ən xırda detallarına qədər hər şey qeydiyyata alınırdı. Məhz bu hesabat və protokollar da bizim tədqiqatlarda rəncbər kəndlilərin sosial statusu, təsərrüfat vəziyyəti, yerinə yetirdikləri mükəlləfiyyətlər və s. məsələlər üzrə ən müxtəlif məlumatlar əldə etməyə və onları qismən təhlil etməyə imkan verir. Lakin bu vəziyyətdə məhdud cəhət odur ki, bu zaman, bəzən hətta müxtəlif kəndlər üzrə, birmənalı şəkildə isə qəzalar və əyalətlər üzrə tam dəqiq rəqəmlər əldə etmək mümkün olmur.

Müxtəlif səviyyələrdə rəncbər kəndlilərin bu cür diqqətsiz vəziyyətdə olmaları onların bir növ üçüncü növ kəndlilər kimi qəbul edilməsinə, bu səbəbdən də sahibkarlarının onlar üzərində nəzarətsiz və hərətərəfli özbaşınalıq şəraitinə, son dərəcə ağır istismar formalarına məruz qalmalarına gətirib çıxarırdı.

Bəzən aqrar xarakterli ədəbiyyatlarda rəiyyət və rəncbər kəndlilərdən ayrıca bəhs edilərkən əsas diqqəti sonuncuların aztorpaqlı və ya torpaqsız olmasına, hətta həm sahibkarların, həm də xəzinənin xeyrinə mükəlləfiyyətlər yerinə yetirmək məcburiyyətində qalmalarına yönəldirlər.

Gəldiyimiz qənaətlər içərisində yəqin ki, daha az mübahisə doğuranlardan biri bu oldu ki, Azərbaycan kəndindəki kəndli kateqoriyaları içərisində ən ağır istismar və təziqlərə məruz qalanlar məhz elə rəncbərlər olmuşlar. Əlbəttə, pay torpağı, əmək alətləri və vasitələri olmayan, nadir hallarda öz təminatını cüzi formada təmin edə bilən bu insanların, özləri də düşdükləri əlverişsiz vəziyyətlə heç cür barışa bilmirdilər.

Beləliklə, biz aktual olan bu mövzuya qısa nəzər salaraq bəzi qənaətlərimizi söylədik. Həm də indiyədək elmi dövriyədə rast gəlinməmiş bəzi məqamlar üzərində dayandıq. Bu mövzu ilə bağlı hər şeyin deyildiyini də demək tezdir. Yəqin ki, tarixçilərimiz hələ dəfələrlə bu mövzuya qayıdacaqlar.

## ƏDƏBİYYAT

1. ADTA., f.32, siy.1, iş 150

2. ADTA., f.75, siy.1, iş 5

3. Həsənova L.L. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq münasibətləri. Bakı. ADU, 1985. - 68 s.

4. Государственный исторический архив Грузинской Республики (ГИА ГР), ф.1, оп.1, д. 3238

5. ГИА ГР., ф.220, оп.1 , д.976

6. Колониальная политика Российского царизма в Азербайджане в 20-60 гг. XIX века. т. I. Издательство АН СССР., М.–Л.,1936.- 480 с.

7. Шукюров К.К. Отходничество в Закавказье из Южного Азербайджана (вторая треть XIX в. -1905 г.) Автореф. дис. канд. ист. наук. Баку, 1984.-28 с.

UOT 37

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNİN MƏKTƏBLİLƏRIN ƏXLAQİ-MƏNƏVİ TƏRBİYƏSİNDƏ ROLU

***Nigar Abdinova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Açar sözlər:** *gənclər, tərbiyə, milli-mənəvi dəyərlər, əxlaqi-mənəvi tərbiyə*

Ulu öndər Heydər Əliyev əxlaqi-mənəvi dəyərlərimizə Azərbaycan üçün milli ruhun, milli şüurun simvolu kimi baxırdı. Ümummilli liderimiz mənəviyyatı təmiz, pak, torpaq qədrini bilən, milli mədəniyyətini dərk edib onunla fəxr edən, milli adət-ənənələrini, tarixini, elmini, mədəniyyətini dərindən öyrənən gənclər yetişdirmək vəzifəsini təhsil işçiləri qarşısına başlıca məqsəd qoymuşdur. Heydər Əliyevin əsas ideyası gənc nəslin əxlaqi-mənəvi dünyasını söz və fikir dühaları olan babalarımızın yaratdığı və miras qoyduğu zəngin milli əxlaqi dəyərlər əsasında formalaşdırmaq olmuşdur.

# РОЛЬ НАСЛЕДИЯ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В МОРАЛЬНОМ И ДУХОВНОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ

***Нигяр Абдинова***

**Ключевые слова:** *молодежь, образование, национально-нравственные ценности, нравственное и духовное воспитание*

Великий лидер Гейдар Алиев рассматривал наши моральные и духовные ценности как символ национального духа и национального сознания для Азербайджана. Наш общенациональный лидер Гейдар Алиев перед работниками образования в качестве главной цели поставил задачу растить молодых людей, которые морально чисты, знают цену родной земле, осознают и гордятся своей национальной культурой, глубоко изучают национальные традиции, историю, науку и культуру. Основная идея Гейдара Алиева состоит в формировании морального и духовного мира молодого поколения на основе богатых национальных моральных ценностей, которые были созданы и оставлены в наследие нашими дедами, гениями слова и мысли.

# THE ROLE OF THE HERİTAGE OF THE GREAT LEADER HEYDAR ALİYEV İN THE MORAL AND SPİRİTUAL UPBRİNGİNG OF THE SCHOOLCHİLDREN

***Nigar Abdinova***

**Key words:** *youth, education, national and moral values, moral and spiritual upbringing*

The Great leader Heydar Aliyev considered our moral and spiritual values as a symbol of the national spirit and national consciousness for Azerbaijan. Our national leader Heydar Aliyev as the main goal set the task of forming young people who are morally clean, know the value of their native land, are aware and proud of their national culture, deeply study national traditions, history, science and culture. The main idea of Heydar Aliyev is to form the moral and spiritual world of the young generation on the basis of rich national moral values that were created and left to our heritage by our grandfathers, the geniuses of the word and thought.

Ulu öndər Heydər Əliyev əxlaqi-mənəvi dəyərlərimizə Azərbaycan üçün milli ruhun, milli şüurun simvolu kimi baxırdı. Onların yaddaşın fundamental prinsiplər əsasında formalaşmasına ardıcıl diqqət yetirirdi. Onun xalq mənəviyyatına, dini-mənəvi dəyərlərə bağlılıq fəaliyyətini səciyyələndirən baxışları məktəb və müəllim təcrübəsi üçün təhsilləndirici mənbədir. Milli mənəviyyata, xalq təsəvvürünə, böyük ədəb-ərkan dünyasına konseptual baxışları isə pedaqoji elm və təcrübə prosesi üçün çox dəyərli töhvədir.

Ulu öndər Respublika gənclərin Birinci Forumundakı (2 fevral 1996-cı il) çıxışında demişdir: "Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey olmaz...". Elə buradaca H.Əliyev göstərir ki, "Təhsil ocaqlarımızda gənclərimizi mənəvi cəhətdən sağlam və saf insanlar kimi tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" [1].

Müəllimlərimiz unutmamalıdır ki, gənclərimizin qarşısında xalqımıza, dövlətimizə, ölkəmizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsi durur. Hər bir gəncə dövlətimizin atributlarına - bayrağına, gerbinə, himninə hörmət və ehtiramla yanaşmaq əhval-ruhiyyəsi aşılanmalıdır.

Heydər Əliyevin əsas ideyası gənc nəslin əxlaqi-mənəvi dünyasını söz və fikir dühaları olan babalarımızın yaratdıqları və miras qoyduqları zəngin milli əxlaqi dəyərlər əsasında formalaşdırmaqdır. Bu torpaqda ana dilində

yaranmış söz sənəti ilə qanımıza, canımıza elə duyğular hopmuşdur ki, biz məhz həmin duyğularla vətəni, onun təbiətini, insanlarını sevmişik və bu sevgini yer üzündə yaşayan bütün insanlara çatdıra bilmişik.

Əxlaqın pozulması, mənəvi dəyərlərin aşınması sivilizasiyasının dağılmasına gətirib çıxardır. Milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması barədə ümummilli liderimiz Heydər Əliyevin bəyanatı, dərin məzmunlu çıxışı hər birimizin məsuliyyətini artırmışdır. H.Əliyev öz məruzəsində qeyd edirdi ki, "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik" [3].

Əxlaqi-mənəvi dəyərlər hər hansı millətin tarix boyu topladığı elm, incəsənət, şifahi və yazılı abidələr, əxlaq normaları, davranış qayda və qanunları, bütün yaxşı insani keyfiyyətlər toplusu, adət-ənənələr silsiləsini əhatə edir.

Azərbaycan xalqı da tarixən əxlaqi-mənəvi tərbiyəyə, insanın kamilliyinə ciddi yanaşmışdır. Tarixin müəyyən dövrlərində baş verən dəyişikliklər nəticəsində xalqımızın mənəviyyatı yad meyllərin təsirinə məruz qalsa da, xalq öz milli xüsusiyyətlərini, xarakterini, adət-ənənələrini qoruyub hifz edə bilmişdir.

Əxlaqi-mənəvi tərbiyənin ünsürlərindən hesab olunan mənəvi şüurla mənəvi davranışın vəhdətinin təmin edilməsində məktəblilərin zehni və fiziki inkişafının, fərdi xüsusiyyətlərinin nəzərə alınması xüsusilə əhəmiyyətlidir. Bu hər şeydən əvvəl ayrı-ayrı şagirdlərlə fərdi şəkildə işləyə bilmək qabiliyyəti tələb edir. Mənəvi davranış qaydalarının məktəbliyə aşılanması onun şüurunda yaranmış müsbət fikir yaratmaqdan ibarətdir. Tərbiyə prosesində məktəblilərdə zərərli adətləri və mənəvi əxlaqi sifətləri aradan qaldırıb müsbət amilə istiqamətləndirmək müəllimlərdən böyük pedaqoji məharət və səbr tələb edir.

Gənclərin şəxsiyyət kimi formalaşmasında məktəbin roluna xüsusi diqqət yetirən Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi ilk dövrdə Azərbaycan Müəllimlərinin VI qurultayındakı nitqində qeyd etmişdir ki, məktəbdə insanın mənəvi keyfiyyətlərinin əsası qoyulur, onun baxışları, arzu və istəkləri formalaşır, onun rəhbər tutduğu mənəvi meyarlar bir çox cəhətdən müəyyənləşir. Müəllimin mənəvi-əxlaqi siması, ideya inamı, baxışlarının sabitliyi, səmimiliyi və vicdanlılığı məktəbdə qüdrətli tərbiyə amilidir [2].

İnsanın əxlaqi inkişafı ömrü boyu davam etsə də, onun başlıca keyfiyyətləri uşaqlıq, yeniyetməlik və gənclik dövründə təşəkkül tapır. İlk əxlaqi keyfiyyətlərin əsası ailədə qoyulsa da, məktəbdə inkişaf etdirilməlidir. Onlara alicənablıq, əliaçıqlıq, başqasına əl tutmaq, bizə dədə-babadan miras

qalmış qonaqpərvərlik, böyüklərə hörmət, kiçiklərə nəvaziş göstərmək, insanpərvərlik, dostluq və yoldaşlıq, sadəlik və təvazökarlıq və s. kimi gözəl xüsusiyyətlər aşılanmalıdır.

Cəmiyyətdə yaşayanlar arasında özünü necə aparmağı müəyyənləşdirən qaydalar olmasa həyatda bütün insanlar çətinlik çəkərlər. Belə qaydalar olmasa cəmiyyət bir gün də yaşaya bilməz. Bu qaydalar cəmiyyətin şüurunda, adət və xüsusiyyətlərində yaşayır. Həmin adət-ənənələr bir gündə, bir saatda, bir ildə, bir anda yaranmır. Onlar uzun bir yol keçərək bu günümüzə gəlib çıxmışdır. Odur ki, hansı adət-ənənələrə malik olduğumuzu bilməli, həyatımızda onları yaşatmalı və qorumalıyıq.

Heydər Əliyevin fikrincə, millət və cəmiyyətin mənəvi potensialına arxalanaraq, xalqın, Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin birləşdirilməsi mənəvi tərbiyənin mühüm funksiyalarından biridir. Bu birliyin həyata keçirilməsinin başlanğıc pilləsini vətənin, ölkənin bu günü və gələcəyi, millətin sabahkı günü üçün fərdlərdə yüksək məsuliyyət hissinin formalaşdırılması təşkil edir. İkinci pilləsini isə millət və cəmiyyətin mənəvi və əxlaqi birliyi təşkil edə bilər. Əgər xalqın mənəvi və əxlaqi birliyi təmin edilmişsə, deməli, bir çox sosial və siyasi məsələlərin həlli asanlaşar və reallaşa bilər.

Heydər Əliyevin pedaqoji görüşlərində gənclərin mənəvi tərbiyəsinin mühüm yollarının interpretasiyası əsas yer tutur. Onun maraq doğuran tövsiyyələr müəllifi olması bir daha sübut edir ki, Heydər Əliyev gənclərin tərbiyəsi işinə elmi əsaslarla yanaşır, ona yüksək məharət tələb edən bir sənət, gərgin, fədakar əmək sahəsi kimi dəyər verir. Bu əxlaqi anlayışlar yetişməkdə olan gənc nəsli tərbiyə etmək üçün tarixin bütün mərhələlərində yüksək əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev insanı ucaldan, onu zənginləşdirən mənəviyyat komponentlərinə milli Azərbaycan vətənpərvərliyini, adət-ənənələrimizi, dini dəyərlərimizi, düşmənə nifrəti, milli-iftixar hissi, böyüklərə hörməti, şərəf və milli ləyaqəti, inam, dostluq və yoldaşlığı, düzlük və doğruçuluğu və s. keyfiyyətlər daxil edir. O, haqlı olaraq demişdir ki, öz dilini bilməyən, öz dilini sevməyən adam əlbəttə ki öz tarixini yaxşı bilməz. Ana dilini bilməyən adam Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Cavidi, Sabiri, M.Cəlili oxuya bilməz. Buna görə də öz dilimizi öyrənməli və gənc nəslə öyrətməliyik.

Heydər Əliyev tövsiyyə edirdi ki, gəncləri vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə etmək üçün orta məktəblərdə çox iş görülməlidir. Müstəqil dövlətdə yaşayan hər bir vətəndaş birinci növbədə bu dövlətin müstəqilliyinin, suverenliyinin təmin olunmasını öz həyatının əsas vəzifəsi və məqsədi bilməlidir. Ona görə də bizim təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlardan vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün pedaqoji proses, xüsusən humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, torpağa bağlılıq, vətənpərvərlik ruhu aşılansın, tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrilsin. Odur ki, məktəblərdə bu fənləri

tədris edərkən vətənpərvərlik əhval-ruhiyyəsinin aşılanması ilə də ciddi məşğul olmaq lazımdır.

Milli-mənəviyyatımıza aid olan, əxlaqi sifətlərdən biri olan vətənpərvərlik hissi ilə Heydər Əliyevin xüsusi bağlılığı vardır. Çünki, o, həyatı boyu vətənə sadiq olmuş, vətəni, xalqı üçün çalışmışdır. O, nitqlərinin birində belə bir fikir söyləmişdir: "Vətəni sevmək, torpağa, doğma yurda, el-obaya bağlılığını əməli ilə nümayiş etdirmək lazımdır, çünki bizim hamımızın vəzifəsi vətənə sədaqətli olmaq, şəhidliyə hazır olmaq, hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" [1].

Milli vətənpərvərlik Azərbaycanda yaşayan bütün millətlərin vətənpərvrliyidir. Çünki, Azərbaycan onların hamısının vətənidir. Azərbaycan xalqı deyəndə Azərbaycanda yaşayan bütün millətlərin birliyi başa düşülür. Bu xalqın vətənpərvərliyinin dərin kökləri vardır. Azərbaycan vətənpərvərliyi Azərbaycanın müstəqilliyinin qorunmasına xidmət edir. Hiyləgər ermənilər tarix boyu millətlərin bu xüsusiyyətlərini təhqir etməyə, Qafqazda yaşayan xalqların torpaqlarına sahib durmağa, onlara böhtan atmağa çalışmışlar.

Heydər Əliyevin istəyi, arzusu ana məhəbbəti qədər müqəddəs olan vətən sevgisini gənclərə aşılamaq, mənəviyyatlarına hopdurmaq olmuşdur. Çünki, insan hansı məqama, mərtəbəyə yüksəlsə də, hansı ucalığı fəth etsə də, ilk və əbədi istinadgah vətən torpağıdır. Hər bir insanın ilk təsəvvürləri, dünyagörüşü bu torpaqda formalaşır, bu torpaqdan vüsət alır.

Hər bir müəllim, təhsil işçisi bilməlidir ki, vətən sevgisi, doğma yurda məhəbbət asanlıqla tərbiyə edilmir. Bu mürəkkəb prosesdir. Vətənsevərlik tərbiyəsinin yüksək zirvəsi hərbi xidmətdir. Heydər Əliyevin müstəqillik siyasətində hərbi-vətənpərvərlik, milli ordunun yaradılması, onun işinin təkmilləşdirilməsi mühüm yer tutur. Bu gün ən başlıca vəzifə hər bir Azərbaycan övladını orduya xidmətə hazırlamaqdan ibarət olmalıdır. Gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsində ümumtəhsil məktəblərinin rolu böyükdür.

Düşmənə nifrət tərbiyəsinə uşaq bağçalarından, ibtidai məktəblərdən başlamaq vacibdir. Bunun üçün dərsliklərdə verilmiş mətnlərdən, folklor nümunələrindən istifadə etmək lazımdır. Azərbaycan məktəbləri bu gün bu istiqamətdə çalışmalı, milli və ümumbəşəri əxlaqi-mənəvi sərvətlərə yiyələnməlidirlər.

Heydər Əliyevin əxlaq tərbiyəsi ilə bağlı tövsiyələri də olduqca maraqlıdır. Xüsusilə də bu gün yabancı əxlaq tərzinin, pozğun mənəviyyatın surətlə sirayət etdiyi bir dövrdə, rəhbərin ağıllı tövsiyə və məsləhətləri gənclərimizin tərbiyəsində əvəzsiz rol oynayır.

Əxlaqi-mənəvi tərbiyənin məzmununu təşkil edən keyfiyyətlərdən inam və əqidə insanın əxlaqi-mənəvi həyatının əsasını təşkil edir. Çünki, inam olmasa istər ailədə, istərsə də əmək kollektivində yaşamaq, işləmək çox

çətinləşər. İnamsızlıq ailəni dağıtdığı kimi, kollektivləri də sarsıdır, adamlar arasında narazılığın, xoşagəlməz halların baş verməsinə səbəb olur. Məhz insan öz əqidəsinə, öz davranışına inam əsasında hərəkət edir.

Əxlaqi-mənəvi tərbiyənin məzmununu təşkil edən əsas keyfiyyətlərdən biri də əqidədir. İzahlı psixoloji lüğətdə deyilir: "Əqidə-şəxsiyyəti öz dəyərlər sisteminə uyğun olaraq hərəkət etməyə zövq edən dərk olunmuş tələbatdır". Əqidə və inam insanın əxlaqi-mənəvi şüuru ilə, əxlaqi-mənəvi davranışları arasında möhkəm əlaqə yaradaraq onları tənzimləyir, hərəkətə gətirir. Ulu öndərimiz H.Əliyev irsində inam və əqidə tərbiyənin məzmununu təşkil edən, onun mühüm tərkib hissələrindən biri kimi göstərilərək insanı qorxmazlığa, mərdliyə, firəvanlığa, yüksək amala, düzlüyə sövq edən əxlaqi-mənəvi komponentlər olaraq çox yüksək dəyərləndirilir. Onun irsində bu əxlaqi-mənəvi dəyərlər yalnız əxlaqi-mənəvi keyfiyyətlərin ifadə tərzi deyil, eyni zamanda onların formalaşması üçün ən güclü tərbiyə vasitələrdən biridir.

Bu gün Heydər Əliyev nümunəsində bilikli, savadlı, zəhmətsevər, daim öyrənən və öyrədən, xalqına layiqincə xidmət edən nəslin formalaşdırılması əsas qayğılarımızdan biridir. Ona görə ki, cəmiyyətimizin mədəni, əqidəli, fəal, daim axtarışda olan, xalq üçün Vətən naminə yaşayıb, işləməyi bacaran vətəndaşlara ehtiyacı olduqca böyükdür.

Buna görə də hazırda tərbiyə işinin qarşısında duran ən başlıca vəzifə gənclərimizi H.Əliyev nümunəsində və onun irsi əsasında tərbiyə etmək olmalıdır.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev “Seçilmiş fikirlər”, Bakı-1997, 76 s.

2. "Kommunist" qəzeti ."Möhkəm ideyalı, hər tərəfli inkişaf etmiş gənclər tərbiyə etməli", 19 may 1978-cı il.

3. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində məktəb, ailə və ictimaiyyətin birgə fəaliyyəti. Bakı-1985.

UOT 070

# "MOLLA NƏSRƏDDİN" JURNALINDA MÖVHUMATÇILIĞIN TƏSVİRİ VƏ TƏNQİDİNƏ NƏZƏRİ BAXIŞ

***Kamal Camalov***
*Azərbaycan Respublikasının*
*əməkdar müəllimi*
*kamal.camalov@gmail.com*

**Açar sözlər:** *mövhumatçılıq, xurafat, "Molla Nəsrəddin", qadın, teatr,*

Məqalədə xalqın milli mənlik şüurunun oyanması, kütlənin maariflənməsi, xurafatdan yaxa qurtarması, qadınların təhsil alması, əlifba layihəsinin həyata keçirilməsi kimi məsələlərə ilk ciddi cəhd göstərən Mirzə Fətəli Axundovdan bəhs olunur. Bir çox səbəblərdən birini əsas götürərək qeyd edək ki, "Molla Nəsrəddin" jurnalı M.F.Axundovu "milli ədiblərimizin atası" adlandırmışdır. Jurnal M.F.Axundovun "Hekayəti-mərdi-xəsis" və ya "Hacı Qara" komediyasını mötəbər əsərlər cərgəsinə, Avropa ədəbiyyatı sıralarına daxil olmasının layiqliyindən bəhs edir. Yunanıstanda Homer, İngiltərədə Şekspir, Almaniyada Lassal, Rusiyada Qoqol, İtaliyada Ançello, İspaniyada Gökman kimi böyük mütəfəkkirlərin sıralarına Axundovun da qızıl hərflərlə yazılmasını arzulayır. "Molla Nəsrəddin" jurnalında Axundovla bağlı daha çox istinad olunan məsələlərdən biri qızların, qadınların təhsilə cəlb olunması ideyası olmuşdur. Ancaq bu elə bir dövrə təsadüf edirdi ki, bu məsələdən "qan qoxusu" gəlirdi, bir "od" olub vücudu yandırmaq gücünə malik idi. "Təbii ki, belə bir məsələyə toxunmaq yazıçıdan böyük cəsarət tələb edirdi". "Axundovu özünə mənəvi ata hesab etmiş" Cəlil Məmmədquluzadə belə bir məsələni daha gözəl təsvir etmişdir. Məqalədə Mirzə Fətəli Axundov və "Molla Nəsrəddin" ədəbi-pedaqoji irsi geniş aspektdə təhlil edilmiş, tədqiqat obyektinə çevrilmişdir.

## ТЕОРЕТИЧЕСКИЙ ВЗГЛЯД НА ОПИСАНИЕ И КРИТИКУ СУЕВЕРНОСТИ В ЖУРНАЛЕ «МОЛЛА НАСРЕДДИН»

***Кямал Джамалов***

**Ключевые слова:** *Догматический, предубеждение, «Молла Насреддин», женщина, театр*

В статье констатируется, что первым просветителем, серьезно старавшимся для пробуждения национального самосознания народа, просвещения толпы, освобождения от суеверия, получения женщинами образования, осуществления алфавитного проекта, был Мирза Фатали Ахундова. На основе этого журнал «Молла Насреддин» назвал Мирзу Фатали Ахундова «Отцом национальной литературы», а его комедию «Приключение скряги» или «Хаджи Кара» считал достойным находится в ряду ярких произведений передовых литератур, в том числе европейской литературы. Журнал на своих страницах изявляет желание видеть Ахундова на ряду таких видных мыслителей мира как Гомера Греции, Шекспира Англии, Лассаля Германии, Гоголя России, Анчелло Италии, Гек"мана Испании. Одним из важных вопросов, связанных с Ахундовым, которые рассматривались в журнале «Молла Насреддин», являлось вовлечение представителей женского пола в образование. Как замечает Джалиль Мамедкулизаде, считавшего Ахундова «своим духовным отцом», «это был период, когда от этого вопроса «пахло кровью», он как огонь мог бы «сжечь все и вся». В статье литературно-педагогическое наследие Мирзы Фатали Ахундова и «Моллы Насреддин»а было проанализировано в широком аспекте, что и стало объектом настоящего исследования.

## ON THE THEORETICAL OVERVIEW ON THE DECRIPTION AND CRITICISM OF SUPERSTITION IN "MOLLA NASRADDIN" MAGAZINE

***Kamal Jamalov***

**Key words:** *Dogmatic, prejudice, "Molla Nasreddin", woman, theater*

In the article is noted that Mirza Fatali Akhundov was a first seriously trying educationist who wanted to wake up of people's self-consciousness, to get education of people, to get rid of prejudice, to get education of woman, to realize of project alphabet. Therefore magazine "Molla Nasraddin" has called M.F.Akhundov as "father of national literati". Magazine is about the denoting "Hekayati-mardi-xasis" or comedy "Haji Gara" of M.F.Akhundov to reliable works line, entering into the line of Europe literature. It also wish to be written with golden letters the name of M.F.Akhundov as Homer in Greece, Shakespeare in England, Lassal in Germany, Gogol in Russia, Anchello in Italy, Gokman in Spain. One of the most referenced issues related to M.F.Akhundov given in magazine "Molla Nasraddin" is the idea about attending of girls, women to education. But it coincide with such period that this issue smell as "the smell of blood", had the power of to burn the body as "fire". Of course to

touch such a issue demanded the great brave of writer. Jalil Mammadguluzade who consided M.F.Akhundov mutual father for himself has described more beautiful such a issue. In the article the literary-pedagogical heritage of M.F.Akhundov and "Molla Nasraddin" has analysised at the huge aspect, has overturned into the research object.

Xalqın milli mənlik şüurunun oyanmasına, kütlənin maariflənməsinə, xurafatdan yaxa qurtarmağa, qadınların təhsil almasına, əlifba layihəsinin həyata keçirilməsinə ilk ciddi cəhd göstərən Mirzə Fətəli Axundov olmuşdur desək, yanılmarıq. "Molla Nəsrəddin" jurnalında Məhəmməd Füzuli "yeniliyə məğlubolunmaz və sarsılmaz bir qüvvə" [1] kimi dəyərləndirilirsə, M.F.Axundov "milli ədiblərimizin atası" [2] elan edilir. Biz burada Axundovun yaradıcılığına yox, ictimai görüşlərinə nəzər salmaq istəyirik. Çünki Axundovsuz mollanəsrəddinçilərin "yaradıcılığını tamamilə qavramaq, düzgün anlamaq və onların xüsusiyyətlərini meydana çıxarmaq olmaz" [3, 25]. Ümumiyyətlə, M.F.Axundov ideyalarını öz dövrünə görə "Molla Nəsrəddin" jurnalı qədər heç bir qəzet və jurnal təbliğ etməmişdir.

Bildiyimiz kimi, M.F.Axundovu daha çox narahat edən məsələlərdən biri dinlər və məzhəblər arası konfliktlər idi. Belə ki, yer üzündə bir neçə klassik din, həmin dinlərin daxilində də fərqli məzhəblər mövcuddur. Əsrlər boyunca həmin dinlərə və məzhəblərə mənsub insanlar arasında ixtilaflar olmuş, bu ixtilaflar hətta gətirib müəyyən müharibələrə, toqquşmalara, qırğınlara çıxarmışdır. Nəticə etibarı ilə din, məzhəb qovğaları insanpərvərliklə uyuşmur. Burada bəşər övladına sevgi yox, nifrət aşılanır. Axundov da bu zərərli məzhəblərə qarşı kəskin mübarizə aparırdı. "Həkimi-ingilis Yuma cavab", "Molla Ələkbərlə mübahisə", "Babilik əqidələri" [4] və s. kimi ədəbi-tənqidi və tarixi məqalələrində dediyimiz məzhəb ixtilaflarını bəşəriyyət üçün "şərr və fəsad" hesab edirdi. Müəllif aydınlaşdırırdı ki, əqidələrdə istər dini yanaşmada olsun, istərsə də fəlsəfi fərqi yoxdur, çoxlu səhvlər mövcuddur. Ona görə də "İslam dini ancaq o zaman yaşayıb davam edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar" [4, 247]. Axundov yazır ki, "Əgər bir şəxs öz mənliyini tanıyırsa, allahını da tanımışdır; əgər allahını tanıyırsa, öz mənliyini də tanımışdır" [4, 241].

M.F.Axundov tərki – dünyalıq ideyalarını təbliğ edən insanlara həyatda ən adi zövqləri belə qadağan edən yalançı din nümayəndələrini ciddi surətdə pisləyirdi. O, insan ləyaqətini alçaldan ruhaniləri şarlatan adlandıraraq onlara "... Ey vaizlər, ey mollalar, ey şarlatanlar, nə üçün cəhənnəm hədəsilə biçarə avam camaatı başqa millətlərlə qaynayıb qovuşmağa, elm və sənət öyrənməyə qoymursunuz?" [4, 226].

Göründüyü kimi, Axundov nahaq yerə “Molla Nəsrəddin” jurnalında məhəbbətlə, iftixarla “böyük söz ustadı”, “dərin və hikmətli söz sahibi”, “yüksək, bəşəri ideallar tərənnümçüsü”, “ədəbiyyatımızın fəxri” və ən nəhayət “milli ədiblərimizin atası” adlandırılmır. “Molla Nəsrəddin” jurnalının üslubuna uyğun, sadə bir dildə oxuyuruq: “Axı Mirzə Fətəli kimdir? Bəli, yazıçıdır. Çox gözəl, sözüm yoxdur. Mirzə Fətəli nə yazıb? Bəli, komediyalar, yəni məzhəkəli təmsillər yazıb. Yaxşı, heç sözüm yoxdur. Vaqiən çox gözəl yazıb. Avropanın Molyerlərindən, Rusiyanın Qoqollarından pis yazmayıb. Və əgər Rusiyada və Avropada Qoqol və Molyerlərə yadigar bina etmək lazımsa, onların adlarına cəmiyyətlər təsis etmək rəva görünürsə Mirzə Fətəli dəxi daha artıq hörmətə layiqdir” [5].

Ancaq “Molla Nəsrəddin” jurnalının sonrakı nömrələrini vərəqləyərkən oxuyuruq ki, Axundovun vətən qarşısında bu kimi xidmətlərinə qarşı nəinki heykəl ucaltmaq, Axundovun dağılmış qəbrinə belə məhəl qoyulmamış, etinasız yanaşılmışdır. Qəbiristanda dayanan iki nəfər arasındakı (şəklin altında) mükaliməyə nəzər salaq:

- “Bu dağılmış qəbir kimindir?
- Mirzə Fətəli Axundovundur.
- Bəs bu gümbəzli qəbir kimindir?
- Bu da seyid qəbridir” [6].

Bu kiçik dialoq parçasına diqqət edərkən belə qənaətə gəlmək olur ki, Azərbaycan ədəbiyyatında dram janrının, komediya növünün, ədəbi tənqidin, dramaturgiyamıza ilk Qərbli obrazının gətirilməsinin əsasını qoyan, yuxarıda qeyd etdiyimiz kimi, xalqı elmə, təhsilə, mədəniyyətə çağıran, milli-mənəvi dəyərlərimizin qorunması, milli əxlaqımızın saflaşdırılması uğrunda yorulmadan mübarizə aparan Mirzə Fətəli Axundovun məzarından xalqın qarşısında heç bir xidmətləri olmayan adi bir seyidin qəbrinin üstün tutulması tənqid hədəfinə çevrilir. Bu, həm ədəbi tənqid, həm cəhalətin oyanış ideyası, həm də pedaqoji fikir tarixindən gələn tərbiyə örnəyidir.

Jurnalda qeyd edilir ki, Axundovun “...Şöhrəti indi nəinki müsəlman aləmini basıb, bəlkə Avropa dillərində bunun (Axundovun – K.C.) ismi söylənir. Mirzə Fətəli Axundovu müsəlman içində çoban da eşidib, padşahlar da bilir” [7]. Axundovun yaradıcılığından Avropanın da xəbəri olmasında təbii ki, ciddiyyət çoxdur. Ancaq Axundovu müsəlman aləmində “çoban da eşidib, padşahlar da” fikrində daha çox özünəməxsus eyham öz əksini tapır. Əbdürrəhimbəy Haqverdiyev yazır ki, Axundov xalqın avamlığına, cəhalətinə və mövhumi adətlərə qarşı amansız mübarizə aparırdı. “O, ruhanilərlə, şeyxülislamla daim dini mövzularda mübahisələr edir və dini ehkamların şərhində onların cahil olduğunu məntiqlə sübut edirdi. O zaman Mirzə Fətəlinin yerinə kim olsaydı, avam kütlə onu parça-parça edərdi, çünki o vaxt elə bir zaman idi ki, xalqın cəhaləti son dərəcə güclü idi və ruhanilər xalqın ağlını istədikləri tərəfə

istiqamətləndirirdilər, xalq onların arzularına kor-koranə tabe olurdu” [8, 340]. Çünki Axundov deyirdi ki, nə qədər ki, “... xariqələrə, möcüzələrə, caduya, sehrə, mələklərə, cinlərə, şeytanlara, divlərə, pərilərə və başqa bu kimi mövhum şeylərə inanacaqsınız elə əbədi olaraq cəhalətdə də qalacaqsınız” [4, 237].

Axundov dövrünün məşhur “Həqqülyəqin”, “Məsaibül əbrar”, “Zadül-məad”, “Qəvaid”, “Ərbəin”, “Təfsiri-kəbir” və s. kimi dırnaqarası “hədis kitabları”ndan gətirilən misallarla xalqı cəhalət girdabında saxlamağa çalışan molla cabbarlara, molla məmmədbağırlara, molla sadıqlara sərrast söz atəşi açaraq yazır: “Öz aləmində hədis adlandırdıqları bu kitablarda o qədər cəfəngiyyat var ki, oxuduqca adamın əti tökülür” [4, 268] (Kursiv bizimdir – K.C.). Bu kimi ət tökən fikir və görüşlər, bu kimi “hədis kitablar”a gülünc baxış “Molla Nəsrəddin” jurnalının səhifələrində öz əksini tapmışdır. Cəlil Məmmədquluzadənin özünəməxsus gülüş məntiqi ilə qələmə aldığı “Elmi söhbət” adlı felyetonunda “dəli”nin məntiq dolu suallarına ixtisarla da olsa nəzər salaq:

Dəli – Axund, Nuh peyğəmbər tufan zamanında gəmisinə kimləri qəbul elədi?

Axund – Yalnız iman gətirənləri.

Dəli – Çox əcəb, şəkk yox ki, asilərin başçısı olan və Həzrəti Adəmi aldadan şeytani-məlun da tələf oldu.

Axund – Təəssüf ki, şeytani-məlun bijliklə yaxasını qurtardı.

Dəli – Aman, bir de görək, şeytan nə cür bijliklə yaxasını qurtardı?

Axund – Şeytana bijlik əskikmi? Eşşək gəmiyə girəndə o da quyruğuna yapışıb gizlicə daxil oldu və tufandan canını qurtardı.

Dəli – Vay, zalım oğlu, kaş Nuh peyğəmbər görüb suya buraxaydı və canımızı o məlundan qurtaraydı. Axund, bu gözəl elmlər hansı kitablarda yazılıb? İttifat edib öyrədiniz ki, biz də oxuyub alim olaq.

Axund – Köhnə kitabların, hətta bir para təfsirlərin hamısında, xüsusən gəncəli Şeyx Hacı Həsən Mollazadə cənablarının “Zibdətül-təvarix” adındakı ibrətli tarix kitabında... [9]

Göründüyü kimi, Mirzə Fətəli Axundovun ürəyindəki dərdləri, acıları Cəlil Məmmədquluzadənin ibarəsi ilə desək “Molla Nəsrəddin” jurnalı meydana qoyub intişar (intişar – yaymaq mənasında) etmişdir.

“Molla Nəsrəddin” jurnalı Mirzə Fətəli Axundov yaradıcılığının “daha artıq hörmətə layiq” [10] olması səbəbini bir neçə aspektdə izah edir. Bu aspektdən biri də ilk dəfə olaraq Axundov tərəfindən qızların, qadınların təhsilə cəlb olunması ideyası idi. Həmçinin bu məsələ “M.F.Axundovla “Molla Nəsrəddin” ədəbi məktəbi arasında körpü təşkil edir” [11, 4]. “Qadın azadlığı məsələsi Mirzə Fətəli Axundovun nəzərində xüsusi əhəmiyyəti olan” [12, 166] bir məsələ idi. Həm də elə bir məsələ idi ki, bu məsələdən “qan qoxusu” gəlirdi, bir “od” olub vücudu yandırmaq gücünə malik idi. “Təbii ki, belə bir məsələyə toxunmaq yazıçıdan böyük cəsarət tələb edirdi” [13, 82]. “Axundovu özünə

mənəvi ata hesab etmiş" [14, 4] Cəlil Məmmədquluzadə belə bir məsələni daha gözəl təsvir edərək yazırdı: "Qadın ləfzi islam aləmində indiyədək "od" olubdur ki, ona əl vurmaq, barıta əl vurmaq kimi xatalı hesab olunubdur. İslamın şəriəti, necə ki, məlumdur, qadını kişilərə naməhrəm tutubdur və bu qanunu pozmaq günahi-kəbirə (Günahi-kəbir – böyük günah – K.C.) qəbilindən sayılırdı" [15, 269]. Əlbəttə, Cəlil Məmmədquluzadənin söylədiklərində özünəməxsus satirik şişirtmələr olsa da həqiqət acı, mənzərə kədərlidir. Mollanəsrəddinçi Əbdürrəhim Bəy Haqverdiyev isə Mirzə Fətəli Axundovun qorxmadan, çəkinmədən qadın hüquqlarından söhbət açması səbəbini "çiyinlərindəki parıldayan epoletlərdən ibarət möhkəm arxası" [8, 366] olmasında görürdü.

Qadınların "əsarət altında yaşaması Axundov üçün böyük bir dərd" [16, 87] olsa da, ancaq "başladığı işin gec-tez nəticə verəcəyinə əmin idi" [17, 108]. M.F.Axundov dram əsərlərində, məktublarında, fəlsəfi fikirlərində xalqı başa salır və müraciət edirdi ki, qadınları azad edin, onları qaranlıq evlərin qapalı divarları arasında həbs etməyin, onların tərbiyəsi ilə məşğul olun. "Ey camaat! Qadınları həbsdə, örtük altında saxlamaq böyük zülm olmaqdan əlavə, eyni zamanda bəşəriyyətin yarısı haqqında edilən bu haqsızlığın kişilər üçün də hədsiz-hesabsız zərəri vardır... Qadınları həbsdə və örtükdə saxlamayın! Onları tərbiyəsiz qoymayın, onları zülm və haqsızlığı rəva görməyin. Bir nəfərdən artıq arvad almayın!" [4, 256]. Göründüyü kimi, "müasirləri arasında M.F.Axundovu fərqləndirən başlıca cəhət – onun aydın dünyagörüşə malik olması idi" [18, 9]. "Molla Nəsrəddin" jurnalının ümumilikdə 748 nömrəsini vərəqləyərkən (340 nömrəsi Tiflisdə, 8 nömrəsi Təbrizdə, 400 nömrəsi Bakıda nəşr olunub) elə bir nömrə tapa bilmərik ki, o nömrədə Axundovun böyük arzusu olan qadın hüququ, qadın azadlığı, qadın təhsili məsələsi işıqlandırılmasın.

Xalqın maariflənməsinin, dünyagörüşünün formalaşmasının bir yolunu da "komediyanəvislərin atası və yol göstərəni" [19, 256] Mirzə Fətəli Axundov teatr və musiqidə görürdü. Yalançı axund və mollalar teatrı, musiqini, rəssamlığı və s. islam aləminə haram buyrulduğunu təbliğ edirdilər. Yenə də Axundov yalançı din mücahidlərinə qarşı gələrək yazırdı: "Nəğmə oxuma, haramdır; nəğməyə qulaq asma, haramdır; nəğmə öyrənmə, haramdır; teatr yəni tamaşaxana qayırma, haramdır; teatra getmə, haramdır; rəqs etmək məkruhdur; rəqsə tamaşa eləmə, məkruhdur; saz çalma, haramdır; saza qulaq asma, haramdır; şahmat oynama, haramdır; nərd oynama, haramdır; mənzilində heykəl saxlama haramdır" [4, 226]. Axundov yazır ki, halbuki bunlar "müəyyən ölçüdə olarsa, insanın düşüncəsinə cila verir, əqli saflaşdırır və artırır". "Xalqla danışmaq, onu mədəniyyətə və maarifə çağırmaq üçün ən yaxşı vasitə teatr səhnəsi idi" [8, 369]. Bu mənada "Axundov dramı sənətlərin ən şərəflisi hesab etmiş" [20, 73], "ədəbiyyatda dramaturgiyaya böyük ehtiyac olduğunu dərindən duyaraq, klassik Azərbaycan dramaturgiyasının" [21, 200] "təməl daşını" [22, 246] qoymuşdur. "Molla Nəsrəddin" jurnalında Mirzə Fətəlinin "Sərgüzəşti-

mərdi-xəsis" və ya "Hacı Qara" komediyasına baxış və nəzəri diqqət öz əksini tapır. "Özünü Axundovun tələbəsi hesab edən" [23, 129] Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında yazır ki, qədim Yunanıstanda Homerin, İngiltərədə Şekspirin, Almaniyada Lassalın, Rusiyada Qoqolun, İtaliyada Ançellonun, İspaniyada Gökmaninin mötəbər əsərləri min illər keçsə də mətbuat aləmində əbədiyyən yadda qalacaqdır. "Mərhum Mirzə Fətəlinin "Hacı Qara" kimi bir komediyası Avropa nöqteyi-nəzərincə və mötəbər əsərlərin cərgəsinə daxil olmalıdır" [24]. Yenə də "Molla Nəsrəddin" jurnalında qeyd olunur ki, böyük yazarlar zamanın yaxşı əsərləri səviyyəsində olan ölməz əsərlər yaratmışlar. Həmin əsərlər uşaqlarımızın bədii tərbiyəsinə öz müsbət təsirini göstərə bilər, onlardan istifadə etmək lazımdır. Ə.Haqverdiyev Azərbaycan xalqının böyük oğlu – filosof, klassik ədəbiyyat nümayəndəsi olan M.F.Axundovun "Hacı Qara" komediyasına yüksək qiymət verərək qeyd edir ki, bu əsər dünya ədəbiyyatında böyük şöhrət qazanıb. Doğrudan da "Hacı Qara" əsəri realist bir əsər kimi dünya ədəbiyyatında özünəməxsus yer tutur. Axundov bu əsərdə feodal – patriarxal dünyasının çürüklüyünü, istismarını, tacirlərin çürük əxlaqi keyfiyyətlərini, tamahkarlığını pisləyir.

"Molla Nəsrəddin" jurnalı bədii zövqü inkişaf etdirmək, uşaq və gəncləri estetik-bədii cəhətdən tərbiyə etmək üçün teatr tamaşalarının oynanılmasına yüksək əhəmiyyət vermiş, Axundovun teatr və musiqi ilə bağlı ideyalarını təbliğ edərək "Teatr və musiqa" ("Molla Nəsrəddin" jurnal, 1906, №28), "Teatr" ("Molla Nəsrəddin" jurnal, 1911, №16), "Teatro və musiqi" ("Molla Nəsrəddin" jurnal, 1914, №14), "Teatr və musiqi" ("Molla Nəsrəddin" jurnal, 1914, №15), "Teatromuz" ("Molla Nəsrəddin" jurnal, 1922, №2), "Dövləti türk teatrosunda" ("Molla Nəsrəddin" jurnal, 1923, №11), "Teatro və musiqi" ("Molla Nəsrəddin" jurnal, 1923, №28), "Teatro açıldı" ("Molla Nəsrəddin" jurnal, 1924, №20) və sair kimi yazılarda musiqinin və teatrın tərbiyəvi əhəmiyyətindən çoxlu-çoxlu bəhs etmişlər.

M.F.Axundovun 100 illik yubileyini "Molla Nəsrəddin" jurnalı "Milli bayram" adlandıraraq böyük ehtiramla yad edir. Düzdür, yubileydə Axundov şəxsiyyətinə, yaradıcılığına laqeydlik çox hiss olunsa da Cəlil Məmmədquluzadə inanır ki, dövr keçəcək, zaman gələcək Axundov irsi layiqincə dəyərləndiriləcək, qiymətləndiriləcəkdir. Çünki xalqda, millətdə elmi dünyagörüşü formalaşacaq, xalq bəsirət sahibi olacaqdır. Axundova "Ustadi-əziz" [25, 106] deyən Cəlil Məmmədquluzadə xalqın ona sevgisini yenə də özünəməxsus şəkildə yuxusu ilə anlatsa da həqiqət öz mövcudluğunu tapmaqdadır. Jurnalda oxuyuruq: "Yuxuda gördüm ki, mərhum Fətəlinin anadan olmağının ikiyüzillik yadigar bayramıdır, teatr doludur müsəlmanlar ilə, orada birisi nitq söyləyir və deyir ki: "Ax nə olaydı ki, barı mərhumun bu məclisdə bir oğlu, ya qızı olaydı, gedib onu ziyarət edib əlindən öpə idik" [2].

"Molla Nəsrəddin" jurnalında işıqlandırılan Mirzə Fətəli Axundovun maarifçi baxışlarına, ideyalarının təbliğindəki görüşlərinə yekun vurarkən qeyd edək ki, "Molla Nəsrəddin" jurnalı Mirzə Fətəli Axundovun ideyalarına hörmətlə yanaşmış, islam dininə deyil, islam dininə gətirilən və sağlam zəkaya uymayan etiqadlara, xəyalatlara gülmüş, eyni dərəcədə kəskinliklə rədd etmişdir. Necə ki, "Molla Nəsrəddin" jurnalında oxuyuruq: "Molla Nəsrəddinin məqsədi nə dinə sataşmaqdır, nə də təzə bir məzhəb icad eləməkdir. Molla Nəsrəddinin qəsdi vəhşi adətlərin ortalıqdan götürülməyi yolunda çalışmaqdır" [26]. Bu kimi sağlam baxış və görüşlər hər bir düşüncə sahibində əminlik yaradır ki, Mirzə Fətəli Axundov və "Molla Nəsrəddin" ədəbi-pedaqoji irsindəki maarifçilik ideyaları heç vaxt öz əhəmiyyətini və təravətini itirməyəcək.

## ƏDƏBİYYAT

1. "Molla Nəsrəddin" jurnalı, 1925, №21
2. "Molla Nəsrəddin" jurnalı, 1911, №42
3. Mirzə İbrahimov. Böyük demokrat. Bakı: 1957, 216 səh.
4. M.F.Axundov. Bədii və fəlsəfi əsərləri. Bakı: 1987, 368 səh.
5. "Molla Nəsrəddin" jurnalı, 1911, №43
6. "Molla Nəsrəddin" jurnalı, 1913, №1
7. "Molla Nəsrəddin" jurnalı, 1911, №43
8. Ə.Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Lider, 2005, 408 səh.
9. "Molla Nəsrəddin" jurnalı, 1909, №7
10. "Molla Nəsrəddin" jurnalı, 1911, №43
11. Xeyrulla Məmmədov. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: Yazıçı, 1987, 270 səh.
12. Əziz Şərif. Molla Nəsrəddin necə yarandı. Naxçıvan: Əcəmi, 384 səh.
13. Xalid Əlimirzəyev. Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri. Bakı: Yazıçı, 1991, 184 səh.
14. Yəhya Əliyev. Cəlil Məmmədquluzadə. Bakı: Azərnəşr, 1967, 56 səh.
15. Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. Dörd cilddə, IV cild. Bakı: Öndər, 2004, 472 səh.
16. Əziz Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı, 1980, 430 səh.
17. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014, 432 səh.

18. Tərlan Novruzov. Sabir ədəbi məktəbi. Bakı: Yazıçı, 1992, 216 səh.
19. Firidunbəy Köçərli. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1963, 343 səh.
20. Kamal Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, 328 səh.
21. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə, II cild, Bakı: Azərnəşr, 1960, 908 səh.
22. Orucəli Həsənov. Tarixilik və müasirlik. Bakı: Yazıçı, 1985, 294 səh.
23. Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərnəşr, 1964, 304 səh.
24. “Molla Nəsrəddin” jurnalı, 1906, №28
25. İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009, 424 səh.
26. “Molla Nəsrəddin” jurnalı, 1911, №44

UOT 376

# DAUN SINDROMLU ADAMLARIN BACARIQ VƏ QABİLİYYƏTLƏRİ, ONLAR ÜÇÜN İNTEQRATİV TƏHSİL SİSTEMİNİN İMKANLARI

***Səlbi Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetiı*

**Açar sözlər:** *intellekt testləri, təhsil resursları, tipik, pozitiv, inteqrasiya, endokrin pozulma, diaqnoz, motorika*

Daun sindromlu uşaqların ümumi təhsil sisteminə daxil edilməsində bir sıra problemlər üzə çıxır. Əsas problem onların təlimi məsələləri ilə başlayır. "Təlimə bacarıqlı" və "Təlimə yararsız" anlayışlarının kriterial qiymətləndirilməsi pedaqoji sistemdə təlim texnologiyalarının nəticələrinə deyil, böyüklərin və inkişafetdirici ətraf mühitin fərdi psixofiziki və sosial irəliləyiş təcrübəsinə yönəldilməlidir. Belə uşaqların təhsil sistemi psixoloji və korreksiyaedici pedaqoji köməyin müxtəlifliyinə və tərkibinə elmi əsaslanmış yanaşmalar tələb edir.

Daun sindromlu uşaqların inteqrativ təliminin effektivliyi həm ümumtəhsil məktəblərdə, həm də xüsusi (korreksiyaedici) məktəblərdə mütəxəssis kadrların hazırlanmasından asılıdır. Hazırlığın məqsədi kütləvi məktəblərin və uşaq bağçalarının pedaqoqlarının bu kateqoriyalı uşaqların kvalifikasiyalı təlimi və tərbiyəsi üçün defektoloji biliklərlə və xüsusi pedaqoji texnologiyalarla dərindən tanış olmalarını təmin etməkdir.

Daun sindromlu uşaqlara kompleks formada olan korreksion-psixoloji-pedaqoji köməyin təşkili zamanı qeyd olunmuş amillərdən hər hansı birinin nəzərə alınmaması işin nəticəsinin effektliyinə, uşağın potensial imkanlarının aşkarlanmasına mənfi təsir edər.

## УМЕНИЯ И СПОСОБНОСТИ ЛЮДЕЙ С СИНДРОМОМ ДАУНА И ВОЗМОЖНОСТИ ИНТЕГРИРОВАННОЙ СИСТЕМЫ ОБУЧЕНИЯ

***Селби Абасова***

**Ключевые слова**: *тесты интеллекта, образовательные ресурсы, типичный, позитивный, интеграция, эндокринное нарушение, диагноз, моторика.*

Существует ряд проблем с включением детей с синдромом Дауна в систему общего образования. Основная проблема начинается с проблем их обучения. Критериальная оценка концепции «обучения навыкам» и «неспособность к обучению» должна быть сфокусирована на опыте индивидуального психофизического и социального развития взрослых и среды развития ребенка, а не на технологиях обучения в педагогической системе. Такая система образования детей требует научно обоснованного подхода к разнообразию и к структуре психологической и коррекционной педагогической поддержки.

Эффективность интеграции детей с синдромом Дауна зависит от подготовки специалистов в общеобразовательных школах, а также специальных (коррекционных) школ. Цель обучения - предоставить учителям государственных школ и детских садов четкое представление о дефектологии и о специальных педагогических технологиях обучения и воспитания детей этой категории.

Несоблюдение любого из упомянутых факторов в коррекционно-психологической и педагогической помощи детям с синдромом Дауна, может отрицательно сказаться на эффективности работы и выявления потенциала ребенка.

## SKILLS AND ABILITIES OF PEOPLE WITH DOWN SYNDROME AND THE POSSIBILITIES OF AN INTEGRATED TRAINING SYSTEM

***Salbi Abasova***

**Key words:** *intelligence tests, educational resources, typical, positive, integration, endocrine disruption, diagnosis, motorcycle*

There are series of problems including the children with Downs syndrome to the general education. The main problem begins with the problem of their teaching. Criterial assessment of conception “training skills” and “disability of training” must be focused on experiment of psychophysical and social progress of adults and development environment of child not on a technology training in pedagogical system. Such educational system of children demands scientific basis approach to the variety and structure psychological and corrective pedagogical support.

The effectiveness of integration of children with the Downs syndrome depends on preparation of the specialists in comprehensive schools and in special schools. The aim of training to give to the teachers of governmental

schools and kinder gardens legible picture about defectology and about special pedagogical technology trainings and upbringing of children in this category.

Noncompliance one of these factors in corrective psychological and pedagogical aid to children with Downs syndrome, can affect negatively on the effectiveness of process and revealing potential abilities of child.

Son illərdə "monqolizm" terminindən istifadə olunmaması və "Daun xəstəliyi" termininin məşhurlaşması təfəkkürümüzdəki dəyişikliklərdən xəbər verir.

Doktor Con Daun özünün orijinal işlərinin birində belə xəstəlikli uşaqların bacarıqlarının təsvirini vermişdi: "Onlarda yamsılama bacarıqları aydın ifadə olunur, hətta mimikalarında da təzahür edir. Onlar məzəlidirlər, hər şeyi tez hiss edirlər və bu da üzlərinin rəngində biruzə verilir. Onların yamsılama bacarıqlarını inkişaf etdirərək praktik yönümə istiqamətləndirmək olar" [2, 21]. C.L.Daunun dövründə yamsılama bacarığı şərti-irqi təsnifatda tipik monqol əlaməti kimi nəzərdən keçirilirdi . Bu nöqteyi-nəzəriyyə XVIII əsrin 30-cu illərinədək mövcud idi. Doktor F.Lens neqroid və monqoloidlərin məhdud intellektual imkanları haqqında kitabında bu irqlərin təsvirini vermişdir və bu təsvir eynilə Daun sindromunu xatırladırdı. F.Lens, ümumiyyətlə Daun sindromlu adamların yaradıcılıqdan çox yamsılama bacarıqlarına malik olmalarını göstərirdi. Bu fikrin əksinə çıxanlar da olurdu. Bu fikirlər amerika psixoloqları üçün daha xarakterik idi. Onlar şagirdləri müxtəlif təlim tələbatlarına görə qruplara bölürdülər: formal, strukturlaşmış və mexaniki (sonuncular məhdud imkanlı uşaqlar üçün nəzərdə tutulmuşdu). Elə bu terminlərlə də Daun xəstəlikli uşaqların valideynlərinə, uşaqların adi məktəbdə oxumaqları üçün imtina edilirdi. XIX əsrin sonunda əqli cəhətdən geri qalan uşaqlar üçün ilk siniflər təşkil olunmağa başlanılmışdı. Bu siniflərə adi məktəblərdə əzbərləmə vasitəsilə dərsi öyrənə bilməyən uşaqlar seçilirdi. Doktor F.Lens öz tədqiqatları ilə əqli geriliyi olan bütün uşaqlarda yamsılama bacarığının olmasını əsaslandırmış və "təlimə yararlı deyil" fikrinə qarşı çıxmışdı. Ümumiyyətlə, xüsusi uşaqların təlim yeri və təlim metodikaları haqqında ümumiləşmiş fikirlər yanlışdır. Daun sindromlu uşaqların bir qismi təlimin öhdəsindən asanlıqla gələ bilərlər, digər qismi isə çətinliklərlə üzləşə bilərlər. Onların bacarıq və imkanlarının səviyyələri fərdi olaraq qiymətləndirilməlidir. Belə bir xəstəliyi olan uşaqlara əvvəlcədən "dərin əqli gerilik" diaqnozu qoyularsa, onların özlərini doğrultmaq, bacarıqlarını üzə çıxarmaq üçün necə şərait yaratmaq olar? İngiltərəli tədqiqatçı Ceyms Kerr Daun sindromlu uşaqları tədqiq edərək iddia edirdi ki, onların intellektual səviyyələri çox aşağıdır, tez-tez exolaliya və nitq qüsurları müşahidə olunur, samit səslərin artikulyasiyası pisdir, oxumaları və yazmaları mümkün deyil, amma onların çoxu musiqini sevir.Tipik monqolizm diaqnozu şübhə doğurmasa

da, belə uşaqlarla nəyə isə nail olmaq mümkündür, amma onlar həmişə imbesil olaraq qalacaqlar [2, 22].

1909-cu ildə digər müəllif G.F.Still bu uşaqları bir qədər fərqli təsvir edərək, onların intellektual səviyyələrini imbesillik kimi xarakterizə olunması fikrini rədd edir. Onun mülahizələrinə əsasən bu uşaqlar ətraf aləmə xüsusi maraq göstərirlər, tez adaptasiya olunurlar, lakin düşüncə və əsaslandırma tələb edən məsələlərdə çox ləngdirlər. 3-4 yaşlarında onlar şəkillərə maraq göstərir və məmnuniyyətlə karandaşla cızmaqaralar edirlər. Bir qədər böyük yaşlarda isə bəziləri hətta ən ağır səviyyəli monqolizmlə belə, sadə sözləri oxumağı və nümunə üzərində yazmağı da öyrənə bilirlər. 10 yaşlı monqolizmli uşaq 5 yaşlı normal uşaq kimidir. Lakin belə insanlar normal insanlarla müqayisədə tez qocalırlar. Onlar kobudluq edən, başqalarının qüsurlarını üzə vuran "çətin" uşaqlara da çevrilə bilərlər. G.F.Still öz araşdırmasında 9 yaşlı monqolizmli uşagı tədqiq edərək, ona verilən sualları intellektual səviyyəsi normal olan uşaqlardan daha tez cavablandırdığını, amma zarafatı duyma hissinin kiçik yaşlı uşaq səviyyəsində olduğunu müşahidə etmişdi [2, 22].

Tədqiqatçı A.F.Tredqold 1922-ci ildə nəşr etdirdiyi «Умственная недастаточность» adlı kitabında Daun xəstəlikli uşaqların bacarıqlarını yüksək qiymətləndirərək yazırdı ki, onların bir qismini idiotlara aid edirlər, çox hissəsinin əqli səviyyəsi imbesillik kimi qiymətləndirilir, az qismi isə debillik səviyyəsində olur. İmbesillər təmiz havada sadə əməkdən başqa heç nə bacarmırlar. Amma yüngül dərəcəli əqli geriliyi olanlar oxumağı, yazmağı öyrənə bilir, həm də ev üzrə yüngül işlərlə də məşğul ola bilərlər. Hətta elələrinə təsadüf olunur ki, onlar tikiş dəzgahlarını idarə edə bilir və yüngül kvalifikasiyalı əməklə məşğul ola bilirlər.

A.F.Tredqoldun təlimə yararlılığı optimist qiymətləndirməsinə baxmayaraq, digər tədqiqatçı H.H.Qoddardın ifadə etdiyi fikir uzun müddət bu insanlara qarşı pessimist baxışları qoruyub saxlayırdı: "Nə qədər təəccüblü olsa da, monqoloid-imbesillərin inkişaf səviyyəsinin dörd yaşlı uşağın inkişaf səviyyəsinə müvafiq olaraq qalması faktdır". Bu fikrə gəlmək üçün tədqiqatçılar Daun xəstəlikli insanların intellektual inkişaflarını və təhsildə nailiyyətlərini təhlil etmişlər. Daun sindromu olan 105 xəstə tədqiq olunmuşdu. Keçirilmiş tədqiqat nəticəsində Daun sindromlu uşaqların 30-55%-nin İQ səviyyəsinin 50-dən yuxarı olmaq şansı olduğu nəticəsinə gəlmişlər. Daun xəstəlikli uşaqların inkişafının qiymətləndirilməsi ilə məşğul olarkən, bu xəstələrin yaşlaşdıqca bacarıqlarını itirmələri haqqında faktlar əldə edilməmişdir. Tədqiqatçılar bu qənaətə gəlmişdilər ki, əgər erkən yaşda təlim-tərbiyə ilə məşğul olunsa, eləcə də onların sağlamlığı və emosional vəziyyəti nəzarətdə saxlanılsa, belə xəstəliyi olan uşaqların çoxu zəif əqli geriliyi olanlar kateqoriyasına daxil ola bilər.

Tədqiqatçı E.C.Batterfild 1924-cü il təvəllüdlü Daun sindromlu bir kişi üzərində müşahidə aparırdı. O, 12 yaşında olanda İQ səviyyəsi 36 olduğu halda,

36 yaşına çatanda İQ səviyyəsi 28-ə enmişdi. Bu kişi həmişə anası ilə yaşamış və anası daim ona xidmət etmişdi. 1955-ci ildə ana xəstələnərək xəstəxanaya düşür. Tək qaldıqda xəstə müstəqil olaraq ev işləri ilə məşğul olmağa, qida və başqa məhsulları almağa, hesabları ödəməyə, xırda ticarətlə məşğul olaraq büdcəsini doldurmağa başlamışdır. Asudə vaxtlarında yazır, pianoda ifa edir və musiqiyə qulaq asırdı. Lakin buna baxmayaraq, anası dünyasını dəyişəndə onu əqli cəhətdən geri qalanlar üçün xüsusi dövlət müəssisələrinə yerləşdirmişdilər. Bu hadisəyə müxtəlif tədqiqatçılar tərəfindən müxtəlif şərhlər verilmişdi. D.Gibson öz şərhində bunu "çoxsaylı məşqlərin nəticəsi" və ya "alim meymun" fenomeni adlandırmışdı. Lakin hər hansı bir psixoloji təzyiqin olmaması və kişinin vərdiş halı almış yaşayış tərzi D.Gibsonun şərhinə haqq qazandırmır. Belə ki, həyat rifahı intellektual proseslərin yüksək gərginliyini tələb etmir. Bu şərhə alternativ olaraq "xüsusi bacarıqlar" hipotezini irəli sürmək olar. Qeyd olunmuş hadisənin daha münasib təfsiri (interpretasiyası) xəstədə güclü göz yaddaşının olmasıdır. Məhz göz yaddaşı sayəsində o tək qaldıqda anasının evdə etdiyi işləri təkrarlayırdı. İlk baxışdan bu fakt xüsusi izah tələb etmir. Lakin psixometrik testlərin nəticələrinə görə xəstənin idrak proseslərinin aşağı səviyyədə olmasına baxmayaraq, onda bəzi bacarıqların olması faktdır. Belə ki, insanların intellektual bacarıq səviyyələrinin ölçülməsi üçün nəzərdə tutulan testlər maraq və qabiliyyətlərindən asılı olaraq, bir qrup fərdlər üçün yararlı olsa da, başqalarına uyğun gəlməyə bilər. Hətta tədqiqat zamanı Daun xəstəliyi olan bütün insan qruplarına müvafiq olan testlərdən istifadə olunsa da, xəstəliyin hər bir konkret halında müxtəlif nəticələr əldə etmək olar. Ümumiləşmiş məlumatları hər bir konkret şəxsə aid etmək olmaz. Ümumilikdə düzgün hesab olunan, ayrıca konkret bir hal üçün düzgün olmaya bilər.

"Naydjel Xantın dünyası" ("Мир Найджела Ханта" ) adlı kitabın müəllifi Daun sindromlu olub. O anadan olan kimi onun valideynlərinə uşağın əqli gerilikli və təlim-təhsilə yararlı olmayacağı haqda məlumat verilmişdi. Öz kitabında bu adam səyahətləri və həyat təcrübəsi haqqında danışırdı. Xantın kitabına ön söz yazan L.S. Penrouz bu insanın psixikasının üstünlükləri və çatışmazlıqlarını göstərmişdi: "Onun gözəl müşahidəçiliyi var, konkret hadisələrə isə yaddaşı qeyri adidir. Təfəkkürü xüsusidir. Onu uydurmalar deyil, faktlar maraqlandırır. O, heç vaxt heç nəyi ümumiləşdirmir. Naydjel Xantın kitabını təhlil edərək onun nəinki ümumiləşdirmə, həm də metaforalardan məharətlə istifadə etmək bacarığının olmasının da şahidi oluruq. O, atdığı addımın məsuliyyətini dərk edərək anasının narahat olmaması üçün stansiya işçisindən onunla əlaqə saxlamağı xahiş etmişdir. Bu Xantın öz hərəkətlərini təhlil etmək və düşünmək bacarığının olmasından xəbər verir" [2, 25].

Ümumiyyətlə, uşaqlar hərəkətlərinin mənasını anlayırlarsa, demək mürəkkəb təfəkkürə malikdirlər. Uşaqların vərdiş etdikləri mühitdə davranışlarını müşahidə edərək müvafiq situasiyalarda hərəkətlərinə uyğun düşünmə

qabiliyyətlərini qiymətləndirmək mümkündür. Daun sindromlu uşağın adekvat hərəkətləri bəzi tədqiqatçıların fikirlərinə zidd idi. Güman edilir ki, intellekt sadəcə ümumiləşdirməyi bacarmaqla yox, vacib olmayanları kənara qoyaraq, əsas olanları ümumiləşdirmək bacarığı ilə təzahür edir. Qeyd etmək lazımdır ki, Daun xəstəlikli adamlar haqqında ədəbiyyatlarda lazımsız ümumiləşdirmələr çoxdur. Ədəbiyyatların təhlili göstərir ki, Daun sindromlu adamlarla intensiv rejimli məşqlər nəticəsində yüksək funksional nailiyyətlər əldə etmək olar.

XX əsrdə Böyük Britaniyanın məşhur pediatorlarından olan professor R.S.İllinqvors Daun sindromunun təsvirini verərək onu “Monqolizm (Daun sindromu) xromosom patologiyası” adlandırmışdır. Onun təsvirindən sonra bir çoxları “Daun sindromu" terminindən imtina edərək, xromosom səviyyəli faktlara əsaslanmağa üstünlük vermişlər. Lakin xəstəliyin daha çox elmi adla adlandırılmasına baxmayaraq cəmiyyətdə əqli cəhətdən geri qalan insanlar tibbi və sosial stereotiplərin yaratdığı mühakimələrə görə cəmiyyət tərəfindən rədd edilirdilər. Artıq seqreqasiya (onun funksiyası inkişafsızlığa işarədir) özünü təsdiq etmiş diaqnoz kimi nəzərdən keçirilirdi. Mövcud problemin həllində növbəti addım əqli cəhətdən geri qalanların adi məktəblərə və peşə ixtisaslarına tam inteqrasiyası oldu. Əgər Daun xəstəlikli adamlar cəmiyyət tərəfindən qəbul edilmirdilərsə, bu onların qəsdən diskriminasiyası deyil, cəmiyyətdə “yeni vətəndaş” olduqlarından irəli gəlirdi. Bir qrup valideynlər mühakimələri və seqreqasiyanı müxtəlif mənbələrə aid etməklə övladlarının inkişafındakı qüsurları qəbul etmirlər. Çox zaman Daun xəstəlikli dölü əzab-əziyyətdən qaçmaq üçün deyil, cəmiyyəti “mənasız həyat”–dan azad etmək məqsədilə perinatal dövrdə məhv edirlər. Tədqiqatçıları Daun xəstəliyindən azad olmağın ən asan yolunun mükəmməl təlim-tərbiyə metodlarının axtarılmasında deyil, məhz dölün perinatal dövrdə məhv edilməsində tapılması narahat edirdi. Qüsurlu adamlardan bu cür yolla xilas olmağı Hitler Almaniyasının eytanasiya siyasəti kimi nəzərdən keçirilir. Bu cür nöqteyi-nəzər anadangəlmə sümük kövrəkliyi xəstəliyindən əziyyət çəkən Mikelin Mezon tərəfindən dəstəklənmişdir. Mezon sübut etməyə çalışırdı: “bəzi uşaqlar qüsurlu olsalar da, onlar normal həyatın bir hissəsidirlər. Həyatda qalmaq və ya ölmək qərarı isə ancaq özümüzə aid ola bilər” [2, 29]. Mezon xəstə dölə həyat vermək və ya onu məhv etmək qərarının qadına məxsus olmasının tərəfdarı idi. Amma bu seçimdə qadınlara təzyiqlər olması onu çox narahat edirdi. Qərarın qəbul olunmasında hər şeydən çox uşağa xidmət edən qadının çiyinlərinə düşən ağır işlə yanaşı, sosial quruluş və təminat səviyyəsi də böyük əhəmiyyət kəsb edir. Uşağın dünyaya qüsurlu gələcəyi haqda valideynlərə xəbər verən mütəxəssisin də bu işdə rolu böyükdür. Anadangəlmə defektlərin profilaktikası üçün bir psixoloq mütəxəssislərə belə bir məsləhət vermişdi: “Siz valideynlərə keçirəcəkləri emosional narahatlıqlar, üzləşəcəkləri sosial problemlər, qəbul etməli olduqları qərarlar haqqında ətraflı məlumat verməlisiniz. Belə uşağın dünyaya gəldikdən

sonra yaranacaq problemlərini olduğundan daha ağır formada təsvir etməlisiniz” [2, 30].

Əqli cəhətdən geri qalan adamlar üçün xəstəxanalar kliniki metodların imkanlarından düzgün istifadə etməməyin nəticələridir. Məktəblər ancaq fiziki və intellektual cəhətdən normal sayılan uşaqlar üçün nəzərdə tutulduğundan “imbesillər” və ya “idiotlar” təhsil sistemindən tamamilə kənarda qalmışdılar. Bu uşaqlar 1971-ci ilədək İngiltərənin, 1974-cü ilədək Şotlandiyanın, 1987-ci ilədək isə Şimali İrlandiyanın təhsil sistemi tərəfindən qəbul edilmirdilər. Psixoloji testləşdirmənin müstəqil inkişafı əqli cəhətdən geri qalanların problemlərinə diqqətin yönəlməsi üçün stimul ola bilərdi. Aydın idi ki, subnormal uşaqlar xüsusi məktəblərdə təhsil almalıdırlar. Valideynlər belə məktəblərdə təhsil almağı uşaqları üçün “möhür” hesab etdiklərindən, onları təhsildən yayındırırdılar. Daun uşaqların təhsil alacağı müəssisəni onların diaqnozu təyin edirdi. Onların imkanları, inkişaf etmiş yamsılama bacarıqları və təlimdə çətinlikləri haqda düzgün olmayan fikirlər onların müvəffəqiyyətlərinin real qiymətləndirilməsinə maneə yaradır və bu da Daun uşaqların haqsız olaraq dərin əqli geriliyi olan uşaqlar üçün məktəbə yönəldilməsinə səbəb olurdu. Xəstəliyin xarici görünüşdə təzahürü isə onların adi kütləvi məktəbdə təhsil almaqdan imtina etmələri ilə nəticələnə bilərdi. Sonrakı dövrlərdə yerli hökümət nümayəndələri Daun xəstəlikli uşaqların təhsildə orta səviyyəli çətinlikləri olan məktəblərdə təhsil almalarına şərait yaratmağı təkid etmişdilər. Xüsusi təhsil sisteminin seqreqasiyası üzündən belə uşaqların təhsili natamamlıq möhürü daşıyırdı. Uşaqların xüsusi məktəblərə seçilməsi və seqreqasiya iki nöqteyi-nəzərə əsaslanırdı: birincisi, şagirdlər effektiv təhsil almaq üçün nisbi eynicinsli qruplara bölünməlidirlər, ikincisi isə bu qruplardan bəziləri xüsusi binalarda təhsil almalıdırlar. Əgər klassik orta məktəbdə təhsil həvəsləndirici xarakter daşıyırdısa, inkişaf pozulmaları olan uşaqlar üçün məktəblərdə isə təlim cəzalanmaq qorxusuna əsaslanırdı. İnsanların bacarıqlarına görə qiymətləndirilməsi cəmiyyətin bütün strukturlarına kök atmış olduğundan məktəblərin belə bölgüsü təbii və qaçılmaz olmuşdur. 1944-cü ildən sonra intellekt testlərinin qanuniləşməsi, şagirdlərin məktəblərə ancaq yüksək intellekt göstəricilərinə əsasən seçilməsi təcrübəsi ən çox tənqidə məruz qalmışdı. Müxtəlif qüsurlu məktəblilərin müvəffəqiyyətli inteqrasiyası belə uşaqların inkişaflarındakı qüsurların dərinliyinə baxmayaraq, müvafiq proqram və metodikalardan istifadə olunmaqla onların adi məktəb sistemlərinə daxil edilməsi imkanlarından xəbər verirdi [2, 31].

Təhsil resurslarının düşünülmüş bölgüsü adi məktəbləri demək olar ki, bütün uşaqlar üçün, həm əqli geriliyi olan, həm də təlimdə orta səviyyəli çətinlikləri olan uşaqlar üçün mümkün edə bilərdi. İlk addım kimi mərkəzləşdirilmiş qaydada vacib olan vəsaitlərlə təmin edilə bilən məktəblər seçilməli və orada cəmiyyətin müxtəlif təbəqələrindən olan, müxtəlif bacarıqlı və istedadlı

uşaqların birgə təhsili üçün şərait yaradılmalıdır. Daha çox məktəb lazımi vəsaitlərlə təmin olunduqca, artıq məktəblərin mərkəzləşmiş təminatına olan ehtiyac aradan qaldırılacaqdır. Ekspertizanın inkişafı və xüsusu məktəblərin mərkəzləşdirilmiş regional təminat sisteminə keçirilməsi bir çox uşaqlara daimi və fasiləsiz dəstək ola bilərdi. Belə bir sistem İngiltərənin cənubunda da tətbiq olunurdu. Burada əqli geri uşaqlar üçün olan məktəbin şagirdləri qruplara bölüşdürülmüşdülər: iki qrup–qonşuluqda olan ibtidai məktəbin məktəbəqədər və ibtidai siniflərində, üçüncü qrup isə–yaxınlıqda olan birləşmiş məktəbdə (İngiltərədə ibtidai, orta və kollec tipli məktəblərin birgə sistemi birləşmiş məktəb adlanır).

1971-ci ildə İngiltərənin cənubunda 3-8 yaşlı əqli gerilikli uşaqların təhsili uşaq bağçalarının bazasında həyata keçirilirdi. Burada əqli geriliyi olan uşaqlar çətinlik səviyyəsindən asılı olmayaraq adi ibtidai və orta məktəblərə gedirdilər. Bu məktəblərin heç biri pedaqoji baxımdan mükəmməl deyildir. Buna baxmayaraq, valideynləri, müəllimləri və şagirdləri bu sistem qane edirdi. Dövrün bir sıra tədqiqatçılarının (Sinson J.C.,Wetherick N.E.) tədqiqatlarda əldə etdikləri nəticələrə görə Daun xəstəlikli uşaqlar tipik uşaqlarla birgə məktəbəqədər oyun qruplarına və adi uşaq bağçalarına yönəldilərsə, onların inkişafı üç yaş dövrünə uyğun ola bilər. Bu müəlliflərin bir sıra məqalələrində uşaqların maraqları cəmiyyətin və valideynlərin maraqlarına qarşı qoyulur: "Daun xəstəliyi olan uşaqların valideynləri və ətrafdakılar bu uşaqların tipik uşaqlardan az fərqləndiklərini dərk etdikcə, onları olduqları kimi qəbul etməyə başlayacaqlar. Tipik uşaqlar qəhrəmanlıq göstərərək Daun sindromlu uşaqlarla münasibət yaratmağa çalışırlar. Amma cəhdlər uğursuz olduqda, kontakt yaranmadıqda onlar cəhdlərdən əl çəkirlər. Nəticədə Daun xəstəlikli uşaq təcrid olunur və ancaq ona himayədarlıq edənlərlə ünsiyyətə girirlər". Müəlliflər Daun xəstəlikli uşaqların adi məktəbdə təlimdə çətinlikləri olan uşaqlarla birgə təhsil almalarını bir müddət müşahidə edərək fikir vermişdilər ki, qrupun əsas tərkibini təşkil edən uşaqlar Daun sindromluları öz qruplarına qəbul edirlər. Unsiyyətin qurulmasında başlıca rol qrupun əsas tərkibinə məxsusdur. Əsas tərkibə isə böyüklərin bu və ya digər formada təsiri hiss olunurdu. Tədqiqatlar seqreqasiyanın təbii və pozitiv yol olması haqda fikir yürütməyə imkan verirdi və bu sistemdən uzaqlaşmaq eksperimental tədqiqatlar vasitəsilə təsdiq olunmalı idi. Əgər bu sistemlə yanaşı inteqrasiya ideyası da irəli sürülürsə, demək, vahid təhsil sistemində - uşaq bağçası, ibtidai və orta məktəb – xüsusi uşaqların təhsili üçün xüsusi şərait yaradılmalı idi.

Daun xəstəlikli uşaqlarda rast gəlinən morfoloji qüsurlardan olan anadangəlmə ürək çatışmazlıqları onların gələcək həyatında böyük məna kəsb edir. Endokrin pozulmalara gəldikdə isə trisomiya 21-də qalxanabənzər vəzin və cinsi vəzlərin funksiya çatışmazlıqları başlıca yer tutur. Reabilitasiya və pedaqoji proqnoz üçün intellektual qüsurun səviyyəsindən, psixoloji

əlamətlərdən, psixikanın xüsusiyyətlərindən, uşağın fəaliyyət və davranışından başqa sensor sistemlərin vəziyyəti də əhəmiyyətli dərəcədə vacibdir. Məlumdur ki, Daun xəstəlikli uşaqların təqribən 60%-də müxtəlif formalı göz patologiyaları olur. Bu patologiyaların 2/3 hissəsi görmənin müxtəlif dərəcədə itirilməsi ilə nəticələnir. Beləliklə, Daun xəstəlikli uşaqların 40%-i nəinki əqli gerilikli, həm də zəif görən olurlar. Görmənin zəifləməsi onların onsuz da dəqiq olmayan, fraqmentar görmə qavrayışını daha da pisləşdirir və idrak bacarıqlarının inkişafını ləngidir. Daun xəstəliyi zamanı eşitmənin məqsədyönlü öyrənilməsi nəticəsində məlum oldu ki, oliqofreniyanın bu forması olan uşaqların 70%-i zəif eşitmədən əziyyət çəkirlər. Erkən və kiçik yaş dövründə onlarda adətən ancaq eşitmə sümüklərinin və ya xarici qulaq keçəcəyinin sümüklü hissəsinin qüsurlu formalaşması ilə şərtlənən anadangəlmə konduktiv eşitmə pozulmaları müəyyən edilir. Sonradan bu diaqnoza səs qəbulunun pozulması da əlavə olunur. Yaxşı məlumdur ki, eşitmənin hətta yüngül formada pozulması xüsusilə də əqli geriliyi olan uşağın nitqinin inkişafına və uşağın idrak fəaliyyətinə mənfi təsir edir. Deməк, Daun xəstəlikli uşağın eşitmə və görmə pozulmalarını erkən diaqnozlaşdıraraq vaxtında korreksiya etmək vacibdir [1, 3]. Tədqiqatlar göstərir ki, trisomiya-21 ilə dünyaya gələn uşaqların çox hissəsində mürəkkəb qüsurlar müşahidə olur. Bundan irəli gələrək, Daun xəstəlikli uşaqların təlimi, sosial adaptasiyası, idrak bacarıqlarının inkişafında maksimal nailiyyətlər əldə etmək üçün korreksion-pedaqoji tədbirlər proqramına eşitmə və görmənin inkişafı üzrə məşğələlər də əlavə edilməlidir.

Əsaslı tibbi müayinədən sonra adətən xəstələrə mərkəzi sinir sisteminin fəaliyyətini stimullaşdıran preparatlar, xəstənin səhhətinin göstəricilərinə əsasən sedativ, neyroleptik, qıcolmalara qarşı vasitələr, hormonal preparatlar, ümumi möhkəmləndirici müalicə və terapiyanın digər növləri təyin olunur. Medikamentoz müalicənin müvəffəqiyyəti erkən dövrdən başlayaraq medikamentoz terapiyanın adekvat korreksion-pedaqoji tədbirlərlə paralel keçirilməsindən asılıdır. Çoxsaylı tədqiqatların nəticələrinə əsasən müəyyən edilmişdir ki, Daun xəstəlikli uşaqların uzun müddət ərzində vitamin və mineral duzlarla müalicəsinin nəticəsi onların idrak bacarıqlarının və nitqlərinin inkişafına effektli təsir göstərmir. Müvafiq olaraq vitaminoterapiya 21 trisomiyalı uşaqların müalicəsində mərkəzi sinir sisteminin fəaliyyətini stimullaşdıran bioloji aktiv maddələri əvəz edə bilməz.

Daun xəstəlikli uşaqlara kömək məqsədilə onların xarici görünüşlərinin korreksiyası üçün plastik cərrahiyyənin müxtəlif metodlarından istifadə olunur. Belə əməliyyatlar (nitqin yaxşılaşmasına gətirib çıxaran dilin rezeksiyasından başqa) bilavasitə uşaqların əqli inkişafına təsir etməsə də, onların ətrafdakı insanlarla ünsiyyətinə müsbət təsir edir.

Bu xəstələri xarici əlamətlərinə görə ətrafdakılara tanıdan xüsusi cizgilərin korreksiyası Daun uşaqların və onların valideynlərinin cəmiyyət ilə

normal kontakt yaratmasına imkan verir. Belə korreksiya yüngül dərəcədə intellektual çatışmazlığı olan xəstələrin şüurunun formalaşmasına müsbət təsir edərək onların sosial adaptasiyasını asanlaşdırır.

Daun xəstəliyinin tibbi və bioloji aspektləri genişdir. Uşağın inkişafının pozulması əsasında yaranan patologiyanın öyrənilməsi onda olan qüsurun xüsusiyyətlərini təhlil edərək düzgün korreksiyanın yollarını tapmağa imkan verir.

Psixoloji-pedaqoji proqramlarda nəinki uşağın psixikasının affektiv və koqnitiv sferaları, eləcə də fiziki aktivliyi, təlimi və Daun uşaqların valideynlərinin uşaqların tərbiyəsinə hazırlığı nəzərə alınır.

Elmdə Daun xəstəliyi əqli geriliyin oliqofreniya kimi anadangəlmə qeyri proqrediyent formasıdır. Bu o deməkdir ki, oliqofren uşağın inkişafı sağlam uşağın inkişafından sinir-psixi funksiyaların püxtələşməsi müddəti ilə fərqləndiyi kimi, həm də keyfiyyət göstəricilərinə görə fərqlənir. Defektoloqlar onu, əsasında beynin ayrı-ayrı struktur və funksiyalarının tam formalaşmaması duran inkişaf ləngiməsindən fərqləndirirlər. Daun xəstəlikli uşaqların beyninin inkişafında gedən pozulmalar ontogenezin ən erkən mərhələlərində baş verir. Erkən qüsurun nəticəsi təkcə beynin ali şöbələrinin inkişaf etməməsi deyil, həm də bütünlükdə mərkəzi sinir sisteminin düzgün olmayan morfoloji və funksional təşkilidir. Belə uşaqlar üçün xarakterik olan nitq inkişafının və görmə qavrayışının pozulması beyinin sağ yarımkürəsinin dominantlığından xəbər verir.

M.N.Fişmanın neyrofizioloji tədqiqat metodlarının köməyi ilə əqli geriliyi olan uşaqların mərkəzi sinir sisteminin pozulmaları haqqında daha dəqiq məlumatlar əldə edilmişdir [4, 9]. O, sağlam uşaqlarda, psixi ləngiməsi olan uşaqlarda və əqli geriliyi olan uşaqlarda beynin elektriklə aktivləşdirilməsi nəticəsində əldə edilmiş göstəricilərə əsasən xarici informasiyanı qavramaq prosesinin sistemli təşkilini müqayisə etmişdir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, digər iki qrupun uşaqlarından fərqli olaraq əqli geriliyi olan uşaqlarda beyinin qabıq strukturunun, xüsusən də alın və təpə hissələrinin inkişafsızlığı ilə birgə mərkəzi sinir sisteminin təşkilinin ifadə olunmuş struktur-funksional pozulmaları müşahidə olunur. Bu da mərkəzi sinir sisteminin assosiativ fəaliyyətini kəskin dəyişir. Beyinin təşkilinin pozulması sağ və sol yarımkürələrin fəaliyyətinin dəyişməsində özünü göstərir. Əqli geriliyi olan uşaqlarda fərqləndirmə, qavrayış, informasiyanın təhlili sağ yarımkürədə baş verir. Onlarda ancaq sağ yarımkürənin dominantlığını nəzərə alsaq, perseptiv fəaliyyətləri gözlənildiyindən daha kobud pozulmuşdur. Oliqofren uşaqlarda olan qüsur sol yarımkürənin anomal xarakterli fəaliyyətinə görə onunla kompensasiya oluna bilmir. Beləliklə, M.N.Fişman əqli geriliyi olan uşaqların analitik-sintetik fəaliyyət pozulmalarının dərin mexanizmlərini aça bilmişdir. Onun əldə etdiyi məlumatlar əqli geriliyi intellektual fəaliyyətin

digər pozulmalarından fərqləndirməsini və əqli geriliyi olan uşaqların təlim-tərbiyə metodlarının işlənilməsini mümkün etmişdi.

Daun xəstəliyi zamanı oliqofrenik əqli gerilik müşahidə olunduğundan belə xəstəliyi olan uşaqlarda yaş artdıqca, ləng olsa da, psixi inkişafın müsbət dinamikası gözlənilir. Daun xəstəlikli uşaqlarda yaş artdıqca İQ səviyyəsinin azalmasına mərkəzi sinir sistemində gedən erkən degenerativ proses nəticəsində onların intellektual inkişafının mənfi dinamikasının əlaməti kimi baxmaq olmaz. Psixometrik göstəricilərin enməsinə baxmayaraq Daun uşaqlarda yaş artdıqca əqli inkişafda və bacarıqların əldə edilməsində irəliləyişlər qeyd olunur. Bundan irəli gələrək kiçik yaşlı uşaqların psixometrik testləşdirilməsinə çox ehtiyatla yanaşmaq lazımdır. Postnatal inkişaf dövrünün ilk beş ili ərzində sağlam və əqli geriliyi olan uşaqların imkanları arasında fərq dayanmadan artır. Bu mənfi yaş dinamikasından deyil, anomal inkişafdan xəbər verir. Hesab olunur ki, idrak fəaliyyətinin aşağı səviyyəli inkişafı motorikanın inkişafsızlığından irəli gəlir. Tədqiqatların nəticələrinə əsasən Daun uşaqların motor çatışmazlıqları ikincili qüsur deyil, intellektual sferanın inkişafsızlığı kimi ilkin qüsurdur. Daun xəstəliyi zamanı motorikanın inkişaf etməməsində idrak fəaliyyətinin inkişafsızlığından daha çox mərkəzi sinir sisteminin koordinasiyanı, motorikanın planlaşdırılmasını və motorikaya nəzarəti təmin edən spesifik strukturlarının inkişafsızlığı rol oynayır. Motor fəaliyyətinin özünəməxsus pozulmalarının korreksiyası xüsusi metodlar tələb edir.

Əqli geriliyi olan uşaqlarda adətən nitqin ümumi inkişafsızlığı müşahidə edilir. Unutmaq olmaz ki, Daun xəstəlikli uşaqlar zahirən bir-birinə nə qədər çox oxşasalar da, idrak fəaliyyətinin, nitqin, motorikanın inkişaf səviyyələrinə, eləcə də sensor sistemlərinin vəziyyətinə görə bir-birindən fərqlənirlər. Demək onların təlim bacarıqları da eyni olmayacaqdır. Erkən uşaqlıq dövründə bu bacarığın əsas göstəricisi oyun olduğundan ondan əqli geriliyi olan uşağın inkişaf diaqnostikasının vasitələrindən biri kimi istifadə etmək olar. Belə uşaqlardan çoxunun xüsusi metodlar vasitəsilə baza təhsil bacarıqlarını qavradıqları şübhə doğurmur. Alman tədqiqatçıları tərəfindən Daun uşaqların məktəb təliminin effektivliyinin uzunmüddət ərzində öyrənilməsi, onların hətta təhsil proqramlarının öhdəsindən gələ bilmədiyi hallarda da, köməkçi məktəblərdə təhsillərini davam etdirməyin məqsədəyönlü olması nəticəsinə gəlmişlər [3, 128].

Ümumiyyətlə, Daun sindromlu adamlara kömək onların həyata göz açdıqları andan- valideynlərə doğulan uşağın diaqnozu haqqında xəbər verərkən psixoloji yardımla başlamalıdır. Bu kömək xəstəliyin fəsadlarının müalicələri ilə məşğul olan həkimlərin, böyük yaşlı Daunların məşğulluq sisteminin təşkili, bu kateqoriyalı insanların maraqlarını müdafiə edən təşkilatların münasibətində özünü göstərir.

## ƏDƏBİYYAT

1. Блюмина М.Г. «Распространенность, этиология и некоторые особенности клинических проявлений сложных дефектов», Журнал Дефектология. 1989 № 3.

2. Под. ред. Девида Лейна, Бриайна Стредфорда «Современные подходы к болезни Дауна», Монография, Москва «Педагогика», 1991.

3. Малер А.Р., Цикото Г.В. «Обучение, воспитание и трудовая подготовка детей с глубокими нарушениями интеллекта», М., 1988.

4. Фишман М.Н. «Интегральная деятельность мозга детей в норме и патологии» М ., Методическое пособие 1989.

**UOT 159.9**

# GƏNC AİLƏLƏRDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN GENDER ASPEKTLƏRİ VƏ ONUN SOSİAL-PSİXOLOJİ TƏSİRİ

***Kifayət Əhmədova***
*Naxçıvan Müəllimlər İnstitutu*
*kifayet_ ehmedova @ mail.ru*

**Açar sözlər:** *valideyn, övlad, ailə, tərbiyə, ər-arvad, oğlan, qız*

Gənc ailələrdə ailə-nikah münasibətlərinə maddi təsir edən səbəbdən biri də ər və arvadın ailədə vəzifəsi barədə məlumatların az olması, əks cinsin psixoloji xüsusiyyətlərinə dair biliklərin azlığıdır. Bu isə onların bir-birlərini başa düşmələrinə, ər-arvad arasında empatiyanın olmasına və bunların nəticəsində konfliktin yaşanmasına gətirib çıxarır. Bir çox hallarda isə bu səbəbdən ailə dağılır.

Məlum olduğu kimi, cinsi fərqlər həyat və fəaliyyətin demək olar ki, bütün sahələrində özünü göstərir. Bu sahədə tədqiqat aparan psixoloq və pedaqoqlar (Y.P. Azarov, A.A. Bodalyov, Ə.Ə. Əlizadə, İ.S. Kon, L.Y. Verd və b.) qeyd edirlər ki, cinsi fərqlər sosial status, fəaliyyət sahəsi eləcə də qarşılıqlı münasibətlərin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Tədqiqatın nəticələri göstərir ki, ailənin tərbiyəedici potensialı yalnız öz səviyyəsinə görə deyil, strukturuna görə də fərqlənir. Bəzi ailələrdə valideyn nüfuzu, digərlərində isə ailənin psixoloji mühiti önə keçir. Bütün bunlar isə həm də uşağın fərdi xüsusiyyətlərini müəyyənləşdirir.

## ГЕНДЕРНЫЕ АСПЕКТЫ И ЕГО СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ВОЗДЕЙСТВИЯ В МОЛОДЫХ СЕМЬЯХ И ВНУТРИ-СЕМЕЙСТВА

***Кифаят Ахмедова***

**Ключевые слова:** *родитель, ребенок, семья, воспитание, муж и жена, мальчик, девочка*

В статье обосновывается мысль, что в молодых семьях одним из причин, влияющих на материальные отношения семья-брак, является недостаточная информированность мужа и жены о ролях мужчины и

женщины, а также незнание психологических особенностей другого пола. А это приводит к их взаимному непониманию, созданию эмпатии между мужем и женой и вследствие этого к созданию конфликта между мужем и женой. Во многих случаях по причине этого семьи разрушаются.

В работе отмечается, что половые различия, можно сказать проявляют себя во всех сферах жизни и деятельности. Психологи и педагоги, ведущие исследования в этой области (Я.П.Азаров, А.А.Бодалёв, А.А.Ализаде, И.С.Кон, Л.Я.Верд и др.), утверждают, что половые различия имеют значение с точки зрения социального статуса спектра деятельности, а также изучения взаимных отношений. Эти учёные здесь выделяют два аспекта: регулирование взаимных отношений между полами и подготовка молодёжи к семейной жизни.

В заключении автор приходит к выводу, что естественно, семейная жизнь, семейная среда связаны и с процессами, и дующими в обществе, и с специфическими особенностями, присущими к той или иной семье. В результате создается зависимость между жизнью общества и семейной средой. А это находит свое отражение в психическом развитии, формировании личности и её мировоззрении подрастающего поколения.

## GENDER ASPECTS AND THEIR SOCIO-PSYCHOLOGICAL INFLUENCE ON THE FAMILY RELATIONS IN THE YOUNG FAMILIES

***Kifhayat Ahmadova***

**Key words:** *parents, children, family, education, husband-wife, boy, girl*

The article deals with the factors influencing the family-marriage relations in the young families. It is said that one of the factors influencing the family relations in the young families is the role division. The other factors are the lack of information about their duty in the family and the psychological peculiarities of the opposite sexes. This causes the misunderstanding and at last the conflict between them. In most cases it causes divorcing. Sex differences are seen in every field of life and activity. According to the pedagogues and psychologists investigating in this field (Y.P.Azarov, A.A.Bodalyov, E.E.Alizadeh, I.S.Kon, L.Y.Verd and so on) sex differences are important by the social status, activity field and as well as mutual relationship points. In this field they

show two main leaders: regulation of the mutual relationship between the sexes and the youth being ready for the family life.

At last we come to the conclusion that the family life is connected with the social processes and also with the specific peculiarities of the family. At the result there appears dependence between the society and family environment. It is reflected in the psychological development of the growing generation and in the outlook of the personality.

Gənc ailələrdə ailə-nikah münasibətlərinə maddi təsir edən səbəbdən biri də ər və arvadın ailədə vəzifəsi barədə məlumatların az olması, əks cinsin psixoloji xüsusiyyətlərinə dair biliklərin azlığıdır. Bu isə onların bir-birlərini başa düşmələrinə, ər-arvad arasında empatiyanın olmasına və bunların nəticəsində konfliktin yaşanmasına gətirib çıxarır. Bir çox hallarda isə bu səbəbdən ailə dağılır.

Məlum olduğu kimi, cinsi fərqlər həyat və fəaliyyətin demək olar ki, bütün sahələrində özünü göstərir. Bu sahədə tədqiqat aparan psixoloq və pedaqoqlar (Y.P. Azarov, A.A. Bodalyov, Ə.Ə. Əlizadə, İ.S. Kon, L.Y. Verd və b.) qeyd edirlər ki, cinsi fərqlər sosial status, fəaliyyət sahəsi eləcə də qarşılıqlı münasibətlərin öyrənilməsi baxımından əhəmiyyətlidir.

İ.S.Kon göstərir ki, cinsi fərqlərin öyrənilməsi, hər bir cinsə aid bioloji, psixoloji və sosial xüsusiyyətlərin nəzərə alınması onların fəallığını da yüksəldir. Bu isə həm özünə hörməti, həm də başqalarının ona hörmətini artırır. ”Aşağı səviyyəli özünəhörmət hissi şəxsiyyətin sosial faəllığını da aşağı salır. Özünə hörmət etməyənlər cəmiyyətin ictimai həyatında adətən iştirak etmirlər [1; 2].

Cinsi fərqlər və onun əsasında qurulan cinsi tərbiyə qadınlar və kişilər arasında əmək sahəsinin bölünməsi ilə nəticələnmişdir. Lap qədimlərdən kişi ailənin maddi təminatçısı və müdafiəçisi, qadınlar isə ailə ocağının qoruyucusu, uşaqların tərbiyəçisi rolunda çıxış etmişlər. Əməyin bölünməsi nəticəsində cəmiyyət inkişaf etmişdir. Hətta insan nəslinin xilasını bu əmək bölgüsü ilə bağlayan alimlər də olmuşdur.

Əməyin qadın və kişi arasında bölünməsi sosiogen determinantlarla da bağlıdır. Bu, sosial normalar, adət-ənənələr, milli xüsusiyyətlər, tərbiyə metodları vasitəsilə də tənzimlənir. Bu, eyni zamanda qadın-kişi qarşılıqlı münasibətlərində və sosial-psixoloji xüsusiyyətlərin formalaşmasında da öz əksini tapır.

Cinslər arasındakı sosiogen determinantlar həyat və fəaliyyətin iki mühüm sahəsində: ictimai-istehsal sahəsində və ailə-məişət sahəsində daha geniş şəkildə öz tətbiqini tapır. Bunlardan birincisində - ictimai-istehsal sahəsində tarixən kişilər dominant mövqe tutmuş, qadınlar isə ailə-məişət işləri

ilə məşğul olmuşlar. Son dövrlərdə, xüsusilə qloballaşma şəraitində sosial həyatda qadınların aktiv iştirakı xeyli güclənib. Nəticədə ailə həyatında bir sıra dəyişikliklər baş verib. Sosial həyatda qadınların aktiv iştirakı onların ailəyə, övlad tərbiyəsinə ayırdığı vaxtı bir qədər məhdudlaşdırır. Digər bir istiqamət artıq yalnız kişinin ailə başçısı olmaqla bağlı təkhakimiyyətliliyinin xeyli azalmasıdır.

Digər bir səbəb ailədə uşaqların sayının azalması və nəhayət, ər-arvad münasibətlərinin yeni müstəviyə keçməsi ilə əlaqədardır. Bunun isə həm neqa-tiv, həm də pozitiv cəhətləri artıq özünü göstərir. Maraqlıdır ki, indi qadınlar ailə həyatının necə qurulması, ailənin necə idarə olunması, ailə büdcəsinin toplanması və xərclənməsi işində daha çox fəallıq göstərirlər. Bununla bağlı keçirdiyimiz sorğuya əsasən belə bir nəticə alınıb ki, belə vəziyyət qadınları qane etmir. Göstərirlər ki, sosial həyatda aktiv iştirak etmələri, işdə çalışmaları və üstəlik ailə-məişət işlərində daha çox yüklənmələri onları yorur. Bunu işləyən qadınların 63,0 %-i qeyd edir. Bu vəziyyət sosial-psixoloji baxımdan qadınları qane etmir. Hətta işləyən qadınların 42,0 %-i daha çox ailələrinə vaxt ayırmağa üstünlük verdiyini qeyd edir. İşləyib, maddi baxımdan özünü təmin edən qadınlarda tək yaşamaqdan, müəyyən qədər sərbəst olmaqdansa, ailə qurmağa daha çox üstünlük verdiklərini bildirirlər.

Gənc ailələrdə uşaqların sayı məsələsində də ər-arvad arasında fikir ayrılığı meydana çıxır. Əgər ənənəvi ailələrdə uşaqların sayı çox idisə və bu məsələdə ər-arvad arasında fikir ayrılığı olmurdusa, indi ər ailədə əsasən 1-2, arvad isə 2-3 uşağın olmasına üstünlük verir. Uşaqların sayında ər və arvad arasında fərqli motivlər özünü göstərir. İlk növbədə kişilər iqtisadi çətinliyi və uşaqlara daha yaxşı təhsil verilməsini bildirirsə, qadınlar vaxtın azlığını, tərbiyə işindəki çətinliyi, işlərini itirməmək istəyini qeyd edirlər.

Kişi və qadın psixologiyasındakı fərqli cəhətlərdən biri də kişinin daha çox öz işində, qadının isə ailənin bütövlükdə olması istəyindədir.

Qadın və kişi psixologiyasındakı fərqlərdən biri də ailədaxili münasibətlərlə bağlıdır. Psixoloqlar (A.İ.Zaxarova, A.İ.Uşatikov, Ə.Ə.Əlizadə, A.Q.Xripkova və b.) göstərirlər ki, ailədaxili münaqişə oğlan və qızlara eyni səviyyədə təsir etmir. Yəni konflikt oğlanlara qızlarla müqayisədə daha kəskin təsir göstərir, psixikanı pozur. Eyni zamanda oğlan və qıza ata və ana fərqli mü-nasibət bəsləyir. Oğlan və qıza fərqli münasibəti, onlara nəzarəti Ə.Ə.Əlizadə sosial-cinsi nəzarət adlandırır.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, sosial-psixoloji baxım-dan faktiki olaraq ailə-nikah münasibətlərinin bütün sahələrində cinsi fərqlər özünü göstərir. Bu cinsi fərqlərin nəzərə alınması ailənin sabitliyi baxımından vacibdir. Bu, ailədaxili konfliktlərin, boşanmaların, ailədə uşaqların sayının azalmasının qarşısının alınması baxımından əhəmiyyətlidir.

Gənc ailələrdə ailənin mühit, ər-arvad münasibətləri, hətta daha çox valideynlərin münasibəti uşağın olması ilə bağlıdır. Azərbaycanda ailədə uşağın olması tarixən vacib şərtlərdən sayılmışdır. Lakin son dövrlərdə, xüsusən son iki onillikdə ailədə uşaqların sayının azalması kəskin şəkildə müşahidə olunur. Burada digər amillərlə yanaşı problem psixoloji aspektdə diqqəti çəkir. Hətta problemin ciddiliyi sosioloq, psixoloq və pedaqoqların da bu sahədə fikir söyləməsinə, tədqiqatlar aparmasına zəmin yaratmışdır. Ə.Ə.Əlizadə, A.N.Abbasov, R.İ.Əliyev və b. bu sahəyə xüsusi diqqət yetirmişlər. İlk vaxtdan bu problem motivasiya səviyyəsində araşdırılsa da, son dövrlərdə problem ustanovka, tələbat, sosial rol kontekstində öyrənilmişdir. Bununla belə, problem daha geniş sosial-psixoloji sahəni əhatə edir. Problem eyni zamanda cəmiyyətin inkişafı, sosial-tarixi şərait və s. ilə bağlı olub, insanların psixika və davranışında öz əksini tapır. İnamla söyləmək olar ki, şüurlu şəkildə ailə üzvlərinin sayı, bütöv ailə anlayışının, ailədə uşaqların rolu və s. məsələlər cəmiyyətdə gedən proseslərlə, insanların düşüncə tərzinə və sosial normalarla birbaşa bağlıdır. Təbii ki, burada gənc ər-arvadın dünyagörüşü, ailəyə münasibəti, onların fikir birliyi və s. təsir göstərir. Hətta ailədə ilk uşağln oğlan və ya qız olması, valideynlərin oğlan və ya qız istəyi təsir baxımından mühümdür. Bu amillər kompleks şəkildə ailədə uşaqıarın sayına təsir göstərir.

Uşaqların sayında ənənəvi çoxuşaqlı ailələrdən bir və ya iki uşaqlı ailələrə keçilməsi ər-arvadın davranış motivasiyasına, onların maraqlarına, şəxsiyyətin tipologiyasına da təsir edir.

Motivasiya ilə bağlı digər mühüm bir cəhət hələ ailə quranadək gənc oğlan və qızların ailə həyatına dair fərqli mövqe və yanaşmaları ilə əlaqədardır. İlk növbədə ailə idealları ilə reallıq arasındakı fərq meydana çıxır. Məşhur rus şairi Konstantin Simonovun yumoristik şəkildə dediyi bir fikir belədir. Yazıçılar öz romanlarını adətən qəhrəmanlarının evlənməsi ilə bitirilər. Çünki bindan sonra nə yazmalı olduqlarını bilmirlər.

İdeallıqla reallıq arasındakı fərqi isə kişi və qadın fərqli şəkildə qavrayır. Bununla bağlı S.V. Kovalyovun [3] tədqiaqatları maraq kəsb edir. Hesab edirik ki, onun gəldiyi qənaətlərin bir çoxu müasir gənc ailələr üçün xarakterikdir. Tədqiqatlardan məlum olur ki, sorğu keçirilən 266 ailənin hər onundan doqquzunda ünsiyyət çatışmazlığı özünü göstərir. Burada kommunikasiya, uşaqların tərbiyəsində fikir ayrılığı, maddi çətinlik, asudə vaxtın təşkili, qohumlarla əlaqə və s. problemlər daha kəskin şəkildə özünü göstərir. O, gənc ailələrdə ər-arvad arasında problemin yaranmasına aşağıdakı 10 amili aid edir:

1. Çoxsaylı problemlərlə bağlı fərqli şəkildə fikirləşirlər.
2. Əks tərəfin fikir və hislərini başa düşmürlər.
3. Dedikləri sözlər qarşı tərəfi qıcıqlandırır.
4. Tez-tez fikirləşirlər ki, əri (arvadı) tərəfindən sevilmir.
5. Həyat yoldaşı tərəfindən qayğı göstərilmir.

6. Əks tərəfə inamını itirir.
7. Hesab edir ki, arvadı (əri) onun etimadını doğrultmur.
8. Bir-birinə xoş sözlər söyləməkdə xəsislik edirlər.
9. Qarşı tərəfə psixoloji təzyiq göstərirlər.
10. Sevilməyə ehtiyac duyulur [3, 110]

S.V.Kavalyov ailə xoşbəxtliyi üçün aşağıdakı psixoloji faktorlara diqqət yetirməsini vacib sayır:

- normal, münaqişəsiz ünsiyyət;

-inam və empatiya (qeyd etmək istərdik ki, psixoloqlar empatiyaya qarşı tərəfin ümosional vəziyyətinin başa düşülməsi, ona isti münasibət bəsləməsini aid edirlər);

-bir-birilərini başa düşmək;

-asudə vaxtlarını birlikdə keçirmək [3, 111].

Göründüyü kimi, ailədaxili münasibətlərdə vacib yeri ünsiyyət və münasibət tutur. Gərək ailə həyatının ilk günlərindən ər və arvad hər ikisi münaqişə yarada bilən şeylərdən çəkinsinlər. Bunun üçün isə ünsiyyət mədəniyyəti, özünü qarşı tərəfin yerinə qoya bilmək, bir-birlərinə hörmətlə yanaşmaq, inanmaq və qarşılıqlı şəkildə səhvlərini bağışlaya bilmək tələb olunur.

Biz əsasən ailənin tərbiyəedici potensialını müəyyənləşdirən mühüm sosial-psixoloji faktorları araşdırmağa çalışdıq. Başqa sözlə, uşaq şəxsiyyətinin formalaşmasına təsir edən kompleks amilləri önə çəkdik. Bütün bu faktorları şərti olaraq dörd qrupa ayırmaq olar:

1) Ailə tərbiyəsini istiqamətləndirən faktorlar. Bura tərbiyənin mənəvi dəyərlərə, sosial normalara və s. uyğunluğu;

2) Valideynlərin bilavasitə ailədə tərbiyə işi ilə məşğul olmaları, tərbiyə işində əlbir fəaliyyətləri, uşaqlarla münasibət və ünsiyyətdə olmaları;

3) Valideyn nüfuzu, onların əmək fəaliyyəti ilə ailə tərbiyəsini uyğunlaşdıra bilmələri, şəxsi keyfiyyətləri;

4) Ailə həyatını necə təşkil edə bilmələri, ailənin psixoloji mühiti və s.

Göstərilən bu faktorlar bir-birlərilə sıx bağlıdır və kompleks şəkildə ailənin tərbiyəedici funksiyasını müəyyənləşdirir. Tədqiqatın nəticələri göstərir ki, ailənin tərbiyəedici potensialı yalnız öz səviyyəsinə görə deyil, strukturuna görə də fərqlənir. Bəzi ailələrdə valideyn nüfuzu, digərlərində isə ailənin psixoloji mühiti önə keçir. Bütün bunlar isə həm də uşağın fərdi xüsusiyyətlərini müəyyənləşdirir.

## ƏDƏBİYYAT

1. Ümumi psixologiya. Dərslik. A.V.Petrovskinin redaktorluğu ilə. 2-ci nəşrdən tərcümə. Bakı: Maarif, 1982, 495 s.
2. Как построит свое «Я» \ Под ред . В.П.Зинченко, М. : Педагогика, 1991, 136 с.
3. Ковалев В.С. Психология современной семьи. М. : Просвещение, 1988, 208 с.

## Mündəricat

***Eynulla Mədətli.*** SOVET DÖVRÜNDƏ AZƏRBAYCAN İRAN MÜNASİBƏTLƏRİ İRAN TARİXŞÜNASLIĞINDA (1920-1941-Cİ İLLƏR) ........ 3

***Abbas Seyidov .***TƏRTƏR ABİDƏLƏRİNİN AZƏRBAYCAN ARXEOLOGİYASINDA YERİ ........ 15

***Гидаят Джафаров.*** ПОСЕЛЕНИЯ ШОРТЕПЕ И АЗЮРДУ В СИСТЕМЕ КУРО-АРАКСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ КУЛЬТУРУ АЗЕРБАЙДЖАНА ........ 23

***Cəbi Bəhramov, Solmaz Gözəlova.*** AZƏRBAYCANDA ENERJİ TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN YARANMASI TARİXİNDƏN ........ 32

***Mübariz Göyüşlü.*** MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ VƏ ONUN FORMALAŞMASINDA MƏTBUATIN ROLU ........ 38

***Anar Ömərov.*** BÖYÜK COĞRAFİ KƏŞFLƏR VƏ TARİXİ HƏQİQƏTLƏR ........ 46

***Əli İbrahimbəyli.*** AİLƏ MÜNASİBƏTLƏRİNƏ TELEVİZİYA VƏ İNTERNETIN TƏSİRİNİN ÖYRƏNİLMƏSİNDƏ ETNOMƏDƏNİ AMİLLƏRİN NƏZƏRƏ ALINMASI ........ 55

***Nailə Hüseynova.*** RINOLALIYANIN ETIOLOGIYASI, PATOGENEZI VƏ FORMALARI ........ 65

***Qadir Seyidov.*** ÇİN KONSERVATİZMİNİN TARİXİ VƏ İQTİSADİ TƏSİRLƏRİ ........ 72

***Sevinc İmanova.*** ORTA TUNC DÖVRÜ NAXÇIVAN TAYFALARININ İDEOLOJİ BAXIŞLARI VƏ İQTİSADİ HƏYATI ........ 80

***Allahverdi Əlimirzəyev.*** LULLUBİLƏRİN VƏ QUTİLƏRİN ETNİK ADLARINA DAİR ........ 86

***Fazil Baxşəliyev.*** RUSIYA IŞĞALINDAN SONRA AZƏRBAYCAN KƏNDINDƏ RƏNCBƏR KƏNDLILƏRƏ RƏSMI MÜNASIBƏT HAQQINDA ........ 94

***Nigar Abdinova.*** ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNİN MƏKTƏBLİLƏRIN ƏXLAQİ-MƏNƏVİ TƏRBİYƏSİNDƏ ROLU ........ 101

***Kamal Camalov***. “MOLLA NƏSRƏDDİN” JURNALINDA MÖVHUMATÇILIĞIN TƏSVİRİ VƏ TƏNQİDİNƏ NƏZƏRİ BAXIŞ ........ 107

***Səlbi Abasova.*** DAUN SINDROMLU ADAMLARIN BACARIQ VƏ QABİLİYYƏTLƏRİ, ONLAR ÜÇÜN İNTEQRATİV TƏHSİL SİSTEMİNİN İMKANLARI ........ 116

***Kifayət Əhmədova.***GƏNC AİLƏLƏRDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN GENDER ASPEKTLƏRİ VƏ ONUN SOSİAL-PSİXOLOJİ TƏSİRİ ........ 128

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal*

*2017, 4(19)*

***Çapa imzalanmış*** *20.*12.2017-ci ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 16,5***
***Sifariş*** 551, ***sayı*** *200*

***Bakı, Ü.Hacıbəyli küçəsi****, 68*
Telefon: (+994 12)493 05 85
E-mail: sevinc0610@mail.ru
www.adpu.edu.az